İlahiyyatçı-filosof Hacı İlqar İbrahimoğlunun
Mənəvi üçaylıq barədə xütbə və moizələri əsasında

# ÜÇ AYLIQ
# MƏNƏVİ SƏFƏR






**M Ü N D Ə R İ C A T**


**ÖN SÖZ**.....................................................................................5
**ÜÇ AYLIQ MƏNƏVİ SƏFƏR**..........................................................8

Haradadır Rəcəb əhli?.....................................................................9
Zikrlərin müqabilində şəhidlərin savabı verilən ay.........................15
Rəcəb ayının fəzilətləri....................................................................20

**KAMİL İNSANIN KƏBƏ MÖVLUDU**.........................................28

Allah evindən başqa yer tapılmadı bu mövlud üçün........................29
İdeal davranış mödeli........................................................................35
Həzrət Əlinin aşiqi necə olmalıdır?.................................................39

**RƏCƏB AYININ FƏLSƏFƏSİNİ AÇAN TARİX**.......................46
Dilində "Hüseyn!" nidası ilə vəfat edən Zeynəb (s.ə).....................50
Ali əxlaqların tamamlandığı gün – Məbəs.......................................54

**PEYĞƏMBƏRİN (S) MÜKAFATINI VERƏCƏYİ AY**...........58

Şəban ayının orucu – behiştin açarıdır.............................................63
Zəmanə Sahibinin Mövludu və müntəzirlik.....................................66

**ƏVVƏLI RƏHMƏT, ORTASI BAĞIŞLANMA, AXIRI CƏHƏNNƏM ATƏŞINDƏN AZADLIQ RAMAZAN AYI**............................................................................................74

Həzrət Peyğəmbərin (s) Ramazan ayı öncəsi müraciəti.................75
İblisə qələbə çalma fürsəti...............................................................78
Yarım xurma iftarı............................................................................80

**RAMAZAN AYININ İMKANLARI VƏ HƏDİYYƏSİ**.........84

Yaradanın nə ehtiyacı bizim ac-susuz qalmağımıza?...............86
Ramazan ayı orucunun hədiyyəsi............................................88
Bağışlanma diləmə fürsəti.....................................................93

**QURANİ-KƏRİMDƏ RAMAZAN AYI ÇATDIRIŞI**..........96

Çətinliyi aradan aparan şirinlik..............................................98
Orucun statusu.....................................................................100
Allah Təala İslam ümmətini Ramazan ayı orucu ilə şərəfləndirib..........................................................................102
Qəzəb qüvvəsi ilə rəftarı öyrənmə ayı...................................107

**İLAHİ ZİYAFƏT SÜFRƏSİNİN NEMƏTLƏRİ**................110

Mükafatı özü kimi maddi olmayan ziyafət.............................112
Oruc – yeganə məxfi ibadətdir..............................................114
Orucu qəbul etdirməyən nədir?..............................................115
Oruc tutanın dəyəri................................................................120
Qəlbi və əzaları haramdan qorumalı........................................125
Ən üstün oruc hansıdır?..........................................................127

**ON BİR AYIN SULTANININ TACI – QƏDR GECƏSİ**......128

Özlərini bağışlanmaqdan məhrum edənlər...............................131
Vücudi tutumlar müəyyən olunan gecə...................................136
Bu ziyafətin qonağının libası – təqva geyimidir.......................137
Qədr gecəsinin təqva təcəssümü olan qəhrəmanı……………...140
Qədr gecəsi və Həzrət Fatimə (s.ə.).........................................144

**QÜDS GÜNÜ – İZZƏT GÜNÜDÜR**.......................................146

Ayılma günü..........................................................................148
Mübarək ayın axırıncı cümə günü...........................................150


رمضان كريم
يَا أَيُّهَا الَّذِينَ ءَامَنُوا كُتِبَ عَلَيْكُمُ الصِّيَامُ كَمَا كُتِبَ عَلَى
الَّذِينَ مِن قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ ١٨٣

# Ön söz

Hörmətli oxucu! Təqdim etdiyimiz bu kitab – ilahiyyatçı-filosof Hacı İlqar İbrahimoğlunun Mübarək Üçaylığa – Rəcəb, Şəban və mübarək Ramazan ayına həsr edilmiş xütbə, moizə və məqalələri əsasında hazırlanmışdır.

“Üç Aylıq Mənəvi Səfər” adlı kitab - bol fürsətlərlə zəngin olan Rəcəb, Şəban və Ramazan aylarında bələdçiniz olacaq, aylar davam etdikcə bu mənəvi səfərdə sizləri əhatəli mövzularla tanış edəcək.

Kitab on hissədən ibarətdir. İlk üç hissə Rəcəb ayına, növbəti bir hissə Şəban ayına, son altı hissə isə mübarək Ramazan ayına həsr olunub.

İlk hissədə sizlər Allah ayı adlandırılan Rəcəb ayının imkanları, bu ayın mənəvi qidaları, dua, zikr və əməlləri, habelə Rəcəb ayının Allah yanında yeri barədə tanış olacaqsınız.

İkinci hissədə Kəbədə dünyaya gələn və məsciddə Rəbbinə qovuşan Həzrət Əmirəlmöminin Əli (ə) barədə söylənmiş xütbələr toplusu diqqətinizə çatdırılacaq. Üçüncü hissə isə Rəcəb ayının fəlsəfəsini bir qədər də açan Həzrət Zeynəb (s.ə) haqqında və Həzrət Rəsulallahın (s) Məbəsi barədə ətraflı məlumat verəcək.

Dördüncü hissə - Şəban ayı, bu ayın fəzilət və bərəkətləri, habelə Nimeyi-Şəban, Zəmanə Sahibinin (ə.f) mövludu və müntəzirlik fəlsəfəsinə həsr olunub.

Beşinci hissədə Ramazan ayı boyunca bizləri gözləyən mənəviyyat çeşməsinin müjdəsi çatdırılır və bu da Ramazan ayının əvvəlindən hazırlıqlar görməyə kömək edir. Burada Ramazan ayının kamil insanın yetişməsi üçün yaratdığı fürsətlərdən bəhs edilir.

Kitabın altıncı hissəsi – Ramazan ayının imkanları və bu ayın müqabilində verilən hədiyyələrdən bəhs edir. Yeddinci hissə - Qurani-Kərimdə Rəbbin Ramazan ayını tanıtdırmasına və buradan irəli gələn məsuliyyətə həsr edilib. Səkkizinci hissədə - bu ayın mənəvi nemətlərindən, yəni xüsusi ibadətlərindən bəhs edilir. Bu nemətlərin insanın il boyu aqibətinə necə təsir göstərməsindən söhbət açılır. Doqquzuncu hissə - on bir ayın sultanının tacı olan Qədr gecəsini və bu gecənin əzəmətini əhatə edir. Onuncu hissə isə - İlahi ziyafətdən çıxmaqda olan, mənəviyyat çeşməsində yuyulmuş insanın xalis durumla həyata keçirməli olduğu son missiyasına – Qüds gününə həsr edilib.

Əziz oxucu! Ümid edirik ki, bu kitab Mübarək Üçaylığı fərqli bir şəkildə yaşamağa, İlahi ziyafət ayına daha da keyfiyyətli hazırlaşmağa, bu ayların ibadətlərini həqiqi mahiyyətinə vararaq yerinə yetirməyə və toplumun mənəvi yüksəlişinə töhfə verəcək.

***

# Üç aylıq Mənəvi Səfər




# “Rəcəb ayının oruclularının siması Məhşəri nurlandırar”

Hacı İlqar İbrahimoğlu

## Üç aylıq mənəvi səfər

Qarşıdan, inşəallah, üçaylıq gəlir – Rəcəb, Şəban və mübarək Ramazan ayları. Bu, son dərəcə mənəvi yüklü bir səfərdir. Bu səfərdə mənəvi kamilləşmə üçün böyük fürsətlər vardır. Bu aylardan əvvəlincisi mübarək Rəcəb ayıdır. Rəcəb ayı – Allah qonaqlığı üçün səfərə hazırlıq aylarından birincisidir. Bu ay – tövbə diləmə, bağışlanma istəmə, ləyaqət və şərafət əldə etmə, yalandan, qeybətdən, böhtandan, sui-zəndən, digər qəlbi mərəzlərdən müalicə olunma ayıdır. Uca Allahdan istəyimiz budur ki, bu mübarək ayın əməllərindən bəhrələnməyi hamımıza nəsib etsin. Allah Təala bu mübarək ayda, inşəallah mənəvi yüksəliş əldə etməyi bütün diləyənlərə qismət etsin, inşəallah!

Əzəmətli bir ayın astanasındayıq. Çox yanlış bir iş olardı ki, bir insan Rəcəb ayı daxil olandan sonra nə etməlisi haqqında fikirləşsin. İnsan necə digər işlərini, özünün digər məsələlərini öncədən planlaşdırır, əvvəlcədən hazırlığını görür, elə o cür də gərək fövqəladə mənəvi fürsətlər olan bu aya da qabaqcadan hazırlaşsın. Əgər bu ayların gəlişi ilə bağlı lazımi araşdırmaları əvvəlcədən aparmasa, bu mənəvi nemətləri qəbul etmək üçün vəziyyətini düzənləməsə, İlahi ziyafətdən qədərincə və lazımınca bəhrələnə bilməyəcək.

Bir var insan mübarək Ramazan ayını səbrsizliklə gözləyir ki, bu ayın bütün imkanlarından faydalana bilsin və bu gözləməni mübarək müqəddimələrdə – Rəcəb və Şəban aylarında müəyyən edilmiş mənəvi yüksəliş fürsətlərini qavramaqla həyata keçirir. Bir də var ki, insan Ramazan ayına yetişib və «oruc vacibdir» mülahizəsi əsasında vacibatlarını yerinə yetirir və misilsiz mənəvi nemətlərə yiyə durmaq fürsətindən əsla bixəbər olur. Mübarək Ramazan ayının imkanlarından bəhrələnmək istəyiriksə, bunun mütləq şərti rəcəb ayından etibarən mənəvi hazırlığı əldə etməkdən keçir.

## Haradadır Rəcəb əhli?

Rəcəb ayı ilə bağlı gələn mübarək çatdırışlar o qədər heyrətə gətirəndir ki, bunların özünün qavranılması ayrıca bir prosesdir. İmam Cəfər Sadiqin (ə) rəcəb ayının əhli haqqında çox gözəl buyuruşları var. Rəcəb ayının əhli kimlərdir? O kəslərdir ki, rəcəb ayının nə olduğunu bilir. Rəcəb ayının ehtiramını qoruyur. Rəcəb ayında oxunulası zikrləri, duaları, görüləsi əməlləri yaşadır. Və o qədər rəcəb ayıyla yaşayır ki, bunlara «rəcəbiyyun» - «rəcəb əhli» deyirlər. Bu şəxs rəcəbdə olan, rəcəblə həmahəng yaşayan bir adam kimi yaşayar. Hətta, bu adam rəcəb əhli kimi Qiyamət günü bir axtarılar, sorular, çağırılar da. Qiyamət günü hamı nigaran, səksəkəli olan bir halda rəcəb əhlini bir axtararlar, çağırarlar. Rəcəb ayının əhlinə

Qiyamət səhnəsində müraciət mövzusunda İmam Sadiq (ə) buyurur: **«Qiyamət yetişən zaman İlahi carçı fəryad çəkər: «Eynər-racəbiyyun?** /haradadır rəcəb ayının əhli?/». **Haradadır o kəslər ki, rəcəb ayını əziz tutdular və ondan bəhrə apardılar?...»**.

Qiyamət səhnəsi – hər bir imanlının narahatçılıqla gözlədiyi səhnədir. Və rəcəb ayı - o aydır ki, həmin səhnə üçün hazırlıqlı getməyi insana qismət edir.

Rəcəb ayının əhlinin özəl bir xüsusiyyəti olar. O qədər rəcəb ayının mübarəkliyindən faydalanar rəcəb əhli ki, Qiyamət günü məhşərə nur saçar... İmam Sadiq (ə) buyurur: **«Və o böyük cəmdən insanlardan bir qrup ayağa qalxar ki, onların simasının nuru məhşəri işıqlandırar və nuraniyyət verər».**

İnsan rəcəb ayının əhli olsa, rəcəb ayını tanısa, «rəcəbiyyun» kimi yaşasa, Qiyamət günü başında həqiqi sultanlıq tacları olar. İmam Sadiq (ə) buyurur: **«Bu insanların başlarında dürr və yaqutla zinətlənmiş sultanlıq tacları olar»**.

Bir var insanların əldəqayırma tacları, müvəqqəti, ötəri tacları olsun. Heç bir gerçək dəyəri olmayan bir məqamı, dərəcəsi olsun. Bir də var Allahın lütfü, inayəti ilə, xüsusi diqqəti ilə insan o vəziyyətə çatsın ki, mənəvi sultanlıq ona qismət olsun.

## Şirin çağırış

Bəli, o gün ki, Qiyamətdə hamı öz vəziyyəti barədə narahatdır, insanlar təşviş içindədir - o an bizə təsvir edilir. Burada şirin bir müraciət var: “Haradadır rəcəb ayının əhli?”. Haradadır rəcəb ayını dərk edənlər? Haradadır rəcəbin izzətini yaşadanlar? Hanı o kəslər ki, rəcəb ayına layiqdirlər? – belə şirin müraciətlər var burada.

Baxın, simvolik bir dildə, insan idrakının anlaya biləcəyi bir dildə bizlərə bu ayın böyüklüyü çatdırılır. Arxasında böyük mətləblərin bəlli olduğu bildirilən bir kateqoriya ilə təmas sezilir burada.

Görün nə böyüklükdə məqamdır ki, mələk insana belə müraciət edir. Bu, rəcəb ayının məqamını üstün bilib, onun ehtiramını saxlayanlar üçündür.

Rəcəb ayında fövqəladə fürsətlər var. Vücudi xilas üçün fürsətlər. İnsan olaraq öz missiyasını dərk edib, həyata keçirmək üçün fürsətlər. Həzrət Peyğəmbər (s) və Əhl-beytinin (ə) bulağından bəhrələnənlər bu fürsəti görə bilir və ondan yararlana bilir.

Rəcəb ayında rəhmət qapıları açılır. Eyni əməl ki, başqa aylarda bir cür effekt verirdi, bu ayda qat-qat güclü təsir buraxır. Qat-qat üstün nəticələrə gətirib çıxarır. Bu həqiqətləri dildə və qəlbdə iqrar edənlərə aiddir bu nemətlərdən faydalanmaq imkanı. Elə də ola bilir ki, bu cür böyük nemətlər kiminsə yanından keçir, amma o, heç fərqinə belə varmır. Allah insanı belə durumdan saxlasın.

Qiyamət günü mələklər rəcəb ayının əhlini əhatəyə alar, qarşılayar və onlara təbrik deyərlər. İmam Sadiq (ə) buyurur: **«Onların hər birinin sağ tərəfində min mələk və sol tərəfində min mələk onlara deyərlər: "Ey Allahın bəndəsi! Xoş gəlmisən! Allahın sənə əta etdiyi sənin üzərinə mübarək olsun!"».**

Rəcəb ayı ilə bağlı İmam Cəfər Sadiqin (ə) buyuruşunda bir səhnə var ki, Allahın rəcəb əhlini əhsənləməsi, onların layiq olduğu vəziyyətə uyğun onları mükafatlandırması burada təsvir olunur. İmam Sadiq (ə) buyurur: **«Bu zaman Allah Təala tərəfindən nida gələr: «Ey mənim kişi və qadın bəndələrim! İzzət və cəlalıma and olsun ki, sizin mübarək məqamınızı əziz tutacağam və sizə çoxlu sayda ətalar bəxş edəcəyəm və sizə behiştdə saraylar verəcəyəm ki, orada çaylar axır. Və orada əbədi qalacaqsınız…».**

Davamında rəcəb ayının əhlinə xas cəhətlərə işarə olunur. Onların çalışmaqlığına, könüllülüyünə xüsusi vurğu edilir: **«Və nə gözəl mükafatdır o kəslər üçün ki, çalışmışdırlar. Siz könüllü surətdə – Mənim xatirimə, bir ayda ki, onun hörmətini uca tutdum və haqqının riayət olunmasını vacib bildim – oruc tutdunuz. Ey mənim mələklərim! Bu kişi və qadın bəndələrimi behiştə aparınız!».**

Fikir verək. Çalışmaqlıq və könüllülük. Yəni, rəcəb ayında bir adam çalışsa, səy göstərsə, könüllü olaraq o ayın əməllərinə sahib çıxsa – bu 2 keyfiyyət insanı İlahi rəhmətin ona aid olmasına aparıb çıxarar.

## Rəcəb ayının orucu

Allah Təalanın mərhəməti o qədər genişdir ki, hətta ixlasla bircə gün rəcəb ayında oruc tutana da öz mükafatını şamil edir. Rəcəb ayında hətta bir gün orucun malik olduğu fəziləti təsvir edən hədisdə İmam Sadiq (ə) buyurur: **«Bu mükafat o kəs üçündür ki, bu ayın bir miqdarında oruc tutsun. Və hətta 1 gün olsa da belə: əvvəlində, ortasında və ya axırında».**

Soruşula bilər ki, 1 gün oruc tutmağa nə var ki? Amma həmin 1 günlərdən başlayır hər şey. Məhz o 1 günlərdir ki, insanı ya Allaha bəndəliyə aparır, ya da zülmə və azğınlığa. Rəcəb ayının 1 günündən belə kamil bəhrələnə bilsə, bu günü tam dərk edib, onun fəzilətlərinə sahib çıxa bilsə – xoş o insanın halına.

Əziz İslam Peygəmbərinin (s) mübarək rəcəb ayı haqqında xüsusi buyuruşları vardır. Bunlarda rəcəb ayının əzəməti və hətta cahiliyyə dönəmində insanlar arasında xüsusi məqamı haqqında çatdırışlar var. Rəsuli-Əkrəm (s) buyurur: **«Rəcəb - "şəhrullahil-əsəmm"dir (Allahın "əsəmm" ayıdır). Və o səbəbdən onu "əsəmm" adlandırmışlar ki, heç bir ay onun əzəmətinə və böyüklüyünə çatmır** *(cahiliyyə dönəmində rəcəb ayının "əsəmm" adlandırılması, o ayın haram aylardan, yəni müharibə qadağan olunmuş aylardan olması ilə bağlıdır)*. **Cahilyyət dönəmində insanlar rəcəbə hörmət qoyurdular və islam nur kimi saçdığı zaman, onun hörmətini daha da artırdı».**

Mübarək inancımız rəcəbə həqiqi qiymətini verir. Hədisin davamında Rəsulullah (s) buyurur: **«Biliniz ki, rəcəb - Allahın ayı, şəban - mənim ayım, Ramazan - mənim ümmətimin ayıdır».**

Mübarək hədisin davamında rəcəb ayının orucunun İlahi razılığa yetişmək üçün bir vəsilə olması vurğulanır, bu orucun İlahi qəzəbin söndürülməsi, cəhənnəm qapılarının bağlanması üçün bir fürsət olması aşkarlanır: **«Bəs hər kim rəcəb ayında bir gün oruc tutsa, İlahi rizvana müstəhəqq olar və orucu İlahi qəzəbi söndürər və Allah Təala cəhənnəm qapılarından birini onun üzünə bağlayar»**.

İmam Sadiq (ə) buyurur ki, isti bir gündə oruc tutan və çox susayan hər bir kəsə Allah Təala min mələyini vəkil edər, min mələyinə tapşırıq verər ki, getsinlər və o bəndənin üzünə əllərini sürtsünlər və onu müjdələsinlər. O bəndə iftar edən zaman Allah Təala buyurar: **"Bəh-bəh! Nə gözəl səndən ətir gəlir"**. Və mələklərinə üz tutaraq söyləyər: **"Ey mələklərim, şahid olunuz ki, mən mütləq bu bəndəmi bağışladım"**. Mübarək hədisdən də görünür ki, bu mübarək aylarda oruc tutmağın əcri hesaba gəlməyəcək dərəcədə böyükdür. Bu da yaşadığımız ayın əzəmətindən xəbər verir.

## Zikrlərin müqabilində şəhidlərin savabı verilən ay

Əziz İslam Peyğəmbərinin (s) bu ayla bağlı çox mübarək buyuruşları və tövsiyələri var. Bunlar arasında, Rəcəb ayının əməlləri, zikrləri daha böyük yer tutur. Əziz Peyğəmbərimiz (s) buyurur: **"Hər kim Rəcəb ayında yüz dəfə *"Əstəğfirullahəl-ləzi lə iləhə illə huvə vəhdəhu lə şərikə ləhu və ətubu iləyh"* desə və oxuduğu bu duanı sədəqə ilə xətm etsə, Allah da onun vəziyyətini rəhmət və məğfirətlə xətm edər və hər kim bu zikri 400 dəfə desə, onun üçün 100 şəhidin savabını yazarlar"**.

Mənası belədir ki, "bir Kəsdən bağışlanmaq diləyirəm ki, Ondan başqa ibadət ediləcək bir məbud yoxdur, O, təkdir, şəriki yoxdur və qayıdış Ona doğrudur".

Gör necə bir ayda yaşayırıq ki, bu ayın ən sadə əməllərini yerinə yetirməyin müqabilində insana 100 şəhidin savabı yazılar. Adətən insan belə bir ayın qədrini həmin ay keçəndən sonra bilir. O zaman ki, ondan layiqincə bəhrələnə bilib-bilmədiyinin hesabatını aparır.

## Etikaf edən – sanki özünü Rəbbinə vəqf edir

Rəcəb ayının ən mübarək və dəyərli günləri – etikaf günləridir. Etikaf günləri – insanın özü ilə məşğul olması, özünə vaxt ayırması, öz daxili aləmini yığılıb qalan

çirkinliklərdən təmizləməsi üçün ən münasib günlərdir. İnsan ilin yalnızca bu 3 gününü özünə həsr etməklə, şeytana (lən) “yox” deyə və özünü tanıya bilər. İnsan üç gün Allah evinin qonağı olur və özünü yalnızca Rəbbinə həsr edir. Çox ağır və eyni zamanda, şirin bir əməldir. Ona görə ağırdır ki, insan ehram halında edə bilmədiyi əməlləri etikaf zamanı da edə bilməz. **Adi halda hətta orucu batil etməyən bəzi əməlləri etikaf zamanı etmək olmaz. İnsan bu günlər ərzində sanki özünü Rəbbinə vəqf edir. İnsan özündə olan bütün natarazlıqları kənara qoyur və özünün şüurlu şəkildə optimal durumunu yaradır.**

İnsan il ərzində yığılıb qalan pis vərdişlərini, pis adətlərini Rəcəb ayının məhz bu günlərində kənara qoya bilər. Cədəl etmək, mübahisə etmək, boş-boş danışmaq kimi məsələlər etikafda qadağandır.

Etikaf saxlayan insan aqil olmalıdır. Həmin şəxsin qürbət, ixlas qəsdi olmalıdır. Yəni, bu əməldə riya qətiyyən yolverilməzdir. Etikafda olan şəxs oruc tutmalıdır. Üç gün ərzində məsciddə qalmaq lazımdır.

Etikaf yalnız bir neçə məkanda ola bilər. Bunlar - Məscidul-Həram, Məscidun-Nəbi, Kufə məscidi, Bəsrə məscidi, şəhərlərin Came məscidləridir. Etikaf saxlayan insan zərurət olmadan məsciddən çıxa bilməz.

## Bağışlanmaq ayı

Bəli, belə bir ayda yaşayırıq. İmam Sadiqdən (ə) nəql edirlər ki, Rəsulullah (ə) belə buyurub: **“Rəcəb ayı - mənim ümmətimin tövbə ayıdır. Bəs bu ayda çoxlu sayda bağışlanmaq diləyin ki, Allah Təala bağışlayan və mehribandır”**.

Bu ay oruc ayı olmaqla yanaşı, eyni zamanda istiğfar ayıdır. Yəni, elə bir aydır ki, bu ayda fövqəl dərəcədə əməllər, dualar, Allahla rabitə yaratmaq üçün böyük imkanlar var. Bu ayda bir zikr var ki, insan həmin zikri bu ay ərzində nə qədər çox desə, o qədər insanın aqibəti üçün xeyirlidir. Bu zikr, insanın istiğfar etməsi, tövbə etməsi üçün imkan yaradır. Zikr belədir: **“Əstəğfirullahə və əs-əluhut təvbəh”**, yəni, “İlahi, Pərvərdigara, Səndən bağışlanma, istiğfar diləyirik və qayıdış istəyirik!”. Buradan aydın olur ki, insan bu ayda özünü Allah dərgahına qayıtmasına, tövbə etməsinə, Allahdan bağışlanma diləməsinə həsr etməlidir. Göstərilən bu cümlə - ayın həqiqi mahiyyətini açmaq üçün ən gözəl vasitələrdəndir.

Uca Allahın belə bir geniş rəhməti, mərhəməti vardır. Allah Təala Öz bəndəsini o qədər sevir ki, bəndəsinin layiq olduğundan qat-qat artıq lütflər edir ona. Sanki Yaradan bir bəhanə arayır ki, bəndəsini bağışlasın, bəndəsinə lütflər əta etsin.

Rəcəb - paklanma ayıdır. Rəcəb - özünəqayıdış ayıdır. Rəcəb bir aydır ki, insan özünə, öz nəfsinə sanki deyir: “Dayan! Mən neçə aydır sənin qulun olmuşam, amma bəsdir, ey nəfs, yetər!”. Rəcəb ayı insanı robotlaşmadan, cılızlaşmadan çıxara

bilən bir aydır. Rəcəb ayı bir aydır ki, hamımızın şikayətləndiyi bir xəstəlikdən bizi müalicə edə bilər. Bu gün dünya şikayətlənir, deyir biz itiririk özümüzü. Biz öz varlığımızı itiririk, biz öz vücudumuzu itiririk. Biz sanki günbəgün insanlıq şəklindən çıxırıq. Biz sanki günbəgün yaranmışların əşrəfi olmaq durumundan ayrılırıq.

Bu Rəcəb ayı - həmin o müalicə ayıdır. Bizlər rəcəbə doğru bir addım atmaqla, özümüzü bu aya daxil etmiş oluruq. Bir addım atsaq, bu ay bizim böyrümüzdən ötüb keçməz. Özümüzü rəcəbə daxil etməklə, günahlardan təmizlənməyə, özümüzü hərtərəfli təftiş etməyə aid etmiş oluruq.

## Cəhənnəm qapılarını bağlayaraq irəliləmək

Rəcəb ayı – belə bir aydır. Onun 1 gün tutulan orucu, insanın Allah Təalanın razılığına gəlib çatmasına səbəb olar. İnsan gerçəkdən 1 gün rəcəb əhli olsa, rəcəbdə layiq olmalı bir vəzəiyyətə yetişsə – bu kimi təsirləri var, bu kimi müəyyənləşmələri var onun müqəddəratı üçün. Xoş o adamın halına ki, günlər keçdikcə, cəhənnəm qapılarını bağlaya-bağlaya gedə bilib.

Mübarək hədisin davamında bəlli olur ki, ən yüksək nəfəqə, sədəqə, ehsan, Allah yolunda xərcləmə belə, rəcəb ayının bir gününün orucunu üstələməz. Rəsuli-Əkrəm (s) buyurur: «**Əgər bir kəs bütün yerin qızılı qədər infaq etsə,**

**onun** *(rəcəb ayının)* **bir gününün orucundan üstün olmayacaq»**.

İnsanın təsəvvür etməsi, ola bilsin, bir qədər çətin olsun. Necə olur ki, bu böyüklükdə infaqlar 1 günün əvəzini vermir?! Ola bilsin ki, bu 1 günün insanın ruhunda təsiri o qədər böyük olsun ki, bütün dünyanın varidatını kasıblara paylamaqla da bu rihiyyəni əldə etmək mümkün olmasın.

Rəcəb ayının orucu duaların müstəcəbliyinə səbəb olar. Dualar bu ayda qəbul olunar. Rəsuli-Əkrəm (s) buyurur: **«...hər vaxt gecə düşər, (oruc tutan adamın) duaları müstəcəb olar: ya dünyada ona əta olunar və ya onun axirəti üçün toplanar».** Mübarək hədisin davamında Rəsulullah (s) daha sonra 2, 3, 4 və 30 günə qədər rəcəb ayında oruc tutmağın savabını kamil surətdə buyurur.

## Mənəvi islahatlar ayı

Bəli, Uca Allah hər zaman eşidən, hər zaman dua qəbul edəndir. Amma necə ki, günlərin arasında xüsusi önəmli olanı var – məsələn, cümə günü kimi, eləcə Allah Təbarəkə və Təala xüsusi vaxtlar qoyub ki, insanlar o vaxtlara diqqət ayırıb, başqa vaxtlarda çata bilməyəcəklərinə bunlarda tam yiyələnə bilsinlər.

Rəcəb ayında Allahın lütfü, inayəti tam surətdə iman əhlinin, bu ayın orucunu tutanların üzərindədir. Rəcəb ayının əməlllərinə sahib çıxanların üzərindədir Allahın xüsusi nəzəri. **Əslində Rəcəb ayı – Ramazan ayında İlahi nemət ziyafətinə**

**hazırlıq mərhələsidir. İnsan Ramazan ayında İlahi nemət süfrəsindən tam formada bəhrələnmək istəyirsə, rəcəb-şəban ayları ona bu imkanları kamil surətdə təqdim edir**.

Rəcəb ayı – İlahi ziyafətə hazırlıq ayıdır. Bu ayın hətta 1 gün orucu Allahın razılığını əldə etmək üçün gözəl vasitədir. Bu ayın hətta 1 gününün orucu İlahi qəzəbi söndürər. Əməl var - cəhənnəmə qapı açır, əməl də var ki, cəhənnəmin qapısını bağlayır. Rəcəb ayı – o aylardandır ki, cəhənnəm qapılarını bağlamaq fürsətlərini Allah Təala bəndəyə təqdim edər.

Rəcəb ayı – mənəviyyat, islahat ayıdır. İnsanları bu gün dünyada hər şeydən çox düşündürən mövzu – mənəviyyat, əxlaq mövzusudur. Dünyada başdan-başa əxlaqsızlığın, mənəviyyatsızlığın, zülmün aşıb-daşdığı bir vaxtda iman əhli üçün, mənəviyyat əldə etmək istəyən üçün ən gözəl fürsət var rəcəb ayında.

## Rəcəb ayının fəzilətləri

Oruc tutan insan gün ərzində Allahın mənəvi süfrəsindən faydalanır. Yemək və içməkdən çəkinməklə yanaşı, insan bütün əzaları ilə pəhrizkarlığa tərəf yönəlir: dili pis şey danışmır, qulağı pis şeyi dinləmir, gözü pis şeyə baxmır. Axşam düşür, iftar açılır, bəndənin hacətlərinin qəbul olunması vaxtı yetişir. Uca Allahın məsləhətilə ya bu dünyada hacəti yerinə yetirilər, ya da axirətdə azuqə olar, hayına çatar.

Rəcəb ayının fəziləti barədə İmam Museyi-Kazımdan (ə) nəql edirlər: «**Rəcəb - behiştdə bir çay adıdır ki, süddən daha**

**ağ, baldan daha şirindir. Bu səbəbdən Rəcəb ayında bir gün oruc tutan hər kəsə, Allah Təala o çaydan içirdər»**.

İmam Museyi-Kazımdan (ə) nəql edilən digər hədisdə deyilir: **«Rəcəb - bir əzəmətli aydır ki, Allah Təala o ayda yaxşı əməlləri neçə dəfə artırar və günahları o ayda məhv edər. Bəs hər kəs ki, Rəcəb ayında 1 gün oruc tutsa, cəhənnəmdən 1 illik yol miqdarında uzaqlaşar və hər kəs o ayda 3 gün oruc tutsa - behişt ona vacib olar».**

Rəcəb ayında sədəqə verməyin böyük fəziləti barədə Həzrət Əlidən (ə) nəql edilən hədisdə buyrulur: **«Hər kəs Allaha xatir Rəcəb ayında sədəqə versə, Allah Təala onu o cür ikram edər, o cür əzizləyər ki, nə göz görüb, nə qulaq eşidib və nə də bir insanın qəlbinə daxil olub (xəyalına gəlib)»**.

## Rəcəb ayının duası

Bu ay - oruc tutmağın xüsusilə bəyənildiyi bir ay olmaqla bərabər, istiğfar ayıdır. Bu ayda çoxlu zikrlər var ki, insanın bağışlanmasının açarıdır. Təkrarən qeyd edək ki, bu zikrin çox deyilməsi tövsiyə olunub:

**«Əstəğfirullahə və əs-əluhut-təvbəh»**.

Buyurulub ki, bu zikri rəcəb ayında insan nə qədər çox desə, o qədər yaxşıdır. Mənası odur ki, "İlahi, bağışlanmaq diləyirik Səndən və tövbə arzu edirik". Buradan aydın olur ki, insan bu ayda özünün Allah dərgahına qayıtmasına, tövbə

etməsinə, Allahdan bağışlanmasını diləməsinə böyük önəm verməlidir.

Ən əsası - rəcəb ayında gündəlik oxunan bir dua vardır ki, çox bərəkətli və nəcib münacatlardandır. Allah Təalanı tanımaq üçün bu duanın böyük əhəmiyyəti vardır. Allah Təala o qədər lətifdir ki, müxtəlif yollarla Özünü bəndəsinə tanıtdırır. Əgər insan istəyə Rəbbini tanısın, bircə elə bu duaya diqqət yetirməsi çox şey açar onun üçün. Allah Təala ən yüksək dərəcədə bəndəsinə Öz lütfünü göstərir. İnsan o cümlələrə diqqət etsə, özü kimdir və Rəbbi kimdir məsələsinə xeyli aydınlıq gətirə bilər.

Duada buyrulur: **"Yə mən ərcuhu li kulli xayr"** – "ey o Kəs ki, bütün xeyirlər Ona aiddir, Ona qayıdır". Sonra: **"Və əmənu səxatahu 'ində kulli şərr"** – və bütün şərlər isə Ondan uzaqdır.

Sonrakı cümlə məxsusən şirindir. Buyrulur: **"Yə mən yu'til-kəsira bil-qalil"** – "ey o Allah ki, mənim az əməlimin müqabilində çox əta edir". Sonra: **«Yə mən yu'ti mən sə-ələhu»** - "ey o Allah ki, Ondan istəyənə əta edir". Sonra bir qədər də şirinləşir: **«Yə mən yu'ti mən ləm yəs'əlhu, və mən ləm yə'rifhu»** - "Ey o Allah ki, Ondan istəməyənə də əta edir. Və (hətta) Onu tanımayana da əta edir".

Bəndə deyir: "Sən o Allahsan ki, Səndən istəməyənə və Səni tanımayana da əta edirsən. Bəs mən gəlmişəm, Səndən istəyirəm" və sonra deyir: **«Təhənnunən minhu və rahməh»** - "Öz geniş rəhmətinlə və lütfünlə edirsən". Yəni, bəndə deyir: "İndi mən gəlmişəm, öz dilimlə istəyirəm. Sən Öz geniş rəhmətinlə mənə əta et".

Nəyin əta olunmasını istəyir bəndə? Sonrakı cümlədə bu, açıqlanır: **«Ə'tini biməs'ələti iyyəkə, cəmi'ə xayrid-dunyə və cəmi'ə xayril-əxirah»** - "İlahi, Pərvərdigara! Mənə bu dünyanın və axirətin bütün xeyirlərini nəsib et".

Sonra buyurulur: **«Vəsrif ənni biməs'ələti iyyəkə, cəmi'ə şərrid-dunyə və şərril-əxirah»** - "İlahi, məndən bütün bu dünyanın və axirətin şərlərini uzaq et!".

Bu dünyanın şərləri nədir? Bu dünyanın şərlərindən biri də odur ki, məni qorxaqlardan qərar vermə, məni yaltaqlardan qərar vermə, məni ikiüzlülərdən qərar vermə, məni insanlıqdan uzaq düşənlərdən, haqq basanlardan, zülm edənlərdən qərar vermə!

Məni axirət şərindən uzaq et. Axirət şəri nədir? Ən böyük axirət şəri odur ki, insan Qiyamət günü yezidlərlə, müaviyələrlə, hitlerlərlə, səddamlarla məhşur olsun, zalımlarla bir dirilsin. Zalımların qələm tutanlarından olsun, haqqı basıb, nahaqqı deyənlərlə birgə olsun. Axirət şəri odur ki, insan Qiyamət günü birdən ayılıb görsün ki, məhşur olub o kəslərlə ki, Kərbəlada İmam Hüseynin (ə) qarşısını kəsdilər, onun balalarının üzünə suyu bağladılar! Məhşur ola o kəslərlə ki, dünya malına aldanıb, öz həyatlarını puç etdilər, insanlara sitəm etdilər, Allah evlərini viran etdilər.

Rəcəb bizə bunu öyrədir. Rəcəb xeyir deyəndə və şər deyəndə - ilk növbədə insanın şəxsiyyəti ilə bağlı məqamları nəzərdə tutur. Onun kimliyinə işarə edir.

Mübarək duanın sonunda Allah Təalaya müraciətlə çox məhrəm və şirin tərzdə əzabdan amanda qalmaq, nicat tapmaq istənilir. Cəhənnəm odunun cisminə yaxın düşməməsi dilənilir.

## Rəcəb ayının əməlləri

Rəcəb ayının bir çox əməlləri vardır ki, yerinə yetirilməsi xüsusilə tövsiyə olunmuşdur. Rəcəb ayının ilk gecəsi (yəni, cəmaduəs-sani ayının axırıncı günündən rəcəb ayının ilk gününə keçən gecə) bu duanı oxumaq tövsiyə edilmişdir: **«Əllahummə bərik lənə fi racəbin və şə'bənə və bəlliğnə şəhra-Raməzan»** *(Duada Allah Təaladan 3 mübarək ayın - Rəcəb, Şəban və Ramazan aylarının fəzilətlərinin əta edilməsi istənilir).*

Rəcab ayının ilk cüməsinin gecəsi (yəni Rəcəbin ilk cümə axşamından ilk cüməsinə keçən gecə) leylətul-rəğayib adlanır. Bu gecəni ibadət və dualarla keçirmək tövsiyə olunub. Bu gecənin fəzilətləri sadalanmaqla bitməz. Həzrət Peyğəmbərdən (s) bu gecə ilə bağlı nəql edirlər: ***«Rəcəb ayının birinci cümə gecəsindən qafil olmayın. Mələklər o gecəni «Ləylətul-rəğaib» adlandırırlar. Elə ki, həmin gecənin üçdə biri keçər, elə bir mələk olmaz ki, Kəbə-müşərrəfəyə gəlməsin. O zaman Allah Təala Öz mərhəmətli nəzərini onlara yönəldər və buyurar: «Mələklərim! Hər nə hacətiniz varsa, Məndən istəyin!». Mələklər deyər: «Hacət və istəyimiz budur ki, Rəcəb aynın oruc tutanlarını bağışlayasan». Və Allah Təala buyurar: «Bağışladım!»»***».

Rəcəb ayının əvvəl, orta və axır günlərində qüsl almaq müstəhəbdir və bu əməl günahların bağışlanmasına səbəb olar. Rəcəb ayının bütün günləri oruc tutmaq müstəhəbdir və

günahların bağışlanmasına səbəb olar. Hər kəs də qismət olan miqdarda bu günlərdən bəhrələnə bilər. Rəcəb ayında ən azı 3 gün oruc tutmağın çox böyük fəziləti vardır. O kəslər ki, Rəcəb ayında oruc tutmaq imkanları yoxdur, onun yerinə sədəqə versinlər (imkanları çərçivəsində). Oruc tutmağa və sədəqə verməyə imkanı olmayan insanlar, əvəzində zikrlər deyə bilərlər. Rəcəb ayında Məsumların (ə) mübarək hərəmlərini ziyarət etməyin böyük fəziləti vardır.

Rəcəb ayında tövbə və istiğfar etməyin və təhlil ("Lə iləhə illəllah") deməyin böyük fəziləti vardır.

Rəcəbin 15-nin gecəsində (14-dən 15-nə keçən gecə) 12 rükət namaz ricaən (qəbul olma ümidi) niyyəti ilə qılmaq bəyənilmişdir;

Rəcəb ayının 15-də qüsl almaq, oruc tutmaq, İmam Hüseyni (ə) ziyarət etmək - bəyənilmiş əməllərdəndir.

# Kamil İnsanın Kəbə mövludu




**“Peyğəmbərimizdən (s) sonra, İmam Əli (ə) Allah Təalanın ümmət üçün ilk höccətidir”**

**Hacı İlqar İbrahimoğlu**

## Kamil İnsanın mövludu

Bir kəsin mövludunu qeyd edirik ki, Allahın Evi o şəxsin mövludunu qarşılayıb. Bir kəsin mövlududur ki, əziz Peyğəmbərimizdən (s) sonra bəşəriyyətin ən kamil insanıdır. Bəhsimizi böyük İslam Peyğəmbərindən (s) Həzrət Əli (ə) ilə bağlı buyurduğu mübarək hədislə başlamaq istərdik. Yaranışın hikməti, Allahın Elçisi, əziz Rəsulumuz (s) Zülfüqar sahibi, Elm şəhərinin qapısı olan Həzrət Əlini (ə) bizlərə çox incə bir buyuruşla tanıdır. Peyğəmbər (s) buyurur: **"Ey Əli can! İmanın sənin ətin və qanınla qarışması, mənim ətimə və qanıma qarışması qədərdir"**. Rəsulallah (s) Həzrət Əlinin (ə) dərəcəsini olduqca birmənalı çatdırır. Buyurur, necə ki, iman Allah Elçisinin qanına və ətinə qarışıb, Həzrətin (s) vücudu imanla yoğrulub, o cür də İmam Əlinin (ə) mübarək vücuduna, əti və qanına iman qarışıb.

Həzrət Əli (ə) besətdən 10 il öncə, rəcəb ayının 13-də, Kəbə Evində dünyaya gəlmişdir. Atası – Həzrət Əbu Talib, anası – xanım Fatimə binti Əsəddir. Həzrət Əli (ə) - kişilərdən Peyğəmbərə (ə) iman gətirən ilk şəxs, Qurani-Kərimin katibi, Peyğəmbərimizin (s) vəsisi və canişinidir.

Həzrət Əli (ə) barədə danışmaqla qurtarmaz. Bircə onu demək kifayətdir ki, Peyğəmbərimizdən (s) sonra İmam Əli (ə) Allah Təalanın ümmət üçün ilk hüccətidir, dəlilidir.

İmam Əli (ə) – bir mübarək meyardır. Ona münasibət vasitəsilə İslamla dostluq-düşmənlik mövzusu həll edilir.

Allahın Peyğəmbəri (s) Həzrət Əli (ə) ilə bağlı buyurub: **«Səni yalnız mömin sevər və sənə yalnız münafiq ədavət bəsləyər»**.

Başqa yerdə Rəsuli-Əkrəm (s) buyurub: **«Atəş odunu yediyi kimi, Əlini sevmək də günahları yeyir»**.

Yenə də Rəsulullah (s) buyurub: **«Möminin əməl dəftərinin başlıq və sərlövhəsi - Əli ibn Əbu Talibin məhəbbətidir»**.

Bəli, imana iddialı insanın əməl dəftərinin sərlövhəsi – İmam Əlinin (ə) məhəbbətidir. Bu məhəbbət sayəsində insan düzgün yol gedə bilər.

## Allahın Evindən başqa yer tapılmadı bu mövlud üçün

Allah evində dünyaya gələn, Allah evində dünyadan gedəndir Əli (ə)... Dünya Allahın Evindən başqa bir yer tapmadı Əlini (ə) qarşılamaq üçün. Dünya Əlini (ə) yola salmaq istəyəndə, Allah evindən başqa bir yer tapa bilmədi ki, daha layiqlə yola salsın. 63-illik bir misilsiz ömür yaşayan Həzrət Əli (ə), 33 ilini Rəsulallahın (s) qulluğundadır. Bu illərdə bəşərə şücaət, mərdanəlik, kişilik, fədakarlıq, sədaqət dərsini keçir. Qalan illərini bəşərə səbir dərsini keçir, amallara sadiqlik, İlahi vəzifəyə əməl etməkdə sabitqədəmlik dərsini keçir. Bəşərə böyük hədəflərə görə, qabaqda duran böyük məqsədlərə görə

qurban verməyi bacarmağı, hissləri cilovlamağı, İslamın əbədiyaşar dəyərlərinə görə səbir etməyi öyrədir. İmam Əli (ə) İslamın nə olduğunu hamıdan yaxşı bilirdi; o, inancın cövhərini təşkil edirdi. İmam Əli (ə) inancın yaşaması üçün hər nə lazımdırsa, edirdi. Şücaət lazım olanda Əli (ə) şücaət göstərirdi. Səbir meydanında Əlinin (ə) bənzəri yox idi. Onun haqqında Quranda 300 ayə gəlib. Həyatının hər günü ibrət olan bu insana aid İlahi Kitabda 300 ayə vardır...

Onun barəsində Peyğəmbərimiz (s) deyib: «**Mən elmin şəhəri, Əli onun qapısıdır. Buna görə də elm istəyən kəs həmin qapıdan daxil olmalıdır**».

Başqa yerdə Allahın Peyğəmbəri (s) belə buyurub: «**Əli - dinin sütunudur**».

İlahi Elçi (s) onu bizlərə dinin sütunu kimi tanıdır. İman əhli üçün bu yolgöstərmə - kifayət edər.

## Niyə din onsuz naqisdir?

Peyğəmbərimiz (s) bildirir ki, Həzrət Əlisiz (ə) İslam naqisdir. Bunu, Rəsuli-Əkrəm (s) Qədir-Xumda bəşəiyyətə çatdırır və ondan sonra biz görürük Quran məntiqi bunu izah edir. Həzrət Peyğəmbər (s) vida həcci zamanı 23 ililk risalət zəhmətinin tam kamil hala düşməsi üçün zəruri olam bir şərtə

işarə edərək, üzünü tutur 120 000 müsəlmana və buyurur: «**Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır**».

Peyğəmbərimiz (s) Qədir-Xum çölündə Həzrət Əlini öz canişini və vəsisi elan edir. Bundan sonra "Maidə" surəsinin 3-cü ayəsi nazil olur. Hansında ki, Allah Təala buyurur: "... **Bu gün dininizi sizin üçün kamil etdim, sizə Öz nemətimi tamamladım və** (möhkəm və sabit) **bir din kimi sizin üçün İslamı bəyəndim...**".

Bəs bu, necə oldu? Qədir-Xum adlı məkana çatdıqda, Peyğəmbərimizə (s) "Maidə" surəsinin 67-ci ayəsi nazil olmuşdu. Allah Təala Pyğəmbərimizə (s) buyururdu ki, "**... Rəbbin tərəfindən sənə nazil olanı (insanlara) çatdır. Əgər (bunu) etməsən, (elə bil ki,) Onun (heç bir) tapşırığını (risaləti) çatdırmamısan. Allah səni insanlardan** (onların fitnə və şərindən) **qoruyacaq. Şübhəsiz Allah kafirlərin dəstəsini hidayət etməz**".

Qeyd etdiyimiz kimi, bundan sonra Rəsuli-Əkrəm (s) Həzrət Əlini (ə) özündən sonra ümmətin rəhbəri kimi tanıtdırdı. Məhz bundan sonra İslamın kamil bir din olaraq Allah Təala tərəfindən bəyənilməsi barədə ayə nazil oldu.

Rəsuli-Əkrəm (s) daima müsəlmanları İmam Əlinin (ə) mübarək şəxsiyyəti barədə agah edirdi. Məşhur hədisdə buyurulur: «**Əli haqq ilədir və haqq Əli ilə. Və o, harada olsa, haqq onun ətrafına fırlanar**».

Həzrət Əmirəlmöminin Əli (ə) haqqında nə qədər bəhs edilsə də, yenə də onun malik olduğu məqamı, onun şəxsiyyətini çatdırmaq üçün çox cüzi səy etmiş olarıq.

Həqiqətən, sözlə bu müqəddəs insanın vəsfini etmək – çətin bir məsələdir. Bu, həmin hallardandır ki, söz, vəsfi etməkdə aciz olur.

Həzrət Əlinin (ə) üstünlüyünü təşkil edən, onu fərqləndirən hansı cəhətlərdir? Burada həm elm var, həm şücaət var, həm səbir var, həm şəfqət var... Ustad Mütəhhərinin təbirincə desək, İmam Əli (ə) – həyatın bütün səhnələrinin qəhrəmanıdır.

Əlini (ə) tanımaq üçün bir səhnəni təsəvvür edək. Bu hadisə Rəsulullah (s) məktəbinin ən şərəfli şagirdi olan İmam Əlinin (ə) hökumət başında olduğu vaxtda baş vermişdir. Nəql edirlər ki, bir gün Əmirəlmöminin Əli (ə) Kufə məscidində əyləşmişdi. Əbdullah adlı bir yəhudi əynində zirehlə onun yanından keçir. Əli (ə) onun əynindəki zirehi görən kimi, buyurur: "Bu zireh Təlhənin zirehidir və Bəsrə döyüşündə qənimətdən xəyanət edilmişdir". Həzrət Əli (ə) görür ki, bu xəyanət olunmuş bir şeydir, kimsə bunu oğurlayıb. Tanıyır bu zirehi.

Həmin yəhudinin, İslamda mövcud olan ictimai ədalətdən xəbəri var idi. Və bilir ki, Əli (ə) - xəlifədir, nəhəng xilafətin başçısıdır. Əli (ə) - bu məmləkətin rəhbəridir. Yəhudinin yəqini də var ki, İslam - ictimai ədaləti qəbul edən bir dindir. Deyir: "Gedək İslamın qazisinin yanına". O qazinin yanına ki, onu Əli (ə) təyin edib. Bu şəxsdə şəkk yoxdur ki, nə mənası var gedim qazinin yanına, onsuz da onu Əli (ə) təyin edib. Gör insanların Əlinin (ə) ədalətli əmir olmasında nə qədər arxayınçılıqları, əqidələri var idi!

Onlar hakimin yanına daxil olurlar. Burada Əli (ə) vəziyyəti izah edir, deyir hal-qəziyə budur. Qazi bu vəziyyəti görür, deyir: “Gərək iddianıza bir şahid də gətirəsiniz”. Çox qəribə bir səhnədir. Həzrət Əli (ə) - xəlifədir. Onun təyin etdiyi hakim, qazi məhkəmə aparır. Əli (ə) - ölkə başçısıdır, cavabdeh isə müsəlman da deyil, yəhudidir. Amma, məhkəmə həmin yəhudinin hüquqlarını qoruyur. Beləliklə, qazi deyir: “Gərək şahid gətirəsiniz”. Əli (ə) İmam Həsəni (ə) dəvət edir. Qazi deyir: “Gərək bir nəfər başqasını da gətirəsiniz”. İmam Əlinin (ə) Qənbər adlı bir qulamı olur. Buyurur: “Qəmbərə də deyin, gəlsin”. Şahidlər şəhadət verir. Qazi deyir ki, qulamın şəhadəti ilə məsələ həll olunmur. İmam (ə) bu halda yəhudiyə müraciətlə dedi: “Bu insan üç dəfə səhv hökm çıxartdı. Amma, buna baxmayaraq, zirehi götür, get”. Fikir verin: hakim, qazi səhv hökm çıxarır. Amma, məhkəmənin qərarıdır deyə, xəlifə də bu hökmə tabe olur. İctimai ədalət budur.

Yəhudi bu vəziyyəti görür və söyləyir: “Sübhanallah! Müsəlmanların xəlifəsi qazinin yanına gəlir və onun əleyhinə qəzavət edirlər və o da razılaşır!”. Deyir: “Ey Əmirəlmöminin, siz düz buyurursunuz. Zireh sizin xurcundan düşüb, mən də onu götürmüşəm”. Axırda yəhudi deyir: “Ey Əmirəlmöminin! Əşhədu ən lə iləhə illəllah, əşhədu ənnə Muhəmmədən rəsulullah!”. Beləliklə, Əli (ə) ədaləti və Əli (ə) həqiqəti bir nəfərin də İslama gəlib çıxmasını nəsib edir.

İmam Əlini (ə) görüb, Əliyə (ə) görə bu cümlələri, kəlmeyi-şəhadəti deyənlər çox olub. Bu, onlardan yalnız biridir.

Amma Əlinin (ə) iradını eşitcək, qazi deyir: “Əgər söyləməsən ki, üç səhvim nədən ibarətdir, daha mən qəzavət

etməyəcəyəm”. Burada artıq, Əli (ə) bir İmam kimi qaziyə dərs keçir. Maarifləndirmə məqamıdır. Deyir: “Vay olsun sənə. Peyğəmbər (s) buyurub: “Xəyanətlə bağlı şahidə ehtiyac yoxdur”. Yəni, bir var ki, müəyyən bir şey bir şəxsindir. Digər birisi isə deyir ki, “yox, bu mənimdir”. Bu halda, iddia edən gərək sübut etsin ki, həmin şey o şəxsin deyil. Bir də var hamı bilir ki, müəyyən bir şey, bir şəxsin olub, sonra, məsələn, yoxa çıxıb. Yəni, hamı bilir ki, bu itib, təzə bir yiyəsinə çatıb. Bu halda artıq gərək təzə yiyəsi sübut etsin ki, bunu haradan əldə edib. Əgər hamı bilirsə ki, bu kimindir və onda bunu təzə bir yerdə tapanda, gərək artıq o adam özü sübut edə ki, onu halal yolla əldə edib.

İndi Əli (ə) bu qaziyə dərs keçir. Deyir: “Əvvəla, xəyanətlə bağlı şahidə ehtiyac yoxdur”. Əslində, tərəf müqabili gərək sübut edərdi ki, onu düzgün yolla əldə edib.

Sonra Həzrət Əli (ə) buyurur: “İkincisi. Həsəni dəvət etdim, sən isə dedin ki, bir şahidlə hökm etmirəm. Halbuki, bir şahidlə və iddiaçının andı ilə hökm yetərdi. Yəni, mən and içə bilərdim, Həsən də şahidlik edə bilərdi. Bu, ikinci səhvin. Üçüncü səhvin - Qənbər şəhadət verdi. Amma, sən dedin ki, o quldur və qulun şahidliyi ilə hökm etmirəm. Lakin, İslam hökmünə əsasən, əgər qul adil bir şəxsdirsə, onun şahidliyi qəbul olunmalıdır”. Sonra buyurur: “Vay olsun sənə. Müsəlmanların İmamının və rəhbərinin daha böyük məsələlərdə əmin sayıldığı bir halda, sən necə onun iddiasını qəbul etmədin?”.

## İdeal davranış modeli

Həzrət Əlini (ə) gərək tanıyaq. O, bir dahi şəxsiyyətdir ki, bir insandır ki, saatlar, günlər, həftələr, illər, əsrlər qadir deyil "Əli (ə) kimdir?" sualına cavab versin. Bir neçə məsələyə də toxunaq. Əli (ə) - bir şəxsdir ki, tək müsəlmanlar onun haqqında danışmırlar. Qərb alimlərindən biri deyir: "Əgər Əlini (ə) zərbətləməsəydilər, əgər Əli (ə) mehrabda namazda dayanan vaxtı öldürülməsə idi, Əli (ə) bu dünyadan gedəsi deyildi". Deyirlər "Necə?". Həmin alimin hədislə, Quranla işi yoxdur. Müsəlman da deyil. Deyir: "Mən Əlinin (ə) həyatını mütaliə etmişəm. Onun həyatında bir dənə də olsun ifrat-təfrit yoxdur. Bu insan nə edibsə – kamillikdir". Bu insan döyüşüb haqq uğrunda. Bu insan yaşayıb haqq uğrunda. Bu insan daima durub haqq müstəvisində.

Gəlin Əlinin (ə) həyatının səhnələrinə nəzər salaq. İmam Əli (ə) Allah evində dünyaya gəlir, Allah evində də dünyadan gedir. O, kişilərdən Allah dinini ilk qəbul edən insandır. Bilavasitə Allah Elçisinin (s) tərbiyəsini görən insandır. Allah Elçisi (s) ilk müraciətini edəndə, o, "ləbbeyk!" deyən ilk insandır. Əli (ə) baxmayıb əməlləri kiminsə xoşuna gələr və ya gəlməz. Baxıb ki, Allah bu işdən razı deyilsə, onu etməsin. Əqil kimi qardaşı qapısına gələndə, Əli (ə) ona deyir ki, mənim özümün nəyi varsa, verim. Amma mən sənə görə Allahıma qarşı çıxmayacağam. Yaxud, Təlhə və Zübeyr gəlirlər, vəzifə,

məqam istəyirlər. Asan idi onları razı salmaq, əlində idi hər şey. Təlhə-Zübeyr kimilərə guya nə lazım idi ki? Deyə bilərdi ki: "Hə, filan yerin valiliyini verdim sənə". Söz demək asan məsələdir. Müaviyənin (lən) etdiklərini ondan min dəfə məharətlə də etmək olardı. Hoqqabazlıqları nə var etməyə, siyasətbazlıqları nə var etməyə? Nə var hoqqabaz olmağa, nə var zəlil yaşamağa? Amma Əli (ə) bunu edə bilməzdi, çünki o - Əlidir (ə)!

Bu gün kimsə Əliyə (ə) baxıb deyərdi ki: "Nə olardı ki?". Nə çətin iş idi ki, Əli (ə) Təlhəyə bir vəzifə verərdi, Zübeyrə də bir şey verərdi. Əqilə də bir şey verərdi. Sonra yavaş-yavaş, mərhələ-mərhələ digər məsələləri həll edərdi, İslamı bərqərar edərdi.

Amma, Əli (ə) onu edə bilməzdi! Əgər, Əli (ə) belə etsəydi, tarixdə Əli (ə) kimi qalmazdı. İndi soruşulanda ki, "Hanı təmiz İslam?", "Hanı ədalətli rəhbər?" deyirik, baxın Rəsulullaha (s), Əliyə (ə). Soruşanda ki, "Hanı təmkin, müdriklik, səbir?" deyirik, baxın Həsənə (ə). Soruşanda ki, "Hanı həqiqi vətəndaş mövqeyi?" deyirik, baxın Hüseynə (ə). Soruşanda: "Hanı mənəviyyat?" deyirik, baxın İmam Səccada (ə); "hanı dönməzlik?" - deyirik, baxın İmam Kazıma (ə); "hanı əziyyətlərə qarşı mətinlik, şücaət, dönməzlik?" - deyirik baxın Həzrət Zeynəbə (s.ə).

## Həzrət Əlinin (ə) adları

Həzrət Əlinin (ə) yalnız adlarına gəlsək, saatlarla danışmaq olar. Kəbə mövludu, Əmirəlmöminin, Siratəl-mustəqim, Allahın aşkar nuru, kafirləri məhv edən, pis əməllər sahiblərinin qənimi, sirlər mədəni, aydın ayələrin aşkar və parlaq möcüzələrinin sahibi, məhvdən nicat verən, Rəsulun (s) qardaşı, Zəhranın həyat yoldaşı, Həsəneynin (ə) atası, Allahın çəkilmiş qılıncı, parlaq ulduz, elm mətləblərinin dairəsinin mərkəzi, ümmətin sərvəri, "Bismillah"ın "ba"sının nöqtəsi, Cəbrailin müəllimi, Mikayılın əmiri, Əzrailin hakimi, pənah axtaranların pənahı, biçarələr və hacət diləyənlərin dadına çatan...

Saatlarla bu adlarını davam etdirmək olar. Görün Əli (ə) kimdir ki, ona aid olan bu qədər xüsusiyyət var. Əziz Rəsulumuz (s) Əli (ə) barədə buyurur: **"Əli ibni Əbutalib - İslamda Allaha tabe olmaqda mənim ümmətimin ən irəlidə gedənidir. Onların ən elmlisidir. Onların dində ən salimdir. Və odur imam və məndən sonra xəlifə və canişin"**. Əziz Peyğəmbərimiz bizlərə İmamı (ə) tanımaq üçün aydın və açıq-aşkar mesajlar verir, ən gözəl şəkildə onu tanıdır.

Başqa bir hədisində Həzrət Peyğəmbər Əlinin (ə) kimliyini bildirir. Buyurur: **"Əli (ə) – insanların ən xoşəxlaqlısıdır"**. Bu məsələ çoxlu sayda alim, mütəxəssis və tədqiqatçıların araşdırma obyektinə çevrilib. Necə olur ki, bir

insan döyüş meydanında əlində Zülfüqar qılıncı olanda düşmənə aman vermir, amma həmin o insan yetim görəndə dizləri əsir? Həmin o insanın möminlərə ürəyi yanır, kafirlərin isə belini sındırır?! Həmin o insan elm şəhərinin qapısıdır. Necə olur ki, bir şəxsdə bu qədər keyfiyyət və xüsusiyyətlər cəmləşir? Əli (ə) – Rəsuli-Əkrəm (s) məktəbinin birinci barıdır. İllərlə bəşər bilmirdi ki, İslam var, bilmirdi tövhid var – Əli (ə) əziz Rəsulallah (s) və Həzrət Xədicə (ə) ilə İslamı yaşadırdı. Əli (ə) – Rəsul (s) tərbiyəsini görüb, mövludu Allah evindən başlayıb. Əli (ə) bütün ömrü boyu qarşısına bir məqsəd və bir hədəf qoyub – bəndə olmaq. Əli (ə) bəndə olaraq, hər kəs hicrət edən zaman Rəsulallahın (s) mübarək yatağında şəhadəti qəbul etmək üçün uzanır. Əli (ə) bəndə olaraq, İslamın aradan getməsi təhlükəsi olan zaman, bütün küfr haqq ilə üzbəüz gələn zaman döyüşlərdə İslamı xilas edir.

Əli (ə) – İslamın məsləhətinə görə, "Allahu Əkbər" sədalarının minarələrdən ucalması üçün öz evində "xaninişin" olur. O, bir kəsdir ki, hökumət başında olan zaman camaatın malını talamağın, insanların gününü qara etməyin qarşısını alır. Müsəlman ümmətinin başında dayanmağın nə olduğunu izah edir. Həzrət Əli (ə) hökumət başında olan zaman gecələr yetimlərə baş çəkməklə, aclıqdan mədəsinin əziyyət çəkməməsi üçün qarnına daş bağlamaqla və ümmətin ən aciz vəziyyətdə olan üzvü qədər sadə bir həyat keçinməklə dərs qoyur. Əli (ə) göstərir ki, hakimiyyət başında olmaq - çoxlu pula malik olmaq, çoxlu yemək, tabeliyindəkiləri incitmək və s. deyil, təqva və imanla rəhbərlik etməkdir.

Həzrət Əli (ə) Rəsulallah (s) məktəbinin yetişdirdiyi kamil insandır. İllər keçəcək, dostlar müxtəlif şərait və səbəblərə görə ona olan sevgisini gizlədəcək, öz sevgisini dilə gətirməkdən çəkinəcək. Düşmənlər paxıllıqdan Əlinin (ə) fəzilət və xüsusiyyətlərindən danışmaqdan çəkinəcək. Lakin bir İlahi möcüzə ilə onun mübarək şəxsiyyəti əsrlərdən keçəcək, unudulmayacaq. Bu, İlahi möcüzədir ki, bu gün bütün dünya Həzrət Əlinin (ə) kimliyini tanıyır. Bütün dünya Əli (ə) mərdliyini, şücaətini, elmini tanıyır.

İmam Əli (ə) mövludunu yaşamaq - çox az tapılan, nadir səadətlərdən biridir. "Əşhədu ənnə Əmirəlmumininə Əliyyən vəliyullah" sədasını ucaltmaq - böyük bir nemətdir. Bu, elə bir sədadır ki, batil əqidələrin müqabilində ucalır. Bir vaxtlar bu sədanı ucaltmaq çox təhlükəli olub. Həmin zamanlarda bunun yerinə "Əli Allahın düşmənidir" (nəuzibillah!) şüarı səsləndirilirdi. Öyrədilmiş şəxslərə bu sözü deməyə görə böyük pullar paylanılırdı. Əli (ə) kimi haqq, kamil insan Allahın düşməni kimi tanıtdırılırdı... Amma, Əli (ə) sevərlər bu böyük eşqi əsrlər boyu müxtəlif yollarla yaşadıb.

## Həzrət Əlinin (ə) aşiqi necə olmalıdır?

Niyə Əlidən (ə) qorxurlar? Çünki, Əli (ə) - bütləri sındırandır. Niyə Əli (ə) aşiqindən qorxurlar? Çünki, onlar zalımlara "yox" deyəndir, bütlərə "yox" deyəndir. Əli (ə) aşiqi öz rəhbəri kimi - istər daxili nəfsani bütlərini, istərsə də cəmiyyətdəki bütləri sındırandır. Əli (ə) aşiqi kamillik

müstəvisində olmalıdır. Əgər bu gün Əli (ə) eşqi Əhli-beyt (ə) davamçısının ətinə, qanına hopubsa, bu, onun əməllərində özünün təzahürünü tapmalıdır. Dilimiz Əli (ə) haqqını deməli, məntiqimiz Əli (ə) məntiqi olmalıdır. Əgər yaşayışımızda Əli (ə) yaşayışından əsər-əlamət yoxdursa, demək ki, sevgimiz hələ lazımi səviyyədə deyil.

Oruc halda olan Həzrət Əlinin (ə) üç gün ardıcıl qapısı döyülür, ac, imkansız insanlar müraciət edir, Əli (ə) və Zəhra (ə) öz iftarını o şəxsə verirlər. Və üç gün obaşdan, iftarı ehsan verilmiş halda təhvil verilir. Sonra Qurani-Kərim bu insanlara bəh-bəh deyir. Əhli-beyt (ə) aşiqi İslamı bu cür yaşatmalıdır. İslamı sözdə deyil, əməldə yaşatmaq gərəkir.

Bəs Həzrət Əli (ə) kimdir ki, onun vilayətini tanımağı biz Allahın lütfü hesab edirik? İmam Əli (ə) - varlığı İslamın varlığına bərabər olan şəxsdir. Tarixin elə səhnələri olub ki, İslamın yaşanması Həzrət Əli (ə) ilə bağlı idi. Bu sözləri Allaha və Peyğəmbərə (s) inanan bütün müsəlmanlar deyir. Böyük alimlərdən biri buyurur: "Əli (ə) – mənyiqin dililə desək, İslam üçün sanki fəsldir". Fəsl nədir? Məsələn, üçbucağın yaranması üçün iki anlam var: bir "fiqur", bir də "üç bucaq" anlamı. Bu ikisi birləşəndə üçbucaq əmələ gəlir. Üç bucaqlılıq olmasa, o fiqur üçbucaq deyil. Yaxud insanın əmələ gəlməsi üçün canlı bir məxluq var ki, hər şeyə, quşa da, heyvana da aiddir. Amma o canlı varlığı insan edən nədir? Onun natiqliyi, onun şüur və dərrakəsi. Buna məntiq dilində fəsl deyirlər. O biri böyük hissəyə deyirlər cins. Əli (ə) - İslamın xüsusiyyətidir, özəlliyidir, təzahürüdür. **Canlı varlıqda natiqlik qabiliyyətinin olmadığı halda, insan ola bilmədiyi kimi,**

**Əlinin (ə) də olmadığı halda, İslam əmələ gəlməzdi. Necə ki, canlı varlıqdan insana keçid etmək üçün natiqlik lazımdır, şüur lazımdır, dərrakə lazımdır, mücərrəd təfəkkür lazımdır, qeyrət, namus lazımdır, o cümlədən də İslamı İslam edən, Rəsulun (s) iyirmi üç illik zəhmətini İslam edən - Əlidir (ə)**.

İslama tərif versək, yəni Peyğəmbərin (s) 23 illik bərəkəti, üstəgəl Əli (ə). Bu, olur İslam. Şüursuz canlı varlıq insan ola bilmədiyi kimi, üç bucağı olmayan fiqurdan üçbucağın çıxmadığı kimi, hər mayedən su çıxmadığı, yalnız içilməli və 100 dərəcədə qaynaya bilən mayenin su ola biləcəyi kimi, Əli (ə) də olmasa, İslam əmələ gələ bilmir. Tarix də bunu göstərir. Allah evində dünyaya gələn, Allah evində dünyadan gedən kimdir? Əlidir (ə)! Dünya Əlini (ə) Allahın evindən daha layiqli bir başqa yer tapmadı ki, qarşılaya. Dünya Əlini (ə) yola salmaq istəyəndə, Allah evindən başqa daha layiqli bir yer tapa bilmədi ki, onu yola salsın.

Altmış üç il ömrünü yaşayan Həzrət Əli (ə), otuz üç ilini Rəsuləllahın (s) xidmətindədir. Əli (ə) həyatının hər anında bəşərə şücaət, mərdanəlik, kişilik dərsi keçir. Qalan illərini bəşərə səbir dərsi keçir. Böyük hədəflərə, məqsədlərə görə, ani hissləri öldürüb, əbədiyaşar İslamın dəyərlərinə görə səbir etməyi öyrədir. Bəzən deyirlər ki, Əli (ə) niyə qalxmadı, haqqını tələb etmədi? Əli (ə) qalxsaydı, İslamdan da bir şey qalmazdı. Amma Əli (ə) belə deyil. O, İslamın nə olduğunu bilirdi. O, İslamın cövhərini təşkil edirdi. Ona görə də İslamın yaşaması üçün lazımi məsələləri həyata keçirirdi. Şücaət lazım olanda - şücaət göstərirdi, səbir lazım olanda - səbir göstərirdi.

Başqa bir şəxs yoxdur ki, onun barəsində Quranda 300 ayə gəlsin. Quranın 300 ayəsi Əliyə (ə) aiddir. Allah Əli (ə) barəsində ayə nazil edəndə çatdırır ki, bu, sizin vəlinizdir, rəhbərinizdir. Əlisiz (ə) İslam naqisdir. Bunu biz demirik. Bunu "Qədir-Xum"da Peyğəmbər (s) çatdırır. Ondan sonra isə biz bunu Quran məntiqinin izah etdiyini görürük. Həzrət Peyğəmbər (s) özü getməmişdən qabaq İslamı İslam etmək üçün, 23 ilik zəhmətinin tam kamil hala düşməsi üçün üzünü müsəlmanlara tutur və sadə bir cümlə deyir: **"Hər kimin mövlası, rəhbəri mənəmsə, Əli (ə) - onun mövlasıdır"**. Bundan başqa, biz İlahi məntiqə nəzər salanda, Əli (ə) vilayəti ilə dinin kamil olduğunu, Allahın nemətlərinin tamamlandığını, İslamın bizim üçün bəyənilən bir din qərar verildiyini görürük. Bütün bunlara bir başqa yerdə rastlaşmırıq, məhz Əli (ə) vilayəti ilə bağlı rastlaşırıq. Quran deyir: **"Bu gün sizlər üçün dininizi kamil etdim"**. Yəni Əlinin (ə) Peyğəmbərdən (s) sonra rəhbər təyin olunduğu gün din kamala çatdı. Yəni din o günə qədər kamil olmamışdı. **"...Və sizin üzərinizdə olan nemətimi tamamladım və İslamı bir din kimi sizin üçün qərar verdim"**. Buradan bayaqkı bəhs açılır. İslam Əli (ə) ilə kamil oldu.

Biz görürük ki, "Maidə" surəsində 67-ci ayəsində Allah Təala Peyğəmbərə (s) təkid edir ki, Əlinin (ə) vilayətini çatdır, onun rəhbər olmasını çatdır. Buyurur: **"Ey Peyğəmbər! Sənə Rəbbin tərəfindən nazil olanı çatdır. Əgər belə etməzsən, öz risalətini təbliğ etməmiş olarsan"**. Yəni bəşərə çatdır ki, Əlisiz (ə) din yoxdur. Çatdır bəşərə ki, mənim 23 illik zəhmətimdə sizlərə çatdıracağım sonuncu məsələ - Əli (ə) ilə

bağlıdır. Buna görə də Peyğəmbər (s) buyurur: **"Haqq Əli ilədir, Əli də haqladır"**. Biz görürük ki, Peyğəmbər (s) həyatı boyu bir bu fikri dəfələrlə təkrar edir. Həm besətin əvvəlində, həm ortasında, həm də sonunda bu fikir – Əli (ə) rəhbərliyi - dəfələrlə deyilib.

# Rəcəb ayının mahiyyətini açan tarix Həzrət Zeynəbin (s.ə) vəfatı


“O gündən ki, bibim Zeynəb (s.ə.) vəfat edib,
indiyə qədər hər il onun vəfat günü mələklər
asimanda əza məclisi qurarlar, o qədər ağlayarlar
ki, gərək mən gedim onları sakit edim”.
Həzrət Məhdi (ə.f)

## Rəcəb ayının mahiyyətini açan tarix – Həzrət Zeynəbin (s.ə) vəfatı

Rəcəb ayının böyüklüyünü, əzəmətini yüksəldən, onun dəyərini daha da aydınlaşdıran amillərdən biri də bu ayda olan əlamətdar günlərdir. Belə əlamətdar günlərdən biri də Həzrət Zeynəbin (s.ə) vəfatıdır. Mübarək İslam təqvimi ilə hicrətin altıncı ili idi. Həzrət Əli (ə) və Həzrət Zəhranın (s.ə) ailəsində, Mədinə şəhərində, Həsən (ə) Hüseyndən sonra (ə) bir uşaq dünyaya gəlir. Bu övlad tarixdə çox böyük iz qoyur. Öz yaşayışı, həyat tərzi ilə, gündəlik real mübarizəsi ilə bütün bəşəriyyətə mübarizlik, dönməzlik, zalımların saraylarını öz mətanətli çıxışları ilə titrətmək dərsi qoyur.

Həzrət Əli (ə) və Fatimeyi-Zəhranın (s.ə) Həsən, Hüseyn, Zeynəb, Ümmi Gülsüm və Möhsin adlı beş övladı olmuşdur. Bu nəcib ailənin üçüncü övladı Zeynəb, hicrətin 6-cı ilində cəmadiul-əvvəl ayının 5-də Mədinə şəhərində dünyaya göz açmışdır. Xanımın vəfatı hicri 62-cü ildə, Kərbəla vaqiəsindən 1 il sonra baş vermişdir.

Həzrər Zeynəb (ə) bir insandır ki, onun adını Həzrət Cəbrayıl (ə) Allahın tərəfindən əziz Peyğəmbərimizə (ə) çatdırır və xanıma “Zeynəb” - yəni, “atasının zinəti” adı qoyulur. Həzrət Zeynəb (s.ə) İmam Əlinin (ə) zinəti olaraq əsrlər boyudur həm də bəşəriyyətin zinətinə, bütün gözəlliklərin zinətinə çevrilmişdir. Əziz Peyğəmbərimiz (s) buyurmuşdur: **“Ona (Həzrət Zeynəbə) hörmət göstərin, çünki, o, Xədicəyi-Kubra (s.ə) kimidir”**. Xanımın məqamı Həzrət Xədicənin (s.ə) məqamına bərabərdir. Həzrət Zeynəb

(s.ə) 5 il ərzində bəşəriyyətə rəhmət olaraq gələn əziz Rəsulun (s) tərbiyəsini görür. Çətinlikləri, müsibətləri, ağrılıqları görür.

Həzrət Zeynəb (s.ə) hələ uşaq ikən bir gün röya aləmində çox ağrılı bir yuxu görür. Bir gün Həzrət Zeynəb (s.ə) Peyğəmbərin (s) yanına gəlib, uşaqlara məxsus şirin dillə deyir: "Ya Rəsulallah, bu gecə yuxuda gördüm ki, şiddətli bir külək əsib bütün dünyanı zülmətə qərq etdi. Mən küləyin şiddətindən o tərəf-bu tərəfə düşürdüm. Axırda məcbur qalıb böyük bir ağacdan yapışdım. Amma külək onu da yerindən qopartdı. Mən ikinci dəfə onun bir budağından tutdum. Amma o da davam gətirmədi. Üçüncü dəfə onun başqa bir budağından yapışdım, lakin, külək onu da sındırdı. Sonra bir-birinə yapışmış iki budağa üz tutdum ki, birdən onlar da sındı və mən yuxudan ayıldım". Əziz Peyğəmbərimiz (s) Həzrət Zeynəbin (s.ə) bu sözlərini eşitdikdən sonra, ağlayaraq buyurur: **"Sənin ilk yapışdığın ağac - babandır ki, tezliklə dünyadan gedəcək. Sonrakı iki budaq - atan və anandır (ə) ki, onlar da dünyadan gedəcək. Bir-birinə yapışmış iki budaqlar isə - qardaşların Həsən (ə) və Hüseyndir (ə) ki, onların da müsibətində dünya zülmətə qərq olacaq"**.

Həzrət Zeynəb (s.ə) uşaq ikən Rəsuli-Əkrəmin (s) məktəbini görür. Əziz babası ilə vidalaşandan sonra Həzrət Zeynəbi (s.ə) bütün ağrı-acısı ilə daha böyük sınaq gözləyir. Anası Həzrət Zəhra (s.ə) ilə vidalaşmalıdır. Babasının (s) vəfatından keçən az müddətdən sonra anasının, atasının nə çəkdiyini görür. Həzrət Zeynəb (s.ə) Fədək qəsbinin, Əhli-beytin (ə) haqqına edilmiş təcavüzün şahididir.

Bir gün Yezidin (lən) sarayını öz şücaəti ilə titrədəcək, Yezidin (lən) və onun tör-töküntülərinin mahiyyətini açaraq, onları zəlil edəcək Həzrət Zeynəb (s.ə), bu dərsi anası Zəhradan (s.ə) alıb. Həzrət Zəhranın (s.ə) məsciddə Əhli-beytin (ə) hüququ ilə bağlı mətanətli və şücaətli çıxışlarından dərs alıb.

Bir gün ana ilə ayrılıq məqamı gəlir... Zəhranın (s.ə) pak ruhu məlakut aləminə pərvaz edib, cismi isə qüsl olunub kəfənlənmişdi. Atanın göstərişi ilə Zəhranın (s.ə) balaları ana ilə vidalaşıb, son dəfə onu qucaqlayıb ayrılırdılar. Həzrət Əli (ə) bu qəmli səhnələri belə təsvir edir: **"Zəhranın (ə) kəfənini düyünləyərək Ümmü Gülsüm (ə), Zeynəb (ə), Həsən (ə) və Hüseynə (ə) dedim: "Gəlin son dəfə ananızla görüşün ki, bu, ayrılığın başlanğıcıdır. Növbəti görüş behiştdə olacaqdır". Həsən (ə) və Hüseyn (ə) anaları tərəfə gələrək, bu sözləri deyirdilər: "Anamız Fatimənin (s.ə) vəfatında olan qəm və həsrət yanğısı heç vaxt sönməyəcək. Anacan, bizim salamımızı babamız Muhəmməd Mustəfaya (s) çatdır və de ki, səndən sonra biz dünyada yetim qaldıq""**.

Həzrət Zeynəb (s.ə) yetim qalır. İrəlidə Xanımı (s.ə) daha böyük və daha ciddi sınaqlar gözləyirdi. Həzrət Əli (ə) məktəbini görür Həzrət Zeynəb (s.ə). Atası məsciddə ikən şəhadətə yetişəndə Həzrət Zeynəbin (s.ə) 35 yaşı olur. 35 il Həzrət Əli (ə) tərbiyəsi görür. Ailə həyatı qurmaq zamanı gəlib çatanda da Xanım Zeynəb (s.ə) bəşəriyyəti silkələyən bir dərs ortalığa qoyur. Digərləri müxtəlif məsələləri düşünəndə, Həzrət Zeynəb (s.ə) şərt olaraq, zəruri hallarda qardaşı Hüseynin (ə) yanında olmağı qoyur. Bu, Xanımın (s.ə) şəxsiyyətini göstərir

ki, o, ictimai məsələlərə, Allah bəyənən məsələlərə nə qədər böyük əhəmiyyət verirdi.

Həzrət Zeynəb (s.ə.)… Hər bir iman əhlinin qəlbini titrədən isimdir bu. Kərbəla şahidi. Kərbəla müsibətlərini dünyaya çatdıran Əli (ə) qızı. Həzrət Fatimənin (s.ə.) timsalında təcəssüm tapan kamil qadın obrazını yaşadan Xanım…

Həyatının hər bir epizodu İslamın yaşadığı bir çox müsibətlərin canlı təzahürü olan insandır Həzrət Zeynəb (s.ə.). Peyğəmbər (s.ə.) vəfatı. Həzrət Əliyə (ə) qarşı xəyanət. Həzrət Fatimə (s.ə.) itkisi. «Cəməl», «Siffeyn», «Nəhrivan» müharibələri. Xəvaric fitnəsi. Müaviyə lənətliyin ümməti parçalamağa yönəlik hoqqaları. Həzrət Əlinin (ə) Kufə məscidində şəhadəti. İmam Həsənin (ə) müsibəti - tənha qalmış sərkərdənin timsalında ümmətin faciəsi. İmam Həsənin (ə) şəhadəti. Yezid lənətliyin beyət hoqqası. Mədinədən İmam Hüseynlə (ə) birgə mühacirət. Kəbə evinin ehtiramını ləkələmək istəyən Yezid lənətliyin planlarını pozmaq üçün Məkkədən çıxmaq zərurəti. Kufəyə gedən azadəlik karvanı. Müslüm ibn Əqilin şəhadəti. Kərbəla vaqiəsi. Ac-suzuz körpələrin naləsi içində mühasirə. Aşura müsibəti. İmam Hüseynin (ə) və məsləkdaşlarının şəhid edilməsi. Əsirlər karvanı. İbn Ziyad (lən) sarayında azadəlik eposu. Yezid lənətliyin müşrik və münafiq əcdadlarının qisasını Peyğəmbər (s) xanədanından almasını bayram etdiyi şeytani məclis. Yezid lənətliyin alçaldılması və ifşa olunması. Kərbəla həqiqətlərinin ümmətə çatdırılması…

## Dilində "Hüseyn!" nidası ilə vəfat edən Zeynəb (s.ə)

Həzrət Zeynəbin (s.ə.) vəfatı - sadəcə bir dünyadan getmə deyil. Bir insanın bu dünya ilə vidalaşması deyil. Və inanc əhlinin daima bu vəfata önəm verməsi, dönə-dönə Kərbəla səhnəsinə qayıtmanı simvolizə edir. Aşura gününə dönüb, dərs almaq deməkdir Həzrət Zeynəb (s.ə.) vəfatını anmaq.

Artıq Kərbəla müsibəti sona çatmışdı. Əsirlər karvanına başçılıq edən Zeynəb (s.ə.) Peyğəmbər (s) şəhərinə - öz Mədinəsinə qayıdır. Əhli-beyti (ə) sevənlər şəhəri olub həmişə Mədinə. Kərbəla müsibətini unutmur Mədinə…

Tarixin axını baxımdan Kərbəla bitsə də, Xanımın (s.ə.) qəmləri, Xanımın (s.ə.) hüznü bitən deyil… Xanımın (s.ə.) hər ləhzəsi Kərbəladır, hər anı - Aşuradır…

Həzrət Zeynəbin (s.ə.) həyat yoldaşı Abdullah ibn Cəfər çox mömin bir insan idi və hər mənada sədaqət və səxavət daşıyıcısı idi. Dəyərli insan olan Abdullah insanlara əl tutmaqla tanınmışdı. Lakin, Mədinədə iqtisadi durum ildən-ilə pisləşirdi. Abdullah ibn Cəfər görür ki, bir çox xeyriyyəçilik işləri ki, yükünü öz üzərinə götürmüşdür, artıq yerinə yetirilməmək təhlükəsi ilə üzləşmişdir. Bunları nəzərə alan Abdullah, Şama köçür və burada kənd təsərrüfatı ilə məşğul olmağa başlayır. Həzrət Zeynəb (s.ə.) də həyat yoldaşı ilə Şama köçür və ömrünün qalan hissəsini burada yaşayır.

Günlər keçir və hüznlü məqam yetişir. Həzrət Zeynəbin (s.ə.) dünya ilə vidalaşmaq zamanı yetişir. Abdullah ibn Cəfər

deyir ki, həyat yoldaşı bu məqamda ona müraciət edir və yatağını həyətdə, günəşin altında yerləşdirməyi xahiş edir. Abdullah eləcə də edir və Həzrət Zeynəbin (s.ə.) yatağını həyətə keçirir. Abdullah deyir: "Onu həyətdə yerləşdirdim və diqqət etdim ki, bir şeyi bağrına basıb və davamlı olaraq dodağının altında nə isə deyir. Yaxınlaşdım Xanıma (s.ə.) və gördüm ki, bağrına basdığı şey - Kərbəladan yadigar qalan bir köynəkdir. Gördüm İmam Hüseynin (ə) qanlı və parə-parə olmuş köynəyini Xanım (s.ə.) öz mübarək əllərilə bağrına basır və davamlı olaraq deyir: Hüseyn!... Hüseyn!… Hüseyn!…".

Həzrət Zeynəbin (s.ə.) dünyadan köçməsinin astanasında da o Həzrətin (s.ə.) dilindən İmam Hüseynin (ə) adı düşmürdü… Son nəfəsədək Həzrət Zeynəbin (s.ə.) xatirəsindən Kərbəla müsibətinin şəkli itmirdi, qəlbindən Kərbəla yarası silinmirdi. Və qızmar günəşin altında, Hüseynin (ə) qanlı köynəyi əlində, Xanım (s.ə.) Kərbəlanı xatırlayır…

Çox dəyərli İslam alimlərindən biri röya aləmində Zəmanə Sahibi Həzrət Mehdini (ə.f.) görür. Görür Həzrət (ə.f.) çox qəmlidir. Görür Həzrət (ə.f.) çox hüznlüdür. Deyir getdim Ağanın (ə.f.) hüzuruna və salam verdim. Sonra soruşdum: «Ağacan! Niyə bu qədər narahat və gözü yaşlısınız?». Buyurdu: **«Bu gün bibim Həzrət Zeynəbin (s.ə.) vəfatı günüdür. O gündən ki, bibim Zeynəb (s.ə.) vəfat edib, indiyə qədər hər il onun vəfat günü mələklər asimanda əza məclisi qurarlar, o qədər ağlayarlar ki, gərək mən gedim onları sakit edim. Onlar Həzrət Zeynəbin (s.ə.) Kufə bazarında söylədiyi xütbəni oxuyarlar və ağlayarlar. Oxuyarlar və ağlayarlar. Mən də indi mələklərin həmin məclisindən qayıtmışam…»**.

Bəli, həmin gündür. Mələklərin bu gün Xanım Zeynəb (s.ə.) üçün ağladığı gündür. İmam Zaman ağanın (ə.f) mələkləri sakitləşdirdiyi gündür bu gün…

Zamanın böyük ariflərindən olmuş Müqəddəs Ərdəbili haqda bir hadisə nəql edirlər. Qeyd edək ki, Müqəddəs Ərdəbili cami bir adam olub, hərtərəfli bir şəxsiyyət olub, kamala çatmış bir insan olub. Bu böyük alimdən çoxlu ibratəmiz mövzular nəql edilib. Cənab Müqəddəs Ərdəbili nəql edir: «Tələbələrlə piyada Kərbəlaya gedirdik. Yol boyu bir tələbə var idi ki, bəzən bizim üçün rövzə oxuyurdu. Sanki İmam Hüseyn (ə) onun səsinə bir duzluluq qoymuşdu, bərəkət vermişdi.

Yetişdik Kərbəlaya. Ərbəin günü idi - İmam Hüseynin (ə) şəhadətinin 40-cı günü. Gördük ki, ziyarətçi çoxdur və bu baxımdan dedim ki, hərəmin içinə getməyim və ziyarətçilərə mane olmayım. Tələbələri ətrafıma yığıb, hərəmin səhninin bir guşəsində ziyarət oxumağa hazır olduq. Birdən yol boyu bizə rövzə oxuyan tələbəni xəbər aldım. Dedilər ki, bilmirik. Camaat arasında idi, harasa gedib.

Elə o tələbəni soruşmuşdum ki, birdən gördüm camaatın içindən bir nəfər nurani insan mənə tərəf yaxınlaşdı və məni səslədi: «Ey Müqəddəs Ərdəbili! Nə etmək istəyirsən?». Dedim: «İstəyirəm «Ərbəin ziyarəti»ni oxuyum». Dedi: «Ucadan oxu, mən də eşidim». Ziyarəti ucadan oxudum. Bir neçə yerdə də ziyarətnamənin ədəbi nöqtələrinə diqqət yetirdim. O vaxt ki, ziyarət tamam oldu, tələbələrdəm soruşdum ki, o tələbə tapılmadımı? Tapın, görün haradadır. Dedilər, tapa bilmirik, bilmirik hara gedib.

Nurani kişi soruşdu: «Müqəddəs Ərdəbili, nə istəyirsən?». Dedim ki, tələbələrdən biri bizə yolda bəzən rövzə oxuyardı, indi bilmirik hara gedib. İstəyirdim ki, gəlsin və bizim üçün rövzə oxusun. O nurani kişi buyurdu: «Müqəddəs Ərdəbili, istəyirsən mən sənin üçün rövzə oxuyum?». Dedim: «Bəli! Rövzə oxuya bilirsiniz?». Buyurdu: «Bəli». Birdən o nurani şəxs mübarək üzünü İmam Hüseynin (ə) müqəddəs zərihinə tutdu və onun baxışı o qədər təsirli idi ki, elə o baxışın tərzindən bizim halımız dəyişdi. Birdən o nurani insan səsləndi: «Ya Əba Əbdillah! Nə mən, nə bu Müqəddəs Ərdəbili, nə bu tələbələr heç unuda bilmirik o vaxtı ki, sən istədin öz bacın Zeynəbdən (s.ə.) ayrılasan!». İmam Hüseynə (ə) xitabən bir elə bu cümlələri demişdi ki, birdən baxıb gördük ki, həmin o nurani şəxs yoxdur. Anladıq ki, o, Zəhranın (s.ə.) Mehdisi (ə.f.) idi».

## Ali əxlaqların tamamlandığı gün – Məbəs

Çox böyük bir bayramı yaşamaqdayıq. Ən önəmli məsələ, bu bayramın – Məbəs gününün kökündə dayanan fəlsəfəni dərk etməkdir. Bu gün – bütün varlıq aləminin yaradılışının hidayətində sonuncu mərhələnin başlanmasını simvolizə edən gündür. Həzrət Rəsulallahın (s) peyğəmbərliyə məbus olması - əlsində öncəki peyğəmbərlərin (ə) hazırladığı müqəddimələrin tamamlanmasıdır. Rəsulallaha (s) qədər sanki onun gəlişi üçün hazırlıqlar görülür, müqəddimələr yaradılırdı. Həzrət Muhəmməd (s) gəlişi ilə bu hazırlıqları tamamlayıb.

Həzrət Rəsulallah (s) öz gəlişini çox lətafətli və incə şəkildə çatdırır. Həzrət (s) buyurur ki, onun gəlişi – ali əxlaqları tamamlamaq üçün olub. Bu, o deməkdir ki, əziz Rəsulumuz (s) mübarək gəlişilə bizlərə yalnız sərhədlərdə yaşamamağı, yalnız halal və haramların keçidlərində qalmamağı öyrədir. Rəsulumuz (s) bizləri bundan daha yuxarı dəyərlərlə yaşamağa öyrətmək istəyir. **Çox təəssüflər olsun ki, insanlar bəzən nəinki daha ali əxlaqlara yiyələnmir, hətta halal və haramların keçidlərində belə büdrəməyə başlayır**. Artıq bu sərhədlərdə gəzən insan elə bir yerə çatır ki, günah da edə bilir. Naməhrəmlə əllə görüşür, sosial şəbəkələrdə naməhrəmlə məhrəmyanə söhbətlər edir, böhtan onun üçün adiləşir, qeybət adiləşir.

Müsəlman toplumunda insanların inkişafı əxlaqın inkişafı və yüksəldilməsi mərhələsində getmir. Bəzən vəziyyət o yerə gəlir ki, dindaxili müzakirələr əxlaqi keyfiyyətlərin yüksəldilməsi müstəvisində deyil, halal-haramlar müstəvisində

gedir. Lakin, xatırlamalıyıq ki, əziz Rəsulumuz (s) özü bizlərin ali əxlaqlarını tamamlamaq üçün gəldiyini bildirir. Bunu daim xatırlayan bir toplum, əlbəttə ki, inkişafda olar, əxlaqi keyfiyyətlərin inkişaf etdirilməsi üçün çalışar.

Məbəs gününün əsas hədəfində duran məsələ - kamil insan yetişdirməkdir. Peyğəmbərimizin (s) gəliş missiyasını izah edərkən, məhz məqsədin bu olduğunu bildirir. İnsan yalnız sərhədlərdə dolaşmaqla kamilliyə doğru yüksələ bilməz. Kamil insan kimi yetişmək üçün, halal-haramlardan əlavə əxlaqi keyfiyyətlərin yüksəldilməsinə də diqqət ayrılmalıdır. İnsanın öz həyatını iradəvi olaraq yaşamağı bacararsa, bu inkişafa nail olar.

# Peyğəmbərin (s) özü mükafatını verəcəyi ay

# Şəban ayı



“Hər kim mənim ayımdan bir gün oruc tutsa, Qiyamət günü mən onun şəfaətçisi olaram”.

Həzrət Rəsulallah (s)

## Peyğəmbərin (s) mükafatını verəcəyi ay – Şəban ayı

Mübarək Şəban ayı artıq daxil olmuşdur. «Üçaylıq» adlandırılan xüsusi mənəvi-ruhi dönəmin artıq 1 ayı geridədir. Qarşıda təqribən 2 ay mənəvi faydalanma fürsəti vardır. Və əslində Şəban ayı mübarək Ramazan ayı üçün giriş və müqəddimə səciyyəsi daşıyır. Ramazan ayındakı İlahi ziyafət üçün, insanın Şəban ayındakı düşüncələrinin, istiğfarların, yerinə yetirdiyi əməllərin, təfəkkürlərinin böyük əhəmiyyəti vardır. Üca Allahdan duamız budur ki, zehni, fikri, ruhi, qəlbi hazırlıqlara malik olmaq tofiqatını cəmi insanlara nəsib etsin!

İnsanın mənəvi işləri düzəlməyincə, onun hər hansı uğura çatması mümkün olmur. Zahiri nailiyyətlərdən söhbət getmir. İnsan məşq edib, yüksək idman göstəriciləri ortalığa qoya bilər, çoxlu məşğul olub, tədqiqat aparıb, ixtiralar və kəşflər edə bilər, müxtəlif istedadlar təzahür edə bilər. **Amma bunlar öz-özlüyündə mütləq dəyərlilikdən xalidir. Bunlar o zaman qiymətlidir ki, insan harmonik surətdə yaşasın, mənəvi-əxlaqi fundamental baza əsasında inkişaf etsin**.

Bu baxımdan şəban ayı - çox ciddi və məsuliyyətli bir dönəmdir. Çünki, Ramazan ayındakı İlahi ziyafətin önüdür. Və şəbanın fikri və ruhi hazırlığını həyata keçirmək üçün bu ayın dua və zikrləri böyük əhəmiyyət daşıyır.

## Şəban ayının dua, zikr və ibadətləri

Əziz Peyğəmbərimiz (s) və İmamlarımız (ə) mənəvi-ruhi yüksəliş baxımından ilin əlamətdar vaxtlarına, o cümlədən də şəban ayına xüsusi önəm verərdilər. Şəban ayını Məsumlarımız (ə) dua, zikr, təvəccö, ibadət və istiğfar ayı kimi tanıdardılar. Bu ayda «Şəbaniyyə münacatları» adlanan Uca Allahla bir ünsiyyət vardır ki, insanı - istəyən insanı, düşünən insanı, axtaran insanı mənəvi süfrənin kənarında əyləşdirə bilər. «Şəbaniyyə münacatları» sanki Allahdan bir qəlb aydınlığı, qəlb diriliyi istəmək fürsətidir. Allah dərgahında mənəvi nemətlərdən bir qədər əldə etmək fürsətidir. İnsan sanki öz canında, qəlbində olan zülmət örtüklərinin aradan götürmək istəyir. Və bu örtüklərin yox olması üçün bir fürsətdir «Şəbaniyyə münacatları». Nur olan Allahdan nuraniyyət qəbul edə bilmək fürsətidir bu. Bir Allahdan ki, Özü Nurdur və Nurun özüdür, insanın qəlbində İlahi nuru qəbul etmək üçün müvafiq şərait yaranır.

**Bir haşiyə çıxaq ki, bu dua və zikrlərdə ümumilikdə dərin təsir potensialı mövcuddur. İnsan duanı edə-edə, zikri oxuya-oxuya onlardakı mənaları tədricən mənimsəyir və bir zaman yetişə bilər ki, insan bu mənalarla yaşasın, həyatını bu müddəalara uyğun qursun**. Götürək elə ötən Rəcəb ayının

gündəlik duasını. Bəndə bu duada iqrar edir ki, hər bir xeyir Allahdandır və hər bir şərdən Ona pənah aparır. Bəndənin az, zəif əməllərin müqabilində bol-bol nemətləri onun üzərinə əta edən Allahdır. İstəyənə də verəndir, istəməyənə də. Öz böyük rəhmətilə Onu tanıyana da verəndir, tanımayana da. İbadət edən insan, bu ayın bütün nemətlərindən faydalana bilməsə də, Allahın lütfü-inayətilə bu ayın bərəkətindən az da olsa ruhuna hopdura bilir.

Bu ruhuna qəbul etdiyinin bərəkətindən, şəban ayının fəzilərlərini dərk etmək və onlardan yararlanmaq hazırlığı əmələ gəlir insanda. Və bəndə səy etsə, Uca Allahın tofiqatı ilə, şəban ayından bu mənəvi paylardan apara bilər. Zira, mənəvi nemətləri qəbul etmək üçün insanın müvafiq tutumu olmalıdır. İnsan əvvəl gərək daxilini təmizləsin, özünü hazırlasın ki, Ramazan ayında ona doğru gələn İlahi nuraniyyəti qəbul etmək iqtidarına malik ola bilsin.

Sanki bir çaydır rəcəb və şaban ayları. İnsan hər gün nə qədər bacarırsa, baş vurur, yuyunur bu mənəviyyat çayında. Nə qədər bacarırsa, öz ruhunu təmizləyir bu çayda. Mübarək Ramazan ayına artıq yeni bir ovqatla, təmizlənmiş və riqqətli qəlblə çıxır bəndə…

## Hüseynsevərlər ayı

Hüseynsevərlər üçün xüsusi bir aydır şaban. Bu ayın 3-cü günü şəhidlər sərvəri İmam Hüseynin (ə) mövlud günüdür. Kərbəla qəhrəmanı Əbülfəzl Abbasın (ə) mövludu isə ayın 4-dür. Fədakarlığın, zülmə müqavimətin simvolu olan Həzrət Abbasın (ə) mövludu. Şabanın 5-i isə İmam Hüseyn (ə) yadigarı, Aşura şahidi, Kərbəla müsibətini dünyaya car çəkən, zalım yezid istibdadını titrədən İmam Zeynələbidinin (ə) - Hüseyn oğlu Əlinin (ə) mövlud günüdür. Bəndəlik simvolu olan, səcdə simvolu olan Səccadın (ə) mövludu.

Bütün dünyada azadələrin simvolu olan bir şəxsiyyətin mövludu olan bir aydır şaban ayı. Baxsaq, görərik ki, bir bu 3 gündə nə böyük mənəvi potensial vardır. Ayın ortasında isə - «Nimeyi-şaban» adı ilə məşhur olan 15-ci gündə Zəmanə Sahibi Həzrət Mehdinin (ə.f.) mövludu günüdür. Bəşəriyyətin gəlişinin intizarında olan bir kəsin mövlududur «Nimeyi-şaban»da. Haqq-ədalət simvolunun, bəşəriyyəti zülmdən qurtaracaq bir mübarək ismin mövlududur o gün…

Bütün öz misilsiz xüsusiyyətləri ilə yanaşı, şaban ayı bu 4 mübarək mövlud günləri sayəsində dərkedilməz bir yüksəkliyə qalxır. Mümkün deyil ki, insan istəsin Allahdan, çalışsın, səy etsin və bu böyüklükldə mənəvi potensialın müqabilində əliboş qalsın. Amma insan öz işlərini proqramlaşdırmasa, özünü hazırlamasa, qəlbi ilə məşğul olmasa, səy etməsə mənəviyyat süfrəsinin yanında əyləşməkdən özünü məhrum edə bilər.

## Peyğəmbər (s) Şəban ayında oruc tutana şəfaətçi olacağını vəd edir

Əziz İslam Peyğəmbəri (s) buyurur: «Şaban - mənim ayımdır, Ramazan ayı - Allahın ayıdır. Hər kim mənim ayımdan 1 gün oruc tutsa, Qiyamət günü mən onun şəfaətçisi olaram».

Açıq-aşkar bir yol göstərilir o insana ki, Həzrət Rəsuli-Əkrəmin (ə) şəfaətçiliyini arzulayır. Bu ayın ehtiramını yüksək bilib, oruc tutan insan üçün Xətəmül-ənbiya - Peyğəmbərlərin Möhürü, Sonuncu İlahi Elçi (s) şəfaətçi olar Qiyamət günündə.

Həzrət Peyğəmbər (s) o adamın şəfaətçisi olar ki, buna ləyaqəti olsun, buna uyğun tutumu olsun, səviyyəsi çatsın. Allaha xatir xalis ibadət edən insan, bütün səhv və xətalarına baxmayaraq, ruhunu qorumağa çalışmışdır və buna görə Həzrət Rəsuli-Əkrəmin (s) şəfaətinə ümid bəsləyə bilir. Şaban ayının orucunun dərəcəsi gör nə qədərdir ki, insanı Peyğəmbərin (s) şəfaətçiliyini qazanmağadək yüksəldə bilir. Şaban ayının belə bir gücü, belə bir imkanları var.

Nəql edirlər ki, əziz İslam Peyğəmbərinin (s) özü Şaban ayını oruc tutardı və onu Ramazan ayına vəsl edərdi, birləşdirərdi.

Böyük İslam Peyğəmbərindən (s) buyrulur: **«Şaban - mənim ayımdır. Bəs bu ayda öz peyğəmbərinizin sevgisini qazanmaq və Allaha yaxınlaşmaq üçün oruc tutunuz»**.

Çox dəqiq reseptdir ki, Rəsuli-Əkrəm (s) müsəlmanların nəzərinə çatdırır. O Həzrətin (s) məhəbbətini necə qazanmaq olar? Allaha yaxınlaşmaqla, xalis ibadətləri Allah üçün yerinə yetirməklə. Və Peyğəmbərimiz (s) buyurur ki, bu yaxınlaşma səyinin təzahürü - oruc kimi ibadətlərdir. Demək şaban ayının orucu öz-özlüyündə mübarəklik yükü daşımaqla yanaşı, insan üçün Peyğəmbər (s) sevgisini qazandırır, Allaha təqərrübü, Allaha yaxınlığı insana nəsib edir.

## Şəban ayının orucu – behiştin açarıdır

Şaban ayının orucu - behişt açarlarındandır. Həzrət Rəsulullah (s) buyurmuşdur: **«Şaban - mənim ayımdır. Hər kim bu ayda bir gün oruc tutsa - behişt ona vacib olar»**.

Təsəvvür edək: bircə gün ixlaslı oruc, behiştə apraran bir vəsilə ola bilər. İnsan həyatında intibah prosesi həmin o bircə günlərdən, bircə saat və dəqiqələrdən başlayır. İnsan hər saat özünə nəzarət edir ki, günah etməsin. Göz günahı, dil günahı, qulaq günahı, qəlb günahı etməsin. Sonra bu özününəzarət artıq günlərə keçir, günləri əhatə edir. Nəhayət, bir gün gəlir ki, insanın özünənəzarəti, ibadi durumda olması fasiləsiz bir prosesə çevrilir. Nə edirsə-etsin - ticarətlə məşğuldur, dərs oxuyur, valimdeyni ilə, övladı ilə, həyat yoldaşı ilə, qonşusu ilə ünsiyyət saxlayır, yaxşılıqlara dəvət edib, pisliklərdən çəkindirir insanları, öz məlumatlılığını, bilgisini artırır, dincəlir, idman

edir, səyahətə gedir, ictimai həyatda iştirak edir - hər bir təzahüründə ibadətdə olur insan. Çünki, Allah istəyən kimi edir və Allaha görə edir. Həmin bu 1 saatlardan, 1 günlərdən başlayan şərəfli yoldur bu.

Şaban ayının orucunun Peyğəmbər (s) məhəbbətini qazandıran, Allaha yaxınlaşdıran və behiştə aparan bir amil olması barədə Əhli-beytdən (ə) silsiləvi surətdə nəql olunmuşdur. Altıncı İmam Həzrət Cəfər Sadiq (ə) öz babası 4-cü İmam Həzrət Səccadın (ə) dilindən belə nəql edir: "Elə ki, şaban ayı daxil olardı, Həzrət Zeynəlabidin (ə) öz əshabını yığardı və buyurardı: «Ey mənim əshabım! Bilirsiniz bu, nə aydır?! Bu - Şaban ayıdır. Və Həzrət Rəsul buyurmuşdur: **«Şaban - mənim ayımdır. Bəs bu ayda öz peyğəmbərinizin məhəbbətini cəlb etmək üçün və Allahınıza yaxınlaşmaq üçsün - oruc tutunuz»**". Sonra İmam Zeynəlabidin (ə) Allaha and içərək buyurur ki, atam Hüseyn ibn Əlidən (ə) eşitdim ki, buyurub: «Əmirəlmöminin (Həzrət Əli (ə)) eşidib ki, hər kim Peyğəmbərin (s) məhəbbətini cəlb etmək və Allaha yaxınlaşmaq üçün şabanın orucunu tutsa, Allah Təala onu sevər və Qiyamət günündə öz kəramətinə yaxın edər və behişti ona vacib edər»».

## Şəbanda ən gözəl əməllər

Şaban ayının orucunun yüksək fəzilətləri barədə dini mənbələrdə çox vurğulanmışdır. İmam Cəfər Sadiq (ə) öz yaxınlarından birinə buyurur: «Öz ətrafında olan kəsləri şabanın

orucuna vadar et (təkidlə dəvət et)». O yaxını soruşur: «Sənə fəda olum! Məgər onun fəzilətində bir şey görürsən?». İmam (ə) buyurdu: «Bəli. Allahın Rəsulu (s) hər vaxt ki, şabanın hilalını görürdü, carçıya tapşırardı ki, Mədinədə nida etsin: «Ey Mədinə əhli! Mən Allah tərəfindən sizin üçün göndərilmişəm!». Sonra buyurardı «Agah olunuz! Həqiqətən, şaban mənim ayımdır. Allahın rəhməti olsun o kəsə ki, mənə mənim ayımda kömək edə - yəni oruc tuta»»».

Carçı gəzərdi Mədinəni və insanları şaban ayının orucuna dəvət edərdi. **Əslində bugünədək o çağırış səslənir və iman əhli Peyğəmibər (s) ayında Rəsuli-Əkrəmə (s) kömək etməyə - oruc tutmaqla öz qəlbini təmizləməyə, dinini yaşatmağa dəvət edilir**. Allah cəmi müsəlmanlara bu nidaları cavablandırmağı qismət etsin!

Həzrət Əli (s) də həmçinin buyurardı: **«O zamandan ki, eşitdim ki, Rəsulun (s) carçısı şabanda nida verdi, şaban ayının orucu məndən fövt olmayıbdır. Və ta o zamana qədər ki, sağam, Allahın izni ilə, inşəallah, (şabanın orucu) məndən fövt olmayacaq»**.

İmam Cəfər Sadiqdən (ə) soruşduqda ki, şaban ayında ən yaxşı əməllər hansıdır, o Həzrət (ə) sualı belə cavablandırmışdı: «Təsəddüq (sədəqə vermək) və istiğfar (tövbə etmək, bağışlanmaq diləmək). Hər kim bu ayda sədəqə verər, Allah Təala onu tərbiyələndirər».

İnsanı tərbiyələndirən, inkişaf etdirən - Allahdır. İnsanın əməli müqabilində onun qəlbinə müvafiq durum, müvafiq tərbiyə hopur. Və sədəqə - insanın qəlbinin İlahi tərbiyəsinə yardım edən vasitələrdəndir. Və sədəqənin azı-çoxu mühüm

deyil, keyfiyyəti mühümdür. Kəmiyyəti az ola bilər, amma sədəqə səmimi qəlbdən verilsə, insanın özünə təsiri çox gözəl olar.

## Zəmanə Sahibinin (ə.f) mövludu və müntəzirlik

Şaban ayının ən mübarək tarixlərindən biri – son İlahi hüccət, dəlil olan Həzrət Məhdinin (ə.f.) mübarək mövludu günləridir. Bu tarix - insanın qurtuluşu, oyanışı, özünəqayıdışı, nicat tapması üçün hazır olan günlərdəndir. İstər gecələri, istər gündüzləri baxımından bu mövlud günü insanın ruhi zənginliyi üçün fövqəladə imkanlar təqdim edir və mübarək İlahi ziyafət ayına doğru olan hərəkəti daha da əzmli, daha da ardıcıl edir.

**Mövludun ən əsas hədəfi, mahiyyəti, gerçək keçirilməsi ondan ibarət olar ki, insan öz daxilini mövlud sahibinin gəlişinə və onun mübarək gəlişilə dünyada yarada biləcək İlahi ədalətə uzlaşdırmalıdır, həmahəng etməlidir. İnsan səy etməlidir ki, Mövlanın (ə.f.) müntəziri olmaq mövzusu onun üçün sözgəlişi bir məsələ olmasın, növbətçi xarakter daşımasın**.

İnsanın bütün həyatı, yaşayışı gözləmək içindədir. Maddi, mənəvi, yaxşı, pis gözləntiləri var insanın. İnsan daxilən bir gözlənti içindədir. Və bu gözləntilər həqiqidirsə, insanların heç biri «növbətçi gözlənti» mövqeyində durmur. İnsan nəyisə səmimi gözləyirsə, riya etmirsə, süstlük, biganəlik etmirsə - onun davranışı bu gözləntiyə uzlaşır, əməl və hərəkətləri əsas

etibarilə bu gözləntiyə uyğun tənzimlənir. Onun halı, ruhiyyəsi bu gözləntiyə uyğun formalaşır.

Bu gözləntinin keyfiyyəti barədə əziz İmamımızın (ə.f) mübarək buyuruşlarına diqqət edək. Mövla (ə.f.) buyurur: **«Biz sizin durumunuzu diqqətdə, nəzərdə saxlamağı əsirgəmirik. Və sizi xatırlamağı unutmamışıq ki, əgər bundan başqa cür olsa idi, müşküllər sizə üz tutardı və düşmənlər sizi yerli-dibli məhv edərdilər. Bəs İlahi təqvaya riayət ediniz və bizim müdafiəçimiz olunuz»**.

Əziz Mövla (ə.f) bizlərin himayəçisidir. Bizləri öz diqqətində saxlayır, mehribançılığı ilə əhatə edir. Və əziz Mövlamız (ə.f) bizlərə öz mübarək tövsiyəsini edir ki, təqva ipindən yapışaq.

İnancı olan bir insan, həyatının müxtəlif səhnələrində olan gözləntilərlə yanaşı, bir mərkəzi gözləntiyə malikdir. O, Zəmanə Sahibi Həzrət Mehdinin (ə.f.) zühurunun olacağını bilir və bu mübarək gəlişin intizarındadır. Daima o vəziyyətə hazırdır ki, İmam (ə.f.) zühur edəcək. Nisgil və həsrət dolu nəzərlərlə gözlər müntəzir öz İmamını (ə.f.)…

Nəql edirlər ki, Sovet rejiminin ən sərt vaxtlarında belə həqiqi müntəzirlər var idi ki, bütün repressiya və sıxışdırmalara baxmayaraq, hər cümə günü İmamın (ə) gəlişi ümidi ilə hazır olardılar, ruhi hazırlıqlarını qoruyardılar. Ən ağır tarixi məqamlarda da onlar intizarda olublar, həqiqi intizarda… Və onların bərəkətindəndir ki, bu gün toplum özünə qayıda bilib, öz müsəlman kimliyini unutmayıb.

## Müntəzir olmaq üçün nə etmək lazımdır?

Müntəzir olmağa iddialı insan ilk növbədə nəyə diqqət etməlidir? Öz gündəlik həyatının müntəzirlik iddasına nə dərəcədə uyğun olmasına. Müntəzirlik durumunun həyatın müxtəlif səhnələrində təzahür olunub-olunmamasına. Hər bir insan bu daxili qiymətləndirməni həyata keçirməlidir. Nə qədər yaxındır, nə qədər uyğundur, nə qədər həmahəngdir onun daxili duyğuları, vəziyyəti, ab-havası müntəzirə xas duruma? Müntəzir bu sualları özü üçün cavablandırmalıdır.

Mübarək hədisdə bir neçə incə nöqtə var. Birincisi, dövrün İmamının (ə.f.) müsəlmanların durumu, halı ilə bağlı daimi diqqəti var. Heç zaman unutmur möminləri İmam (ə.f.). Belə olmasaydı, iblisin (lən) ardıcılları öz məkr və amansızlıqları ilə təmiz insanları məhv edib axırlarına çıxardılar.

Bəs nə vəzifə müəyyən edilir insan üçün? İlahi təqvaya riayət etmək. Allahın qoyduğu mübarək sərhədləri taınmaq və onları pozmamaq. Allahın sevdiyi işlərə meyl etmək və Allahın pislədiyi məsələlərdən çəkinmək. Varlıq olaraq insan özünü o hala, o vəziyyətə gətirsin ki, hansında Uca Allah onu görmək istəyir. İnsanlığın ən optimal durumuna salsın özünü. Zəmanə Sahibinin (ə.f.) müdafiəçisi olsun. Möhkəm əqidə və yenilməz iradə sahibi olsun. Həyatın bütün səhnələrində - istər məişət səviyyəsində, istər ictimai münasibətlərdə, rəftarlarda, ünsiyyətlərdə, yanaşmalarda İlahi təqva konsepsiyasından irəli gələn davranışı rəhbər tutsun. Buna riayət edən insan, Həzrət Məhdinin (ə.f.) müdafiəçisi olar.

Digər mübarək buyuruşunda Həzrət Məhdi (ə.f.) insanın xeyrinin və zərərinin nədə olduğunu çatdırır: **«Sizlərdən hər biriniz gərək o şeyə əməl etsin ki, onu bizim sevgi və məhəbbətimizə yaxınlaşdırır. Və o şeydən uzaq olsun ki, bizim xoşumuza gəlmir və bizim o şeydə qəzəbimiz var. Çünki, Allah Təala insanı birdən aparır - bir vaxtda ki, tövbənin onun üçün xeyri yoxdur və günahlarına görə bizim bizim verəcəyimiz cəzadan onun peşmançılıq çəkməsi (artıq) nicat vermir».**

Sanki bir mehriban valideyn kimi insanı xəbərdar edir İmam (ə.f.). İnsan o işə dəvət edilir ki, onda Allahın Rəsulunun (ə.f.) və Əhli-beytinin (ə) razılığı var. O işlərə ki, insanı kamilliyə aparır, insanı aşağılanmağa qoymur. Lənətlik iblisin torlarına düşərək, ömrünü bihudə işlərdə puç etməyə imkan vermir.

Ciddi bir xəbərdarlıq var mübarək hədisdə. İnsan nə vaxt dünyadan getdiyini bilsə, işlərini buna uyğun tənzimləyər. Mübarək hədisdə vurğulanır ki, insan həyatla birdən vidalaşır, heç bir hazırlıq-filan görə bilmir. Və bu vida məqamından sonra heç bir peşmançılığın faydası olmayacaq. Bu zaman peşmançılıq insanın karına gəlməyəcək. Gecikmiş peşmançılığın insanın aqibətinə bir təsiri olmayacaq. İnsanın öz ruhuna vurduğu yaraların müqabilində çəkməli olduğu cəza, təmizləyici cəza qaçılmaz olacaq. Bu zaman tövbə etmək gec olacaq.

Bu baxımdan insan həyatdaykən, iradəyə malik ikən gərək Allahın bəyəndiyi əməllərə qol qoysun. O şeylərə əməl etsin ki,

Allahın müxlis bəndələri olan Həzrət Peyğəmbərin (s) və Əhli-beytinin (ə) məhəbbətini qazanmış olsun.

## Niyə qeybdədir İmam (ə.f)?

Bütün deyilənlərlə yanaşı, insan İmamın (ə.f.) qeybdə olması səbəblərini unutmamalıdır. Allah Təala nəyə görə Həzrət Mehdini (ə.f.) qeybə çəkdi? Ondan qabaq olan 11 İmamın (ə) qədrini bilmədi bəşəriyyət. Hamısını şəhid etdilər. Sanki, bir gəmidədir bəşəriyyət. Kapitan gəlməlidir ki, bu gəmini nicat yoluna aparsın. Amma sərnişinlər hələ o ləyaqətə çatmayıblar, hələ kapitanı qəbul etmək mərifətini əldə etməyiblər. Kapitanla rabitəni itiriblər sərnişinlər. Bütün öncəki kapitanları qoruya bilmədi sərnişinlər. Hamısını məhv etdi şər qüvvələr. İndi gəmi qalıb kapitansız, insanlar yolu tapa bilmir, ora-bura vurnuxurlar.

Ən azı sərnişinlərin bir hissəsi kapitanın qədrini bilməlidirlər ki, onun gəmiyə gəlişini hazılasınlar. İndi nə vaxt insanlar qədrini bilərlər imamət nurunun, nə vaxt dərk edərlər nə böyüklükdə neməti itirdilər - o zaman əməllərini və niyyətlərini İmamın (ə.f.) gəlişini tezləşdirmək üçün uyğunlaşdırarlar. Əməllərində, niyyətlərində, ruhiyyələrində dəyişiklik etməlidir insanlar. Dəyişiklik olacaqsa insanlarda, ümumi durum da dəyişəcək. Nəticə etibarilə, fərəci - İmamın (ə) zühurunu tezləşdirən məhz insanların əməlləridir.

Bu sırada möminlərin etdikləri dualar xüsusi yer tutur. İmam (ə.f.) buyurur: «**Fərəcin təcili olması üçün çoxlu dua**

**ediniz. Çünki, elə həmin dua etmək sizin fərəc və açılışınızdır».**

Allah bizi fərəcin intizarında olanlardan qərar versin.

# ƏVVƏLİ RƏHMƏT, ORTASI BAĞIŞLANMA, AXIRI CƏHƏNNƏM ATƏŞİNDƏN AZADLIQ RAMAZAN AYI



**Allah Təalanın rəhməti o qədər böyükdür ki, insanın mübarək aya tərəf getməsi tələb olunmur, bu ay bütün rəhmət və fəzilətləri ilə özü insana tərəf gəlir.**

**Hacı İlqar İbrahimoğlu**



## Əvvəli rəhmət, ortası bağışlanma, axırı cəhənnəm atəşindən azadlıq – Ramazan ayı

Mübarək Ramazan ayı! Səni tam anlamağa imkansız və acizik. Amma buna əminəm ki, sən fərqli və özəl aysan. Çünki sevimli Rəbbimin mübarək Kitabında O, səni fərqləndirir. Sən üstünsən, sən digər ayların sultanısan. Sən mübarək Quranın nazil olduğu bir aysan. Quran mövludunun ayısan. Rəbbim Öz ayında Öz mübarək Kitabını Öz bəndəsinə Özünə doğru hidayət tapması üçün nazil etdi.

Ramazan ayından öncə Rəbbimiz bizə 2 mənəvi ay bəxş etmişdi: mübarək rəcəb və şəban aylarını. Bu aylar onun üçün insana verilib ki, mübarək Ramazan ayı üçün vücudunu müvafiq ruhi-mənəvi hazırlıqla təmin etsin. Verilib ki, insan bu aylarda özünü qaydaya salsın və mübarək İlahi ziyafətə nurlu bir durumda daxil olsun. Dünyanın məşğuliyyətləri, iblis lənətliyin qurduğu oyunlar, insanın bu nəcib imkanlardan və gözəl fürsətlərdən yetərincə istifadə etmək imkanını zəiflətməyə yönəlib və əgər mübarək aya daxil olan bir dönəmdə insan, durumunu yenidən qiymətləndirib hansı aya daxil olduğunun fərqinə varmayıbsa, buradan lazımi mənəvi bəhrələr apara bilməyəcəkdir.

## Həzrət Peyğəmbərin (s) Ramazan ayı öncəsi müraciəti

Əziz Peyğəmbərimiz (s) mübarək ayın gəlişindən bir neçə gün öncə müsəlmanlara xitabən xüsusi çağırışlarını edərdi. Həzrət Salman buyurur: «Şaban ayının sonuncu günündə **Peyğəmbər (s)** bizim üçün Ramazan ayının fəziləti haqqında bir xütbə söylədi. Özünün bu xitabında **buyurdu**: «Ey camaat! Həqiqətən sizin üzərinizə əzəmətli və mübarək bir ay kölgə salıb. Bir ay ki, onda 1000 aydan üstün gecə var. (Bir ay ki,) onda Allah Təala orucu vacib qərar vermişdir. Və gecələrinizi ibadətlərdə keçirməyi bəyənilmiş və müstəhəb qərar vermişdir». Xütbənin sonunda **Həzrət Peyğəmbər (s) buyurmuşdur**: «Bu bir aydır ki, bərabərlik ayıdır. Bir aydır ki, möminin ruzusu bu ayda artar. Bir aydır ki, əvvəli rəhmət, ortası məğfirət və bağışlanma, və axırı – cəhənnəm atəşindən azadlıqdır. Və bu ay mömin üçün bəhrə və fayda ayıdır, və münafiq üçün – zərər ayıdır»».

Yəni, artıq səfərə çıxacağıq. Artıq yol başlayır. Bəyan edilir ki, bunda 1000 aydan artıq bir gecə var. Həzrət Peyğəmbər (s) bu ayın böyük fəlsəfəsinə də diqqət çəkir. Qeyd olunur ki, bu – bərabərlik ayıdır. Varlı və ya kasıb, nazir və ya fəhlə, alim və ya azsavadlı olmasından asılı olmayaraq, insanlar gündüzlərini ac və susuz keçirir bu ayda. Qidanı, ləziz xörəkləri görür, amma yemirlər. Varlılar ehtiyaclılığın nə olduğunu dada bilirlər bu ayda. İradəsi zəif insanlar öz iradələrini tərbiyə edirlər bu ayda.

Bu ayın digər xüsusatlarında o da qeyd olunur ki, bu bəhrələnmə mömin üçündür. Üzdə imanlı kimi özünü göstərən, qəlbi imansızlıq və riya ilə dolu olan ünsürlər üçünsə bu ay – zərər vaxtıdır. Özlərini zahirdə oruc tutan kimi göstərməli, müəyyən digər narahatlıqları keçirməli olurlar bunlar. İşləri-gücləri gərginlikdə olmaqdır Ramazan ayında münafiqlərin.

## Hər günü fürsət

Bu ayın digər cəhətləri olaraq, onun əvvəlinin, ortasının və axırının müəyyən məqamları qeyd olunur. Bu aya daxil olmaq – rəhmətlədir. Hər kim bu səfərə çıxırsa, Allah Təalanın rəhməti ona müşayiətçi olur. Ortasında məğfirət və bağışlanma insanın dadına yetir. Bütün səhv və xətalarını, mənfiliklərini tökür qəlbindən və təmizlənmiş bir durumla daxil olur ayın ortasına. Və məntiqi nəticə olaraq, bu durumu saxladığı təqdirdə, cəhənnəm atəşindən sığortalayır bəndə özünü. Onun cisminə haram olur cəhənnəm odu.

## İnsana tərəf üz tutan ay

Digər hədislərdə Ramazan ayına bir neçə gün qalmışdan bəri olan hazırlıqlar barədə nəql olunur. **İmam Muhəmməd Baqirdən (ə) nəql edirlər**: «Şaban ayının sonuna 3 gün qalmış

Allahın Rəsulu (s) Həzrət Bilala göstəriş verərdi ki, camaatı toplaşmağa səsləsin. Camaat toplaşanda Allahın Rəsulu (s) minbərə qalxar, Allaha həmd-səna söyləyəndən sonra buyurardı: «Ey insanlar! Həqiqətən bu ay sizə tərəf üz tutub və bu – bütün ayların ağasıdır. Onda bir gecə vardır ki, 1000 aydan üstündür. Bu ayda cəhənnəmin qapıları bağlanar, cənnətin qapıları açılar. Kim bu ayda yaşasa və bağışlanmasa, Allah Təala onu Öz rəhmətindən uzaqlaşdırar» ».

Allah Təalanın rəhməti o qədər böyükdür ki, insanın mübarək aya tərəf getməsi tələb olunmur, bu ay bütün rəhmət və fəzilətləri ilə özü insana tərəf gəlir. Bəhrələnib-bəhrələnməmək isə insanın özündən asılıdır.

Bu ay tanıtdırılır – bütün ayların sultanı olduğu bildirilir. O biri aylarda islah oluna bilinməyən xasiyyətlər bu ayda düzəlir. O biri ayda meydana çıxan çətinliklər, ruhi problemlər bu ayda asanlıqla öz həllini tapır.

Bu ayı yaşayan, amma bağışlanmayan insan, özünü İlahi mərhəmətdən məhrum edər. O qədər vücudi tənbəl olmalıdır, o qədər süst olmalıdır ki, bacarıqsızlıq göstərməlidir insan ki, bu böyüklükdə rəhmət okeanından bir şey apara bilməsin.

Nəql edirlər ki, **Həzrət Əli (ə) Ramazan ayının hilalını görən zaman bu duanı oxumağı buyurardı**: «Allahım! Mən həqiqətən Səndən bu ayın xeyir və yaxşılıqlarını istəyirəm. Və (Allahım! Bu ayın) fəthini və qələbəsini (lənətlik şeytan üzərində); və nuraniyyətini, işıqlanmasını; və köməkliyini; və bərəkətini; və təharət və paklığını; və ruzusunu Səndən diləyirəm. (Allahım!) Bu ayda olan xeyir və yaxşılıqları və bu aydan sonra olan (xeyirləri və yaxşılıqları) Səndən diləyirəm.

(Allahım!) Sənə pənah aparıram bu ayda olan şərlərdən və pisliklərdən, bu aydan sonra olan (şərlərdən və pisliklərdən). Allahım! Bu ayı bizim üzərimizə əmin-amanlıqla, (Sənə) imanla, ..., İslam (neməti) ilə, həqiqi bərəkət, təqva və Sənin sevdiklərinə tofiq əldə etmək (səadəti) ilə daxil et!».

## İblisə qələbə çalma fürsəti

Bu duada Əmirəlmöminin (ə) bizə öyrədir bu ayın imkanlarını, bu ayın istedadlarını. Bu ayın şeytan üzərində fəth və qələbə təmin etmək istedadı var. İnsan istəməlidir bunu. İnsan bu ayda lənətlik iblis üzərində qələbə çala bilər. Özünü bir duruma gətirə bilər ki, iblis ona vəs-vəs etmək iqtidarında olmaz. Sanki bir mübarək dalğadır, insanın üstünə gəlir Ramazan ayı. Və bəndə diləyir Rəbbindən ki, bu dalğa ruhi-mənəvi, psixoloji, maddi əmin-amanlıqla, salamatlıqla, imanla, həqiqi müsəlman olmaq nemətilə, bərəkət və təqva ilə, Allahın sevdiklərini sevməklə dolu gəlsin.

## İlahi ziyafət

Ramazan ayının gəlişi ilə əlaqədar olaraq, Həzrət Peyğəmbər (s) müsəlmanlara xütbə oxuyardu. **Həzrət Əli (ə) buyurur**: “Mübarək Ramazan ayının gəlişilə bağlı Peyğəmbər

(s) bizlərə belə bir xütbə oxudu: “Ey camaat, doğrudan da Allah Təalanın ayı öz rəhmət, mərhəmət və bərəkəti ilə sizlərə üz gətirib. Bu elə bir aydır ki, günləri Allahın yanında ən gözəl günlər, gecələri ən gözəl gecələr, saatları ən gözəl saatlar, özü də ayların ən gözəlidir”.

Hədisin davamında mübarək Ramazan ayının bərəkətli xüsusiyyətləri bir daha vurğulanır: “Bu ayda sizlər Allah qonaqlığına dəvət olunub kəramət əhlinə çevrilmisiniz. Bu ayda aldığınız nəfəslər zikr, yatmağınız ibadətdir və əməlləriniz qəbul, etdiyiniz dualar müstəcab olur”.

Sonra **Həzrət Əlidən (ə) nəql edilən** bu hədisdə əziz Peyğəmbərimizin (s) Allahdan nə istəməklə bağlı tövsiyəsinə toxunulur: “Elə isə Allah Təaladan saf niyyət və sidq ürəklə istəyin ki, günah və pis əməllərinizdən keçib sizlərə bu ayda oruc tutmağı, Quran tilavət etməyi qismət etsin. Doğrudan da bədbəxt o şəxsdir ki, bu ayda Allahın rəhmətindən kənar qalıb bağışlanmaya”.

Mübarək hədisdə Ramazan ayının ibrətləri və burada edilməli olan əməllər iman əhlinin diqqətinə çatdırılır: “Bu ayda ac-susuz qalmaqla Qiyamət gününün aclıq və susuzluğunu xatırlayın, yoxsullarınıza sədəqə verməklə kömək edin, qocalarınıza hörmət, uşaqlarınıza rəhm, qohum-əqrəbanıza yaxşılıq edin. Danışılması lazım olmayan şeyləri danışmayın, baxılası halal olmayan şeylərə göz yumun, eşidilməsi haram olan şeylərdən qulaqlarınızı gözləyin. Yetimlərə qarşı mehriban olun ki, sizdən sonra yetimlərinizlə mehriban olsunlar. Günahlardan Allaha tərəf qayıdın və əllərinizi dua etmək üçün namaz vaxtı göylərə qaldırın. Çünki namaz vaxtı ən gözəl

anlardır. Bu anlarda Allah Təala Öz bəndələrinə rəhmət gözüylə baxıb Onu çağırarkən onları cavablayır, Onu səslərkən ləbbeyk deyir və dua edərkən müstəcab edir”.

Mübarək hədisdə iman insanının bu mübarək ayda qurtulmalı olan buxovlarından söhbət açılır: “Ay camaat! Doğrudan da canlarınız (ruhunuz) əməllərinizin zaminidir, Allahdan rəhmət (bağışlanma) diləməklə bu zaminlikdən qurtarın, boynunuzda ağır günah məsuliyyəti var, uzun-uzadı səcdələr etməklə günahlarınızı yüngülləşdirin. Bilin ki, Allah-Təala and içib ki, bu ayda namaz qılıb səcdə edənlərə əzab verməyəcək və Qiyamət günü onları Cəhənnəm odu ilə qorxutmayacaq”.

## Yarım xurma iftarı

Ramazan ayının bərəkətləri arasında iftar vermək mədəniyyətinin aşılanmasına da böyük yer ayrılıb. **Hədisin davamında deyilir**: “Ay camaat! Sizlərdən hansı biriniz bu ayda oruc tutmuş bir möminə iftar verərsə, Allah Təala onun üçün bir qul azad etmiş şəxsin savabını yazıb keçmiş günahlarını əfv edər». Səhabələrdən bəzisi dedi: «Ya Rəsuləllah! Axı hamımızın buna imkanı çatmır». **Peyğəmbər (s) buyurdu**: “Oruc tutanlara yarım xurma dənəsi və ya bir içim su ilə də olsa iftar verməklə özünüzü Cəhənnəm odundan qoruyun. Bundan artığını etməyə imkanı olmayana da Allah Təala həmin savabı verər”.

Mübarək Ramazan ayında əxlaqi rəzilətlərdən qurtulmağın dəqiq reseptləri **mübarək hədisin davamında təqdim edilir**: "Ay camaat! Bu ayda əxlaqını gözəlləşdirən şəxs, ayaqların əsəcəyi gündə Sirat körpüsündən asanlıqla ötüb keçər və hər kəs bu ayda öz qul və ya kənizinin işini asan tutarsa, Allah da onun hesab-kitabını Qiyamətdə asan edər. Bu ayda öz şərini camaatdan uzaq edən şəxsdən Allah Təala Qiyamət günü Öz qəzəbini uzaq edər. Kim bu ayda atasız bir yetimə qayğı göstərərsə, Allah da Qiyamət günü onun özünə qayğı göstərib, mərhəmət edər. Kim bu ayda öz qohum-əqrəbasına yaxşılıq etsə, Allah da Qiyamətdə onu Öz rəhmətinə qovuşdurar, kim də bu ayda qohum-əqrəbasına yaxşılıq etməzsə, Allah da Qiyamətdə onu Öz rəhmətindən uzaq edər. Kim bu ayda müstəhəb bir namaz qılsa, Allah Təala onun Cəhənnəm odundan azadlığına hökm verər. Kim bu ayda vacib bir namaz qılsa, Allah Təala ona başqa aylarda qılınan 70 namazın savabını verər. Kim bu ayda mənə çox salavat göndərərsə, əməl tərəzilərinin yüngülləşəcəyi gün Allah Təala onun əməl tərəzisini ağırlaşdırar. Bu ayda Qurandan bir ayə oxuyan şəxsə Allah Təala başqa aylarda bir Quran oxumuş şəxsin savabını verər".

## Cənnət qapıları bu ayda açıqdır

**Hədisin davamında bildirilir**: "Ay camaat! Həqiqətən bu ayda Cənnət qapıları üzünüzə açılmışdır, Allahdan istəyin ki,

onları üzünüzə bağlamasın və Cəhənnəm qapıları üzünüzə bağlanmışdır, Allahdan istəyin ki, onları üzünüzə açmasın. Bu ayda şeytanlar zəncirlənmişlər, Allahdan istəyin ki, onları sizə hakim etməsin”.

**Həzrət Əli (ə) buyurur**: “ “Mən ayağa qalxıb Peyğəmbərdən (s) soruşdum ki, ya Rəsuləllah, bu ayda ən gözəl əməl hansıdır?” O Həzrət (s) cavabında buyurdu: “Ey Əbəl-Həsən, bu ayda ən gözəl əməl Allah Təalanın haram buyurduğu işlərdən uzaq olmaqdır”. Bunu buyurub ağlamağa başladı. Soruşdum ki, ya Rəsuləllah, Sizi ağladan nədir? Peyğəmbər (s) buyurdu: “Ya Əli, sənin bu ayda Allaha ibadət edərkən qanının axıdılacağına ağlayıram. İnsanların ən bədbəxti, hətta Səmud qövmünün (Saleh peyğəmbərin) dəvəsini öldürəndən də bədbəxt şəxs, sənin başına zərbə endirəcək və sənin sifətin qanına bulaşacaq”. Soruşdum ki, ya Rəsuləllah, belə olan halda dinim salamat qalacaqmı? Peyğəmbər (s) buyurdu ki, “Bəli, dinin salamat qalacaq”. Daha sonra isə əlavə edib, buyurdu: “Ya Əli, səni öldürəcək şəxs, sanki mənimlə düşmənçilik etmiş və sənə nalayiq sözlər deyən şəxs, sanki mənə nalayiq sözlər demişdir. Çünki sən məndənsən, mənim özüm kimisən, ruhun mənim ruhumdan, yaranışın mənim yaranışımdandır. Allah Təala mənimlə səni yaratmış, mənimlə səni seçmiş, məni peyğəmbər, səni isə imam təyin etmişdir. Sənin imamətini inkar edən şəxs, mənim peyğəmbərliyimi inkar etmiş olur. Ya Əli, sən mənim vəsim (canişinim), övladlarımın atası, qızımın əri, sağlığımda və ölümümdən sonra ümmətimin xəlifəsisən. Sənin əmrin elə mənim əmrim, sənin nəhyin elə mənim nəhyimdir. And olsun məni peyğəmbərliyə göndərmiş və insanların ən

üstünü qərar vermiş Allaha ki, sən doğrudan da Allahın bəndələr üzərindəki höccəti, Allah sirrinin mühafizəçisi və bəndələr arasındakı xəlifəsisən”.

# RAMAZAN AYININ İMKANLARI VƏ HƏDİYYƏSİ



**Bu ayın elə bir dərəcəsi, fəziləti, üstünlüyü var ki, bu ay Allaha xüsusi olaraq aid edilir.**
**Necə ki, əziz Peyğəmbərimizin (s) çoxlu ailə üzvləri var idi, amma yalnız bir neçə nəfərə «Əhli-beyt (ə)» deyildi.**

**Hacı İlqar İbrahimoğlu**

## Yaradanın nə ehtiyacı bizim ac-susuz qalmağımıza?

Rəbbimiz mübarək Ramazan ayının orucunu Özünə aid edib. **İmam Cəfər Sadiqdən (ə) nəql edirlər**: "Allah Təala buyurur: Oruc Mənim üçündür və onun mükafatını Özüm verəcəyəm".

Bu ay – Allah ayıdır. Məlumdur ki, hər nə var Allaha məxsusdur, o cümlədən, nəinki bütün aylar, bütün anlar belə Allaha aiddir. Lakin, bu ayın elə bir dərəcəsi, fəziləti, üstünlüyü var ki, bu ay Allaha xüsusi olaraq aid edilir. Necə ki, əziz Peyğəmbərimizin (s) çoxlu ailə üzvləri var idi, amma yalnız bir neçə nəfərə "Əhli-beyt" deyildi. Eləcə də, bütün aylar Allahın ayıdır, hər nə varsa Allaha məxsusdur, lakin bu Ramazan ayı o qədər əziz və kəramətlidir ki, xüsusi olaraq vurğulanır. Xüsusi olaraq qeyd edilir ki, oruc tutan insan Allahın qonağıdır. Bildirilir ki, bu ayda Allah qonağı üçün çoxlu hədiyyələr hazırlanmışdır.

Bizlər gərək Uca Allaha dua edərək, deyək: "Ey Rəbbimiz! Bizim hazırlığımız yoxdur Sənin süfrənin kənarında oturaq. Sən Öz lütfünlə bizə nəzər salıb Öz mənəvi süfrənin ətrafında bizə yer verib, mübarək ziyafətin bəhrələrindən faydalanmanı nəsib etsən, bəlkə bizə nəsə müyəssər oldu. Özümüzə qalsa, elə daima ətrafda gəzərək, süfrəyə yaxın düşmək ləyaqətinə sahib çıxmayacağıq. Yalnız Sənin tofiqatın sayəsində bu ayın imkanlarından istifadə edə biləcəyik. Sən rəhmətin, bağışlamanın özüsən, ey Uca Rəbbim! Bizlər hazırlıqsızıq bu mənəviyyat çeşməsindən sirab olmağa. Özbaşına qalsaq, ən sadə, ən ibtidai bir işi də həyata keçirə

bilməyəcəyik. Amma, bizləri qonaqlığına dəvət etmisən. Bu ayın orucunu vacib buyurmusan. İndi ki, qonaqlığına dəvət etmisən, Səndən diləyimiz budur ki, bizlərə Özün yer göstərənsən. Biz bilmirik bu süfrədə nə var, nə yoxdur. Özün bizi yedizdir-içizdir bu süfrəndən".

Bu ruhiyyə ilə yaşasaq mübarək Ramazan ayında, özümüzü ev yiyəsinə təhvil versək və desək ki: "Sənin qonağınıq, Sənə ümidliyik" - Uca Rəbbimizin tofiqat əta etməsilə bir pay apara bilərik bu süfrədən.

## Qonağa ən yaxşı hədiyyə

Hədislərdə çox incə bir mətləbə işarə edilir. Buyurulur ki, oruc Allaha aiddir və savabını da Özü verəcək. Ev yiyəsi Allahdır, qonağını da özü yola salacaq. Və sanki, Rəsulallah (s) da bir məsələyə işarə edir ki, qonağa qarşı ən böyük hədiyyə, ən böyük diqqət o olar ki, bəndə bağışlana. Çünki, Allah qonağının, bəndənin, insanın əldə etdiklərinin o halda qiyməti var ki, insan özünün vücudi xilasına çatmış olsun. İnsan Allah dərgahına qayıdan gün sağalmış bir durumda olsun. Bəs belə isə, bağışlanmaq, kamilləşmək, qurtulmaq, nicat tapmaq baxımından Ramazan ayından da gözəl ay varmı insan üçün?

**Peyğəmbərimizin (s) mübarək bir buyuruşu var**: "Allah Təala buyurur: Kimin bədən üzvləri Mənim haramlarımdan oruc tutmursa, Mənə görə yeməkdən, içməkdən çəkinməyə heç bir ehtiyacım yoxdur".

Allahın nə ehtiyacı ona ki, insan bir ay yemək və içməkdən çəkinsin?! Allah Təalanın bizim fiziki orucumuza

ehtiyacı yoxdur ki... Budur, Rəbbimiz bizə xəbər verir. Deyir ki, kimin bədən üzvləri Mənim haramlarımdan oruc tutmursa, Mənə görə yeməkdən-içməkdən çəkinməsinə heç bir ehtiyacım yoxdur. Gözlərimiz, qulaqlarımız, dilimiz, digər əzalarımız oruc tutmasa, zehnimiz oruc tutmasa, fikirlərimizi, düşüncələrimizi mübarək səmtə yönəltməsək, pis, dağıdıcı, ruhu alt-üst edən düşüncələrdən pəhriz etməsək, oruc tutmaq adıyla yalnız yemək-içməkdən çəkinmədə nə fayda?! Qəlblərimiz oruc tutmasa, zahiri orucun böyük bir əhəmiyyəti və xeyri olmaz.

## Ramazan ayı oruclusunun hədiyyəsi

**Peyğəmbərimizdən (s)** Ramazan ayının oruclusuna verilən hədiyyə ilə bağlı çox **incə bir buyuruş var**: "Heç bir mömin yoxdur ki, mübarək Ramazan ayını fəqət Allaha hesablanaraq oruc tutmuş olsun, Allah Təala da yeddi xisləti onun üçün vacib etməsin:

1. Onun vücudunda, varlığında nə qədər ki, haram var, əriyib gedər.

2. Allah Təalanın rəhmətinə yaxınlaşar".

Kim Allahın əmrini yerinə yetirərək oruc tutarsa, Allahın rəhmətinə yaxınlaşar. Xoş olsun o insanın halına ki, Allahın rəhmətinə yaxın olmuş olar.

"3. Atası Həzrət Adəmin (ə) xətasını örtmüş olar.

4. Allah Təala onun can verdiyi anları asan edər.

5. Qiyamət günü aclıq və susuzluqdan azad edər".

O gün ki, insanların ən ağır günüdür, Allahın əmrini yerinə yetirən oruclu, Qiyamət gününün aclıq və susuzluğundan amanda olar.

“6. Behiştin ləziz təamları onun üçün nəsib olar.

7. Allah Təala Cəhənnəm atəşindən qurtulmanı ona nəsib edər”.

## Nədən uzaq olmaq? Nəyi xatırlamaq?

Mübarək Ramazan ayı boyu, sonadək ibadət amili davam edir. Ayın müxtəlif günlərində dəfələrlə müxtəlif formalarda təkrarlanan 2 mühüm nöqtə vardır. Birincisi – uzaq olmağı istəməklə bağlıdır. Nədən uzaq olmaq? Boş, bihudə işlərdən. Xətalardan, səhvlərdən. Asi olmaqdan, günah işlətməkdən. Və bu uzaqlığın vücuda dərin kök salmış formada olması istənilir. Bir mələkə formasında – dərin surətdə qəlbə hopmuş olaraq istənilir.

İkincisi xatırlamaqla bağlıdır. Davamlı olaraq Onu xatırlamaq durumunu istəyirik Allahdan. Davamlı olaraq Allahı xatırlamaq – insanı günahlardan uzaq edər. Boş-boş işlərdən çəkinər insan. Bu da, insanın ümumi durumu ilə yanaşı, ibadətin keyfiyyətinə də müsbət təsir göstərir. Allahı yad etməklə bağlı **əziz Peyğəmbərimizdən (s) nəql edirlər**: “Allahdan qafil olanların arasında Allahı yad edən kəs, fərarilərin arasında döyüşən şəxs kimidir”.

Necə bəzi insanlar döyüşdən qaçaraq, fərarilik etdiyi kimi, Allahdan qafil olanlar da bəndəlikdən fərarilik ediblər. O şeyi ki, bəndə olaraq etməlidirlər – etmirlər. Bəndəliyini edən isə

döyüş meydanında vəzifəsini əda edən döyüşçü kimidir. O, Allah dərgahında mövcudiyyətini təsbit edib.

Orucun digər faydası isə Qiyaməti xatırlatması ilə bağlıdır. **İmam Rza (ə) buyurur**: "İnsanlar oruc tutmağa əmr olunublar ki, aclıq və susuzluğu anlasınlar və onun vasitəsilə axirətdəki imkanlızlığı duysunlar".

Bir neçə saat ki, insan ac-susuz qalır, bir imkandır ki, Allahın lütfü ilə Qiyaməti xatırlasın. O günü xatırlasın ki, ac-susuz bir vəziyyətdə olacaq və əməllərinə görə cavab verəcək. Nə qohumu, nə dostu, nə tayfası və nə də digər bir şeyi o məqamda dadına gələ bilməyəcək. Fəqət yaxşı əməlləri, gözəl ibadətləri karına gələcək onun.

## Böyük insanlarla dostluq

Mübarək Ramazan ayının dualarının bir qismi insanlarla münasibətə bağlıdır. Əgər əvvəlinci günün dualarında fərdi yüksəlişlə, fərdi islahatla bağlı məsələlər önə çıxırsa, sonrakı dövrdə sanki xüsusi məsələlər, xüsusi mənəvi qidalar var ki, daha çox insanın digər insanlarla münasibətini tənzimləməyə aiddir. Mübarək ayın bəyənilən əməlləri arasında yetimə qayğı xüsusilə təkid olunmuşlardandır. Ehsan vermək üçün imkanın olması kimi nöqtələr vurğulanır. Salamı verməkdən tutmuş, ünsiyyətə aid digər məsələlər də mübarək ayın dualarında öz

əksini tapmışdır. Ayrıca olaraq, ləyaqətli, şəxsiyyətli, yüksək mənəviyyat sahibləri ilə ünsiyyət məsələsi də bu dualarda vurğulanır. Mübarək ayın günlərinin mənəvi qidalarının insan üçün hədəfi odur ki, bir növ mələkəyə çevrilsin, vücuduna hopan bir xüsusiyyət şəklini alsın.

## Rəbbin rəhmətini ondan istəmək

Mübarək Ramazan ayının dualarında keçən mühüm mövzulardan biri – geniş rəhmətdir. Görürük ki, mübarək ayın əvvəli rəhmət, ortası bağışlanma, sonu – insanın cəhənnəm atəşindən nicat tapmasıdır. Ayın əvvəlinin rəhmət olması xüsusiyyəti sonrakı günlərdə bir daha vurğulanır, yada salınır. Allah Təalanın geniş rəhmətindən bəhrələnmək dilənilir. Sanki bu rəhmət günlərinin, rəhmət imkanlarının, rəhmət kimi mənəvi fürsətlərinin dərk edilməsi ilə yanaşı, bunların insanın üzərinə yağması istənilir dualarda.

Rəhmətlə yanaşı paralel xətt – dualarda olan hidayət mövzusudur. İnsan Allah Təalanın hidayətinə qovuşmaq istəyir, aydın və qüdrətli dəlilləri ilə hidayət olunmasını istəyir. Allahın hidayəti – əslində hər bir insan üçün yönəlikdir. İnsanın tutumu olmalıdır bu hidayəti qəbul etməyə. Bütün varlıq aləmi, bütün mövcudat aydın dəlillərlə başdan-başa doludur. Bunların fərqinə varmaq, bunları dərk etmək – tutuma bağlı bir mövzudur. İnsan özü öz tutumunu müəyyənləşdirir. Öz hazırlığını özü həyata keçirir.

## Bəs hansı ayda bağışlanacaq?

**Həzrət Əli (ə) buyurur**: "Ramazan ayı ilə bağlı sizə tapşırığım, nəsihətim budur ki, çoxlu dua və istiğfar edəsiniz". Bəli, bu ay – dua və istiğfar ayıdır.

**Həzrət Əlidən (ə) nəql edilən digər bir hədisdə bildirilir**: "Ramazan ayındakı duanın vasitəsilə bəla sizdən uzaqlaşar. Ramazan ayında istiğfar və tövbənin vasitəsilə sizin günahlarınız məhv olar".

**Əziz Peyğəmbərdən (s) nəql olunur**: "Əgər bəndə Ramazan ayının nə olduğunu bilsə, arzu edər ki, bütün il boyu Ramazan ayı olsun".

Bir başqa mübarək hədisdə əziz imamımız **İmam Muhəmməd Baqirdən (ə) buyurulur**: "Ramazan ayı Allah ayıdır və bu ayda oruc tutanlar Allahın qonaqlarıdır və Onun kəraməti və lütfü əhatəsindədirlər".

Digər mübarək hədisdə **İmam Əlidən (ə) nəql olunur**: "Bu ayda ən gözəl əməl – İlahi haramlardan özünü qorumaqdır".

**İmam Sadiqdən (ə) nəql olunur** ki: "Oruc tutanın yatmağı – ibadət, sükutu – təsbih, əməli – məqbul, duası – müstəcəbdir".

Yenə **İmam Sadiqdən (ə)** bu mübarək ayla bağlı **buyurulur**: "Allah Təala buyurur: oruc Mənə aiddir və savabını da Mən verəcəyəm".

**Əziz Peyğəmbərimizdən (s) nəql olunur**: "Bir kəs ki, Ramazan ayında bağışlanmayacaq, bəs hansı ayda bağışlanacaqdır?".

Mübarək İslam dinimiz öyrədir ki, əgər bəndə bilsə Ramazan ayının əhəmiyyəti və fəziləti nə qədərdir, arzu edərdi ki, bütün il boyu Ramazan ayı olsun. Əgər bilsə Ramazan ayı nədir və nə üçündür, bilmiş olsa ki, bu ayın qiyməti nədir, dərəcəsi nədir, bu ayda nələr baş verir, bu ayda nələr əldə etmək olar, onda deyər ki, kaş bütün il boyu Ramazan ayı olardı.

## Bağışlanma diləmə fürsəti

Mübarək dinimizin məntiqində müqəddəs ay – tövbə, istiğfar, Allahdan əfv diləmək üçün ən münasib dönəmdir. Hər bu vəziyyətə görə, hər o hala görə bu mübarək ayın dəqiqələrində, anlarında Allahdan bağışlanma, tövbə diləmək gərəkdir. Tövbə nədir? Səmimi tövbə budur ki, insan, etdiyi mənfi işlərindən, öz eybəcər daxili durumundan peşman olsun. Tək bu peşmançılıq da kifayət etməz. Gərək daxilində əzmi, iradəsi olsun ki, bu durumla vidalaşsın.

Ən gözəl bir fürsətdir, ən gözəl bir imkandır ki, bu ayda Rəbbimizlə bir bağlantı yaradaq, Rəbbimizlə bir rabitə quraq. Deyək: “Rəbbimiz, gəlmişik. Gəlmişik və bilirik ki, bir aya daxil olmuşuq ki, o ayda bütün imkanlar hazırdır. Hətta şeytanın (lən) da əli-qolu zəncirlənib. Və bu ayda nə pisliklər varsa, nə çatışmazlıqlar varsa, bizim il ərzində topladıqlarımızın nəticəsindədir.

## Zəhmət və səy ayı

Mübarək Ramazan ayı möminin özünü tərbiyə etməsi üçün fövqəl imkanlar təqdim edir. **İmam Cəfər Sadiqin (ə) Ramazan ayının hilalını görən zaman öz övladlarına söylədiyi tövsiyələrində bildirilir**: “Bu ayda öz canlarınızı zəhmətə və səyə vadar edin. Çünki bu ayda ruzilər bölünər, əcəllər yazılar və Allah dərgahına daxil olan qonaqların adları qeydə alınar. Bu ayda bir gecə var ki, o gecənin əməli min ayın xeyir əməlindən yaxşıdır”.

İnsan Ramazan ayında İlahi rəhmətə qovuşduğu kimi, özünü bu rəhmətdən ayrı da sala bilər. **Allahın Peyğəmbəri (s) buyurub**: “Kim Ramazan ayını yaşasa və bağışlanmasa, Allah Təala onu Öz rəhmətindən uzaqlaşdırar”.

İnsan özünü bu ayda xoşbəxt də edə bilər, bədbəxt də. Hər şey öz əlindədir. Seçimi insan özü edir. **Rəsuli-Əkrəm (s)** Ramazan ayının gəlişi ilə bağlı xütbəsində **buyurub**: “Bu böyük ayda Allahın bağışlanmasından məhrum olan kimsə - bədbəxtdir”.

Mübarək Ramazan ayı insan üçün İlahi bağışlanmanı qazanmaq üçün ən nəcib fürsətdir. **Allah Elçisi (s) buyurub**: “Ramazan ayında bağışlanmayan kimsə, bəs hansı ayda bağışlanacaq?!”.

İmanlı insan bir fürsət axtarışındadır ki, günahlarının bağışlanmasına nail olsun. Bu imkanı ən gözəl surətdə Ramazan ayı təqdim edir. **Allahın Peyğəmbəri (s) buyurub**: “Ramazan – günahları yandırdığına görə “Ramazan” adlandırılmışdır”.

## Allahı xatırlama məqamı

Mübarək Ramazan ayı böyük bir fürsətdir. Çünki, bu ayın içərisində olan bütün əməlləri – orucu, duaları və digər əməlləri, bir mühüm məsələyə gətirib çıxarır – bizlər Allahı xatırlayırıq. Allahın dərgahında olmağı daha çox xatırlayırıq, Allahın hüzurunda olmağın fərqinə varırıq. Bu fürsət başqa aylarda da var, başqa zamanlarda da var, Şəban ayında da, Rəcəb ayında da var, digər aylarda da var. Amma Allahın hüzurunda olmağımızı başqa zamanlarda unuduruq. Mübarək Ramazan ayında isə Allah Təala bizlərə bir fürsət yaradır ki, bu ayda özümüzü toparlayaq, özümüzü səfərbər edək. Oruc tutmağımızla, dualar etməyimizlə, zikrlərimizlə, əhya saxlamalarımızla – bütün əməllərin yekun mahiyyəti ondan ibarətdir ki, bizlər Allah dərgahında özümüzü aparmağı öyrənək. Ən azı oruc tutanda o imkan daha da çoxalır.

# QURANİ-KƏRİMDƏ RAMAZAN AYI ÇATDIRIŞI

# Oruc - digər ilahi vacibatların yerinə yetirilməsinin dayağıdır, əsasıdır

Hacı İlqar İbrahimoğlu



**“Ey iman gətirənlər! Sizdən öncəkilərə vacib edildiyi kimi, oruc tutmaq sizlərə də vacib edildi ki, bəlkə təqvalı olasınız”**

***Bəqərə surəsi, 183-cü ayə***

## Çətinliyi aradan aparan şirinlik

Mübarək ayın orucu ilə bağlı Qurani-Kərimin “Bəqərə” surəsinin 183-cü ayəsində **Yaradanımız bizə müraciətlə buyurur**: “Ey iman gətirənlər! Sizdən öncəkilərə vacib edildiyi kimi, oruc tutmaq sizlərə də vacib edildi ki, bəlkə təqvalı olasınız”.

Alimlərimiz bildirirlər ki, “ey iman gətirənlər”, “ey iman daşıyıcıları” müraciəti çox şirin, çox məhrəmyanədir. Rəbbin bəndəyə yaxın olmasını göstərən bu müraciətin özündə olan təbərrüklük və şirinlik, orucun zahiri çətinliklərindən qat-qat artıqdır və oruc tutan üçün böyük dayaq və dəstəkdir.

Bu şirinliklə yanaşı, burada məsuliyyət də vardır. Burada iman gətirmək kimi konseptual bir kateqoriyanın nəzərdə tutulduğunu görürük. İman gətirmək, mömin olmaq qətiyyən sözlə, zahiri şəkillə kifayətlənən bir məsələ deyil. Bu mövzuda **İmam Əlidən (ə) belə nəql edilir**: “Əgər iman təkcə söz olsaydı, oruc, namaz, halal və haram nazil olmazdı”. Mübarək hədisdə imanın bəzi göstəricilərinə işarə edilir. İnsan dinin vacibatlarına əməl etməli, qırmızı xətlərini keçməməlidir.

Allahın vacib buyurduqlarına riayət etməli, qadağalarından çəkinməlidir.

**Uca Allah xitab edir**: "Ey iman əhli, ey mənim əziz iman gətirənlərim". Hər birimizə aiddir. Hədislərimizdə buyurulur ki, "Ey iman gətirənlər!" buyuruşunda o qədər şirinlik var, ərk var, o qədər məhrəmyanə münasibət var ki, insanın bütün vücudunu silkələməlidir. Bütün bundan sonra deyilən hər nə var – öz çətinliyini, öz ağırlığını itirməlidir. O qədər məhəbbətlə, o qədər sevgi ilə Rəbbimiz bizə bunu ünvanlayır – "Ey möminlər, ey iman əhli, ey müsəlmanlar, ey mənim əzizlərim, ey dəyərli iman gətirmişlər, oruc sizin üçün vacib qərar verildi. Mübarək Ramazan ayının orucu sizlər üçün vacib qərar verildi, necə ki, sizdən öncə olanlar üçün vacib qərar verilmişdi". Allah Təala öz xüsusi inayəti ilə hər birimizə ünvanlayır bu buyuruşunu. Hazırıqmı? Bu İlahi buyuruşu cavablandırmağa hazırıqmı? Bu buyuruşu qəbul etməyə, bu məhrəm, ərkyanə, sevgi ilə dolu çağırışı cavablandırmağa içimizdə hazırlıq nə qədərdir? Və Rəbbimiz bizlərə bu dəvətinin, bu buyuruşunun hədəfini və məqsədini açıqlayır – "İnşəallah ki, təqvalı olarsınız", "bu İlahi ziyafətdə Mənim vacib buyurduğum dəvəti qarşılayanlardan, bu dəvəti qəbul etmişlərdən olsanız – nəticədə İlahi təqvaya çatmışlardan olarsınız".

Mübarək ayədə bir sıra əlamətdar təfsiri çalarlar var. Bunlardan birinci və belə demək olarsa, ən vəzifə müəyyənedəni odur ki, müsəlmanlara mübarək Ramazan ayında oruc vacib buyurulur. Yəni, müsəlman olan şəxsə, İslam imanında olan şəxsə mübarək Ramazan ayında sübh azanından şam azanınadək orucu pozan işlərdən çəkinmək vacibdir.

Vacibi əməl odur ki, insan onu mütləq yerinə yetirməlidir. Vacib əməli tərk etmək olmaz – o hallar istisnadır ki, bunlar müqəddəs inancımız tərəfindən dəqiq surətdə açıqlanıb. Vacib əməlin insanın ruhiyyəsinə o dərəcədə təsiri vardır ki, bunu tərk etmək İlahi cəzaya səbəb olur.

İkinci təfsiri çalar da son dərəcədə əhəmiyyətli mövzunu özündə cəmləşdirir. Bəlli edilir ki, iman – orucun zəruri şərtlərindəndir. Orucun vacibliyi iman sahibi olmaqla şərtlənib. Bir kəs ki, İslamın iman dairəsinə daxil olur – onun mübarək Ramazan ayı boyunca oruc tutması vacibdir. Bu insan üçün oruc – vaciblər kateqoriyasına aid olan bir ayin kimi müəyyən edilib. Açıqlanan növbəti təfsiri çalar orucun dərin və qədim bir tarixə malik olması ilə bağlıdır. Ayədən irəli gələn dərslərdən biri odur ki, İslamdan öncəki zaman kəsimlərində yaşayan ümmətlər üçün oruc bir əməl olaraq müəyyən edilmişdi. Həzrət Rəsuli-Əkrəmin (s) İlahi mesajı bəşəriyyətə çatdıraraq, peyğəmbərlik missyasını xətm etdiyi zamandan öncə yaşayan millətlər və qövmlər üçün də oruc kateqoriyalı bir məsələ var idi və insanların oruc tutması adında bir mövzu da mövcud idi.

## Orucun statusu

Təqdim edilən digər təfsiri nöqtə, orucun statusu ilə bağlıdır. Belə ki, orucun istər İslam dinində, istərsə də İslamdan öncəki dövrlərdə yerinə yetirilməsi mühüm olan bir əməl olmasına vurğu edilir. Müəyyən olunur ki, oruc – dinin bazis

elemetlərindəndir, rüknlarındandır. Oruc – dinin əsaslarındandır. Orucsuz din yoxdur, inanc yoxdur. İnsanda iman vardırsa, gərək onun orucu da olsun. İmana iddia vardırsa, gərək oruc tutmaq da olsun.

Mübarək ayədə "ey iman gətirənlər" ifadəsi işlənib və iman gətirənlər üçün orucun vacibliyi bildiriləndən sonra aydın olur ki, əgər insan buna sahib çıxsa, əgər insan ona vacib olaraq buyurulmuş bu əməli yerinə yetirsə, Allahın lütfü ilə təqvaya yetişmiş olar.

Beləliklə, növbəti təfsiri çalar orucun təqvaya yetişmədə oynadığı müstəsna rol barədədir. Əgər bir kəs istəyə ki, təqvalı olsun – Yaradanın bəyəndiyi işləri etsin və bəyənmədiyi işlərdən çəkinsin – onun vacibi şərtlərindən biri oruc tutmaqla bağlıdır.

Digər nöqtə təqvanın hədəf kimi seçilməsi ilə bağlıdır. Aydın olur ki, mübarək Ramazan ayında tutulan orucun təqvaya yetişdirməsi ikinci-üçüncü dərəcəi mövzu deyil. Təqvaya yiyələnməyin bütün iman daşıyıcıları üçün vəzifə olması bəlli edilir. Təqvalı olmaq – İslamda olan bütün insanların vəzifəsi kimi müəyyən edilir Uca Rəbb tərəfindən. Ayədə oruc tutmaq bütün iman əhlinə vacib buyurulur. Və bu oruc tutmada məqsəd olaraq, təqvaya yetişmək göstərilir. Beləliklə, təqvaya çatdıran orucun vacibliyi, təqvanın özünün də vacibliyini zəruri edir.

## Allah Təala İslam ümmətini Ramazan ayı orucu ilə şərəfləndirib

“Oruc sizdən əvvəlki ümmətlərə olduğu kimi, sizlərə də vacib buyuruldu”. Burada da mühüm bir nöqtə var. Bu ayənin bir təfsiri çaları da bundan ibarətdir ki, bəzən bu cür təfsir olunur ki, bizlərdən öncəki ümmətlərə də oruc vacib idi. Amma burada bir başqa mühüm məsələ də var. Belə ki, biz Məsum İmamlarımızdan (ə) ayənin bu hissəsinin təfsiri ilə bağlı maraqlı bir çatdırış görürük. **İmam Sadiqin (ə) səhabələrindən biri buyurur**: “İmam Sadiqdən (ə) eşitdim ki, Ramazan ayının orucu öncəki heç bir ümmətə vacib buyurulmamışdı. O Həzrətə (ə) dedim ki, Allah Təala Quranda bildirir: “Ey iman gətirənlər! Oruc tutmaq Sizlərə yazıldı, necə ki, Sizlərdən öncəkilərə də yazılmışdır”. İmam (s) buyurdu: “Ramazan ayının orucu yalnız o ümmətlərin peyğəmbərlərinə (ə) vacib buyurulmuşdur, nəinki o ümmətlərin özünə. Və Allah Təala Ramazan ayının orucunu İslam ümmətinə vacib etməklə, onlara üstünlük vermişdir”.

Əgər bu təfsiri çaları götürsək, buradan aydın olur ki, mübarək Ramazan ayı Allahın insanlara bir nemətidir, hansı ki, əvvəlki ümmətlərin özlərinə deyil, yalnız onların peyğəmbərlərinə (ə) vacib buyurulmuşdu. Amma elə həmin Ramazan ayının orucu İslam ümmətinin təkcə Peyğəmbərinə (s) deyil, özünə də vacib buyurulmuşdur və bununla da Allah Təala müsəlman ümmətini şərəfləndirmişdir.

# İnsan öz potensialini kəşf edə bilər

Mübarək Ramazan ayında külli miqdarda çalar var. Amma ayın mərkəzi rəngi – Ramazan ayının orucudur. Əgər bizə vacib buyurulan bu orucu doğru-dürüst tutsaq, ayın içərisində olan məsələlərə doğru-dürüst riayət etsək – İlahi təqvaya yiyələnmiş olarıq.

Bir önəmli məsələ də budur ki, Rəbbimiz bizə oruc tutmağı tövsiyə etməklə yanaşı, nəticədə təqvaya yetişmək imkanının olmasını, təqvaya çata biləcəyimizi bildirir. Buradan bu təfsiri çalar da çıxır ki, oruc – digər İlahi vacibatların yerinə yetirilməsinin dayağıdır, əsasıdır. Əgər oruc tutacağıqsa, təqvalı ola bilərik. Təqvalı olanda isə bütün dini vaciatları yerinə yetirmiş olarıq. Deməli, oruc bütün vacibatların həyata keçirilməsi üçün zəmin yaradır.

Rəbbimiz deyir, mənim bəndəm, indi bir ay yaradıram ki, sən o ayın içərisində özünə gələsən, özünü düzəldəsən, gözlərini haramdan çəkəsən, dilini nəzarətə götürəsən, qulaqlarını nəzarət halına gətirəsən, düşüncələrini nəzarətə gətirəsən, yediyini nəzarətə gətirəsən.

Mübarək Ramazan ayında nə edirik? Sübh azanından iftar vaxtına qədər bizlərə ilin başqa aylarında halal olan məsələlərdən özümüz, öz iradəmizlə, şüurlu surətdə imtina edirik. Allah istəyir çatdıra, sən bir bəndəmsən ki, yayın isti, qızmar vaxtında, başqalarının haram işlətdiyi bir vaxtda, haram yediyi, içdiyi bir vaxtda, sən halal yeməkdən, halal içkidən də belə imtina etmək qüdrətindəsən. Allah Təala bunu istəyir bizə

öyrədə ki, sən çox şeylərə qadirsən, sənin içərində çox böyük imkanlar var, çox şeyi bacarırsan. Deməli, mübarək Ramazan ayının bir çaları da budur ki, Rəbbimiz bizlərin çox şeyə qadir olmağımızı öyrədir. Susuz qala bilirik, yeməksiz qala bilirksə, ilin başqa vaxtlarında haramlardan uzaq durmaq o qədər də çətin iş deyil.

Rəbbimiz deyir ki, oruc tutun ki, inşəallah, təqvalı olarsınız. Yəni, günah etməzsiniz, günaha doğru getməzsiniz. Fəsaddan uzaq olarsınız, özünüzü, öz durumunuzu daha çox kontrol edərsiniz. Necə? Oruc nə verir adama? Oruc tutmağın nə hikməti, nə özəlliyi var? Oruc tutmağın nə xüsusi bir cəhəti var ki, nəticədə insanı təqvalı edər, nəticədə insanın həyatında fəsadı azaldar və insanın təqvasını artırar?

Orucun bu kimi işlək bir mexanizm rolu oynaması, onun günahları mənbələndirən amillərin qarşısını almağı ilə bağlıdır. Oruc bunları nəzarətə götürür. Oruc – həm qəzəb hissini, həm də şəhvət hissini kontrola alır. Bunu, öz mahiyyəti ilə edir. Oruc tutan insan – həqiqi oruc tutan – bütün əzaları ilə pəhriz etməsilə yanaşı, qəlbini və düşüncələrini, zehnini, fikir axımını da öz nəzarətində saxlayır. O, bilir, fərqinə varır ki, bir anlıq öz fikir axımını özbaşına buraxsa, destruktiv və reqress düşüncələr üçün münbit zəmin yaratmış olar. Və bu əqlani nəzarət avtomatik olaraq oruc tutanın şəhvət və qəzəb hisslərinə də şamil olunur. Nəticə etibarilə, bu iki əsas amilin əhliləşdirilməsi də digər günahların və günah barədə fikirlərin də qarşısını alır. Bunun nəticəsində insanda fəsad azalar, insanda təqva artar. **Allahın Peyğəmbəri (s) buyurur**: “Oruc tutmağı sənə tövsiyə

edirəm ki, oruc şəhvət damarlarını kəsər və lovğalığı aradan aparar”.

Oruc insanın şəhvətini, təkəbbürünü, lovğalığını, qəzəbini nəzarətdə saxlayar. Oruc insanın daxilində bir mübarək ab-hava yaradar ki, burada əyintilərə, eybəcərliklərə yer qalmaz. Burada insanın vücudi inkişafı üçün gözəl şərait yaranar. Və həmin şəraitdə insan öz tüğyan etmək istəyən nəfsini ram edər, öz hisslərinə daha çox sahib olar, qəzəb və şəhvətinə nəzarət edər. Bunu edə bilsə, təqvalılıq üçün böyük zəmin yaranar. İnsanın müsbətlərə can atması və mənfiliklərdən çəkinməsi təbii bir prosesə çevrilər. O, eybəcərlikləri eybəcər, gözəllikləri isə gözəl görər.

Oruc – nəfsi istəkləri requlə etməyi öyrədir. Oruc zamanı insan digər vaxtlarda ona halal olan şeylərdən yeməkdən, içməkdən digər məsələlərdən çəkinməyi öyrənir. Bu, onda vərdiş halına gəlir. Vərdiş isə onda mələkə halına keçə bilir – şəxsiyyətinin ayrılmaz hissəsinə çevrilir.

Bəli, mübarək ayədə Ramazan ayının orucu vacib bir əməl olaraq buyurulur. Yəni arzu, istək, nəzir və s. məsələlərlə bağlı deyil. Fiziki imkanı çatan, iqtidarında olan hər bir insana oruc tutmaq vacib buyurulmuşdur.

Görürük ki, əməlin vacibliyini çatdırdıqdan dərhal sonra Rəbbimiz bizə bu əməlin fəlsəfəsini yığcam, lakin çox dərin bir şəkildə çatdırır. “Ola bilsin ki, təqvalı olasınız”. Ramazan ayının orucu təqva ruhiyyəsinin formalaşdırlmasında ən təsirli amillərdən biridir. Təqva nədir? Təqva – insanda bir halətin formalaşmasıdır ki, onun günaha tərəf getməsini əngəlləyir.

## Günahlarımızın kökündə dayanan iki amilin müalicəsi

İnsanın günahlarının kökündə əsasən iki şey dayanır. O iki şeyi insan nəzarətə alsa, hər şey düzələcək. Bu iki şey – biri şəhvətdir, o biri isə qəzəb. Mübarək Ramazan ayında Allah Təala bizim bu iki qüvvəmizi, bu iki qərizəmizi o vəziyyətə saldırır ki, özümüzü düzəldək, təqva halına gələk. Bu ayda bir optimal vəziyyət yaranır ki, bu iki qüvvə sənə mane olmasın. Şeytanın (lən) əl-ayağının zəncirlənməsi bu mənayadır. Yəni, lənətlik iblisin iki ciddi müttəfiqi bizim içimizdə dondurulur. Müəyyən mənada o şiddətli imkanları zəiflədilir.

Yay mövsümündə oruc tutan insan günün 16-17 saatı ərzində yemir və içmir. Başqa vaxtlarda ona halal olan qida və içkilərdən də çəkinir. İnsanın ifrat fiziki enerjisi yoxdur. Artıq onu silkələyən, hərəkətə gətirən, özündən çıxaran ifrat fikizi gücü mövcud deyil. İnsan bu ayda ona başqa vaxtlarda halal olan şəhvət imkanlarından da özünü ayırıb. Elə bir vəziyyət yaranır ki, insan iki böyük qüvvəni öz nəzarəti altına götürə bilir. Əgər bir ayın hər gününün 16-17 saatında insan halal olanları belə qəbul etmirsə, iradəvi olaraq başqa vaxtlarda ona halal olanlardan çəkinmək imkanı əldə edirsə, başqa aylarda halal olmayanlarla da düzgün rəftar etmək gücünü qazanacaq.

## Qəzəb qüvvəsi ilə rəftarı öyrənmə ayı

Həzrət Əmirəlmöminin (ə) bizlərə insanın ən pis düşmənini, ən yağı düşmənini tanıtdırır. **Həzrət (ə) buyurur**: "İnsanların ən yağı düşməni – onun qəzəb və şəhvətidir. Kim bu ikisinə üstün gəlsə, məqamı yüksələr və öz məqsədinə çatar".

Bizim iki ciddi, amansız düşmənimiz var – nəzarətsiz qəzəb və idarə olunmayan şəhvət qüvvəsi. İnsanı bədbəxt edən bu iki amildir. Bunlardan biri insanı aqressiv hala gətirib çıxarır, digəri isə yumşaq halda da özündən çıxarır. Bunların hər ikisi həddini aşsa, həmin insanda insanlıqdan əsər-əlamət qalmaz.

Mübarək Ramazan ayı bizlər üçün böyük fürsətdir ki, iki böyük düşmənimizlə mübarizə aparaq, onlara qalib gələk və onları öz ixtiyarımızda saxlayaq. O yerdə ki, onlar lazımdır, həmin yerdə onlardan istifadə edək. Mübarək Ramazan ayı – qəlblərimizin hikmətini bərpa etmək ayıdır. Bu ay fitri ruhumuzun qayıdışı, əqlin önə çıxması üçün imkan yaradar. İmam Sadiq (ə) qəzəbimizin nəzarətdən çıxması təqdirində bizi gözləyən aqibət barədə xəbərdar edir. **İmam (ə) buyurur**: "Qəzəb hikmət sahibinin qəlbini korlar. Öz qəzəbinə nəzarət edə bilməyən şəxs öz ağlına da nəzarət edə bilməz". O yerə qədər ki, insan qəzəbinə nəzarət edir, ağlı yerindədir. Qəzəbinə nəzarət edə bilməyən insanın ağlı da aradan getmiş olur. Qəzəb vaxtı işləməyən ağlın nə faydası?! **İmam Sadiq (ə) digər bir incə buyuruşu ilə də bizi xəbərdar edir**: "Qəzəb – pisliklərin açarıdır. Nə pisliklər var – hamısı qəzəbdəndir". Mübarək Ramazan ayı bizlərə ağlımıza sahib çıxmaq üçün imkan verir.

## Bu ayda həm enmə, həm də qalxma baş verə bilər

Mübarək Ramazan ayında ikiistiqamətli bir proses baş verir. Mübarək Ramazan ayında biz bir tərəfdən enmənin baş verdiyini görürük. İlahi mətnlər bu ayda bir enmənin baş verməsindən xəbər verir. Bir tərəfdən də biz mübarək Ramazan ayında qalxmanın baş tutmasını müşahidə edirilk. Yəni, sadələşdirilmiş formada ifadə etsək, mübarək Ramazan ayı – müqəddəs Qurani-Kərimin nazil olma, enmə ayıdır. Yaradan tərəfindən yaradılmışa doğru, Rəbb tərəfindən bəndəyə doğru, Xaliq tərəfindən məxluqa doğru İlahi kitabın enməsi bu ayda baş verib. Digər tərəfdən yaranmışın, yəni bizlərin heyvani müstəvidən insaniliyə və daha da aliliyə doğru qalxması bu ayda mümkündür.

Bu iki çalar Ramazan ayının çox önəmli nöqtələridir. Qurani-Kərimin nazil olması bu anlamadır ki, Allah Təala öz bəndəsi ilə danışır. Quran bir Allah kəlamıdır ki, Rəbbimiz öz bəndəsi ilə danışır. Ramazan ayının İlahi mətnlərdə, hədislərdə, dualarda gələn məqamlarını təhlil etsək, görərik ki, ən çox xatırlanan bu ayın Quran nazil olan gecəsidir. **Allah Təala Qurani-Kərimin özündə buyurur**: "Ramazan ayı bir aydır ki, Quran onda nazil olub". Bu ay Allah bizə müraciət edib və bizimlə danışıb. Rəbbimiz eyni zamanda bu ayda bütün fürsətləri yaradıb ki, Allah tərəfindən enmiş kəlamı, çatdırışı eşidək.

Məsələnin ikinci tərəfi bundan ibarətdir ki, biz həmin kəlamı eşidib cavablandıracağıqmı? İlahi kəlamlarda bizlərə müraciət olunur. Rəbbimiz öz müraciətlərində hər birimizin qapısını döyür, hər birimizə ünvanlayır, hər birimizin qəlbində

olan imkanlara yönəlik çatdırışlar edir. Bu çatdırışları qəbul etsək, müraciətlərə müsbət cavab versək – bu ay həm də yüksəliş ayımız olacaq. Bizim bu ayda bütün fürsətlərimiz var ki, vərdişlərimizi təftiş edək.

# İLAHİ ZİYAFƏT SÜFRƏSİNİN NEMƏTLƏRİ



**Mübarək Ramazan ayında olan İlahi ziyafət – maddi ziyafət olmadığı üçün, nemətlər də maddi olmayacaq.**

**Hacı İlqar İbrahimoğlu**

## Mükafatı özü kimi maddi olmayan ziyafət

Mübarək Ramazan ayında olan İlahi ziyafət – maddi ziyafət deyil. Bu, bizlərin öyrəşdiyi qonaqlıqlardan çox-çox fərqlənir. Burada maddi nemətlər də yoxdur. Elə bir ziyafətdir ki, burada əksinə, iman əhli maddi məsələlərdən çəkinər. Hətta başqa vaxtı onlar üçün halal buyurulmuş nemətlərdən də bu ayda pəhriz olunar. Yəni, bu İlahi qonaqlığın ab-havası, bizim dünyada öyrəşdiyimiz maddi ziyafətlərdən deyil. Allahın dəvət etdiyi bu qonaqlıq maddi olmadığı kimi, Rəbbimizin bu qonaqlıqdan dorğu-dürüst bəhrələnən kəsə vəd etdiyi hədiyyə də təbii ki, maddi deyil.

İnsan dəvət olunan yerin ab-havasına uyğun olaraq mükafat alar. Misal üçün, elm yarışında iştirak edərək qalib gələn insana, əsasən mahiyyətinə uyğun olaraq ya bir kompüter, ya müəyyən dərs vəsaiti hədiyyə edərlər. Həmin şəxsə idmanla bağlı bir hədiyyə verməzlər. Təbii ki, Allahın da mükafatı qonaqlığına uyğun bir mükafatdır. **Allah yuxarıdakı ayədə veriləcək mükafatdan bizləri xəbərdar edir** – “...İnşəallah, ola bilsin ki, sizlər bu aydan təqvalı halda çıxasınız”. Allahın vəd etdiyi mükafat budur. Əgər bu ayın içərisində olanlardan doğru-dürüst istifadə edə bilsək, Rəbbimiz bizlərə bunun müqabilində təqva mükafatı vəd edir. Göründüyü ki, bu qonaqlığın mükafatı maddi deyil.

## Niyyət – mühümdür

Mübarək Ramazan ayının özəllikləri çoxdur. Onlardan ən mühümlərindən biri də - qəlblərin bu ayda rahatlıq tapmasıdır. Qəlb rahatlığı – dünyagörüşündən asılı olmayaraq, bütün

insanları qayğılandıran mövzudur. Bu gün dünyada bir nömrəli bəla – depressiya hesab edilir. Bu bəla artıq o dərəcədədir ki, hətta buna "əsrin xəstəliyi" də deyirlər.

Görürük ki, mübarək Ramazan ayının arsenalında digər nemətlərin yanında, qəlbi rahatlıq da var. **İmam Baqirdən (ə) nəql edirlər**: "Oruc və həcc qəlblərə rahatlıq bəxş edər".

Mübarək Ramazan ayının orucu bu xüsusda, özəl əhəmiyyətə malikdir. Burada qəlblər müalicə olunur, qəlblər rahatlıq tapır.

Oruc tutan zaman diqqət edilməli mövzulardan biri də - orucun Allaha xatir tutulmağının fərqinə varılmasıdır. Allaha xatirlik mövzusu çox mühümdür. İnsan bu məsələyə diqqət etməsə, özünü bədbəxt duruma sala bilər. **İmam Əli (ə)** "Kimin bədbəxtliyi daha çoxdur?" – sualına çox ibrətamiz və ayıldıcı cavab verir: "Dünyanı dünyaya xatir tərk edən və buna görə dünyanı da əldən verən, axirətinə də ziyan vuran kişi. Bir də özünü göstərmək üçün ibadət edən, çalışan və orus tutan kişi. Dünyanın xətrinə dünya ləzzətlərindən məhrum olub və özünə əziyyət vermiş bu şəxs, əgər bunları Allaha xatir etsəydi, Allahın mükafatına layiq olardı".

Müqəddəs dinimiz insanın zahirdə namaz qılmasına, oruc tutmasına, amma bu dəyərlərin qəlbinə sirayət etməməsinə çox pis baxır. Mühüm nöqtə kimi, insanın ibadi durumunun adət əsasında deyil, düşünülmüş və vücudi bir yanaşma bazasında bərqərar olunmasını zəruri şərt olaraq təqdim edir. **İmam Cəfər Sadiq (ə) buyurur**: "İnsanların namazına, orucuna aldanmayın. Çünki bəzən insan namaza, oruca o qədər adət edir ki, onları

tərk etsə, qorxu hissi keçirir. Əslində, onları doğru danışmaq və əmanətdarlıqla sınayın”.

İnsan üçün düşünüb-daşınmağa, özünü təhlil etməyə böyük qida var burada. İbadət gərək insan üçün adiləşməsin, adət halına keçməsin. İbadət və ayinlər avtomatik halda, tam iradəvi vəziyyətdən çıxmış durumda yerinə yetirilməməlidir.

## Oruc – yeganə məxfi ibadətdir

Ümumiyyətlə, Ramazan ayı – daxili ibadət ayıdır. Mübarək Ramazan ayı hay-küy ayı, nəyisə göstərmək ayı deyil. Oruc yeganə ibadətdir ki, məxfi ibadətdir. Namazı, həcci, zəkatı və bu kimiləri insanlar görürlər. Namaz – müəyyən hərəkətlərlə bağlıdır, istər-istəməz kənardan görünür. Zəkat – kiməsə verilir. Həcc – digər insanlarla birgə yerinə yetirilir. Əmr-be-məruf – yaxşılıqlara dəvət və nəhy-əz-münkər - pisliklərdən çəkindirmək – biixtiyari kiməsə aiddir, deməli, insanın ən azı tərəf müqabili kimi şahidi var. Digər ibadətlər də eləcə. Amma oruc görülən ibadət deyil. Orucu görmək zatən mümkün deyil. Çünki, oruc, heç kəsin görmədiyi bir şəraitdə də insanın müəyyən şeylərdən çəkinməsi ilə bağlıdır. Bir insan oruc tuta bilər, amma mühitdə heç bilinməyə də bilər. Bu ay ibadətlərin, müsbət vərdişlərin dərinləşdirilməsi, pis vərdişlərin uzaqlaşdırılması ayıdır. Bu ayda insan özünü Allahla daha çox rabitəyə öyrəşdirməli, insanlarla münasibətdə daha çox sükuta yer verməlidir.

İnsanın bu ayda hərəkətlərinin, rəftarlarının hamısı ibadət ola bilər. Amma, bir şərtlə - səmimi, həqiqi mənada, ürəkdən

Yaradana üz tutsa. Allahın dərgahında olmağını hiss edərək, bu ayla vücudi harmoniyaya daxil olmaq istəsə.

Oruc tutan diqqət etməlidir ki, bütün gün ərzində bu niyyət itməsin - əməli əməl xatirinə, yəni, orucu oruca xatir tutmasın. Əməl hədəfə çevrilməsin. Orucluğun bütün günlərində bunu unutmaq olmaz: ibadəti insan adət kimi, vərdiş kimi deyil, əslində Uca Yaradana qovuşmağa, yaxınlaşmağa xatir yerinə yetirməlidir. İnsan diqqət yetirməlidir ki, tutduğu oruc əslində Allaha yaxınlaşmaq üçün gözəl bir vasitə olmaq durumundan çıxmasın.

## Orucu qəbul etdirməyən nədir?

Nemətlərlə dolu bir süfrənin kənarındayıq. Sadəcə əlimizi bu süfrəyə uzadıb, bu mənəviyyat ziyafətindən öz payımızı apara bilərik. Amma diqqətli olmalıyıq ki, bəzi əməllər qoymur bizi bu süfrədən bir şey götürməyə. Buraya ilk növbədə, insanlara zülm etmək aiddir. İnsanlara zülm edən kəs, haqq-hesab çəkilən gündə bunun acısını dadacaqdır. Bütün ömrü boyu ibadət etsə də, cəmi savablarını zülm etdiyi adamlara ödəyəcəkdir. **Allahın Peyğəmbəri (s) buyurub**: "Qiyamət günü bəndə öz yaxşı əməllərinə görə şad halda məhşər ayağına çəkilər. Bir kişi gələr və deyər: "Ey Rəbbim! Bu bəndə mənə zülm etmişdir". Bu zaman həmin bəndənin savabından götürülər və ədalət tələb edən kişinin savablarına əlavə edilər. Bu minvalla, zülm etdiyi insanlar bir-bir gəlib öz haqlarını tələb edərlər. Axırda, bəndəyə bir savab və xeyir əməl də qalmaz. Bundan sonra kim gəlib öz haqqını tələb etsə, onun

günahlarından götürülüb həmin bəndənin günahlarına artırılar. Beləliklə, bəndə cəhənnəm oduna daxil olanadək insanların haqqı ondan götürülər”.

Buraya xüsusən də öz yaxınlarını incitmək aiddir. **Allahın Peyğəmbərindən (s) nəql edirlər**: “Öz ərini incidən qadın ərinə kömək edib, onu razı salmayınca, Allah Təala onun namazını və xeyir əməlini – ömrü boyu oruc tutsa belə - qəbul etməz. Kişi də həmçinin, əgər öz həyat yoldaşını incidib zülm etsə, həmin günah və əzab onun üçün də var”. Bunlar abstrakt mövzu deyildir. Hətta görürsən ki, mübarək ayda oruc tutan insan da, bilərəkdən deyil, diqqətsizlik üzündən yaxınlarına əziyyət verə bilər.

## Əsl azad insan kimdir?

Ramazan ayı yalnız şənlənmə, özünün cənnətlə ümidləndirmə ayı deyil. Ramazan ayı özünütəftiş ayıdır. **İmam Cavadın (ə) bununla bağlı buyuruşunda qeyd olunur**: “Fəzilətlər dörd cürdür. Birincisi hikmətdir, hikmətin də canı düşünməkdir. İkincisi iffətdir. İffətin də canı şəhvətdir. Üçüncüsü qüdrətdir. Onun da canı qəzəbdir. Dördüncüsü ədalətdir. Onun möhkəmliyi nəfsani qüvvələri tənzimləməkdədir”.

Düşünməmək, düşünməkdən imtina etmək dinimizdə qadağandır. Amma bir məsələ də var ki, düşüncəni də əqli müstəvidə olmayan, Allaha tərəf aparmayan məsələlərə yönəltmək, insanı məhvə aparır. Bəzi adamlar var ki, elə imici elədir – hər şeydə şəkk edir, hər şeyin “kökünə çıxmaq” istəyir. Beləlri fəlsəfi düşüncəyə malik olduqlarını iddia edirlərsə də,

yanılırlar. Hər şeyə skeptik, nihilist yanaşmanın fəlsəfi düşüncəyə heç bir aidiyyəti yoxdur. İnancımız qurucu düşünməni qəbul edir. Əgər düşüncəmizi düzgün tənzimləyə bilsək, bu zaman himmətə gəlib çatarıq, çalışqanlığa, quruculuğa yetişərik.

Ramazan ayı bizə azad insan olmağa imkan verən bir aydır. Bu gün bütün dünya azadlıq, azad olma kimi məsələlərdən danışır. Həqiqi azadlıq odur ki, insan öz istəklərinə "yox!" deyə bilsin. Əgər insan öz istəklərini özü tənzimləyərsə, bu zaman azad insana çevrilər. Azadlıq o deyil ki, insan nəfsinin qulu olsun. Əgər insan öz istəklərinə qalib gələ bilərsə, həqiqi azadlıq qazanar.

**Həzrət Əmirəlmöminin Əlidən (ə) adətlə bağlı digər bir önəmli buyuruş var**: "Şəhvətinə adəti güclənməmişdən qabaq qalib gəl. Çünki, o, güclənsə, sənə hakim olacaq, səni öz arxasınca çəkəcək və ona müqavimət göstərə bilməyəcəksən".

## Ramazan ayının sayəsində hasil olan mənəvi və ruhani halət

Ramazan ayı ilə bağlı ən mühüm nöqtələrdən, ən mühüm məsələlərdən biri – mübarək Ramazan ayının sayəsində hasil olan mənəvi və ruhani haləti qoruyub saxlamaqdır. Əlbəttə ki, bunu həddindən artıq özümüzü sıxmadan etmək lazımdır. Buradan aydın olan mühüm bir nöqtə var. Peyğəmbərimizin (s) məşhur "Şabaniyyə" xütbəsindən də aydın olduğu kimi, biz Ramazan ayına tərəf deyil, Allahın mübarək ayı özü rəhmət və bağışlanma imkanları ilə üzərimizə gəlir. Bu ayın gəlişi ilə bizim hər birimiz üçün bir mənəvi və ruhi halət hasil olur. Bu ayın bizlər üçün elə ən böyük imkan və fürsəti budur. Ay öz

gəlişi ilə bizim hallarımızı, durumumuzu dəyişir, həm özümüzü, həm də ümumiyyətlə ətrafımızı dəyişir.

Bu ayın sayəsində bizlər üçün daxilimizdə mənəvi və ruhi bir halət əmələ gəlir ki, bunu Allah bizə inayət edir. Əxlaq ustadları da həmin o halətin qorunması üçün çağırış edirlər. Yəni Allahın mübarək ayı daxil olması ilə əmanət edilən bu mənəvi xüsusiyyəti bacardığımız qədər qoruyaq, onu dərhal əldən verməyək, dərhal itirməyək, dərhal xərcləməyək.

## “Nə qədər bəhrələnsən də, Allah razı olmaz!”

Allah Təalanın Ramazan ayının bu xüsusiyyətini daha da aydınlaşdıran bir mübarək buyuruşu var ki, **Məsumlarımızdan (ə) nəql edirlər**: “Mən xalis mülkümü bu ayda sizə təqdim edirəm. Çünki Kəriməm. Və sən bu otuz gündə Mənim bu xəzinəmdən nə qədər bacarırsan, bəhrələn. Nə qədər bəhrələnsən də Allah razı olmaz”. Allah Təala bizə xəbərdarlıq edir ki, bu ayda mülkünü bizə təqdim edir. Ona görə ki, Kərimdir. Bundan sonra hər bizimizə müraciət edərək buyurur ki, sən bu otuz gündə Mənim bu xəzinəmdən nə qədər bacarırsan, bəhrələn. Rəbbimiz buyurur ki, “Mən mülkümün, xəzinəmin qapılarını açmışam və bu otuz gündə Mənim bu xəzinəmdən nə qədər bacarırsan, faydalan. Nə qədər faydalansan da, Mən razı qalmaram”.

Bu, çox mühüm bir buyuruşdur. Buradan belə başa düşülür ki, bu ay daxil olanda, ayın gəlişi ilə hər birimizə ayrı-ayrılıqda mənəvi və xüsusi bir hal verilir. Hər bizimiz də bir həftə sonra, on gün sonra deyəcəyik ki, ayın əvvəlindəki o halımız ki, var idi, artıq onu itirmişik. İkincisi, bu ayın gəlişi ilə böyük bir İlahi mülk olur, bu xəzinələrdən bəhrələnmək imkanı ixtiyarımızda olur.

## Oruc bəndənin deyil, Allahındır!

Bir mühüm nöqtə də var ki, insanı çox düşünməyə və təhlil etməyə vadar edən nöqtədir. **Həzrət Peyğəmbər (s) Mütəal Allahın adından buyurur**: "Adəm övladının bütün əməli özü üçündür. Orucdan başqa ki, o, Mənim üçündür. Mən ona mükafat verərəm. Oruc mömininin Qiyamət günü cəhənnəmdən qalxanıdır. Oruc tutanın ağzının qoxusu Allah yanında müşk iyindən də ətirlidir. Oruc tutan iki halda sevinir: iftarını yeyən və içən zaman və o zaman ki, Mənimlə görüşə nail olar. Bəs onu behiştə daxil edərəm".

Allah Təala buyurmuşdur ki, insanın bütün əməlləri özünə aiddir, orucdan başqa. "Oruc Mənim orucumdur, sənin deyil. Mən öz kərəmimlə sənə tofiq verirəm ki, oruc tutasan. Ancaq namaz bu qədər əzəməti ilə səninindir. Namaz zamanı, baxmayaraq ki, bütün varlığın, əzaların və üzvlərin namazladır – sənə aiddir. Ancaq oruc Mənimkidir".

Göründüyü kimi, Allah bəndəsinə buyurur ki, sən ki, oruc tutmusan, elə zənn etmə ki, o, sənindir. O, Mənimdir, sənin deyil. Mən Öz kərəmimlə sənə tofiq verirəm ki, oruc tutasan.

Bunlar düşünməyə vadar edən məsələlərdir. Burada namazla müqayisədə oruc namazdan daha üstün bir ibadət kimi göstərilir. Çünki Allaha aiddir və Allah da orucun Ona aidliyini bizlərə çatdırır.

## Oruc tutanın dəyəri

**İmam Cəfər Sadiqdən (ə) nəql olunan bir hədisdə buyurulur**: “O insan ki, isti günlərdə oruc tutar və kəskin şəkildə susuzlayar, Allah 1000-ə qədər mələyi ona hakim edər ki, üzünü sığallasınlar və ona Allahın inayətini müjdə versinlər. İftar edən zaman Allah buyurar: “Necə gözəldir iyin və ruhun. Ey mələklər, şahid olun ki, Mən onu bağışladım””.

Burada diqqət etsək, bir sıra önəmli mövzular var. Bağışlanmaq istəyirik, bu ayda o imkan və fürsətlər hazırdır. Allahın sonsuz nemətlərindən faydalanmaq istəyirik, bu ayda Allah öz sonsuz nemətlərini bizim öhdəmizə buraxıb. Gerçək sevinc və səadət istəyirik, bu aydan düzgün bəhrələnsək, həm iftarlarda o sevinc və səadəti yaşaya bilərik, dada bilərik, həm də Qiyamət günü Allaha qovuşan zaman onu hiss edəcəyik.

## Ramazan ayının fürsətlərindən daha səmərəli yararlanmaq üçün əməli proqram

Mübarək Ramazan ayı ilə bağlı əxlaq ustadlarının bir neçə mühüm çatdırışları var ki, onlara diqqət yetirməklə Ramazan ayının orucunu özümüz üçün daha da faydalı və bərəkətli edə bilərik.

1. Münasib qidalanmaya malik olmağa səy göstərmək.

Mühüm nöqtələrdən biri qidalanmaqla bağlıdır. Əxlaq alimləri buyururlar ki, böyük bir aya, Allah dərgahına ibadətə daxil oluruq. Bu böyük ibadəti həyata keçirmək üçün gərək sağlamlığımız, səhhətimiz yerində olsun ki, bu ayı layiqli şəkildə yaşamaq üçün bizlərə problem yaratmasın. Buna görə

də qidalanmağa diqqət edilməlidir. Yaya uyğun, istiyə uyğun qidalanmaq lazımdır.

2. Göz, qulaq və dil ilə yanaşı, qəlb orucu.

Çox mühüm tövsiyələrdən biri budur ki, İlahi övliyalar göz, qulaq və dil ilə yanaşı, qəlblərini də bu ayda oruc tutdurarlar. Diqqət etsək, görürük ki, burada heç yeməkdən, içməkdən söhbət getmir. Buyurulur ki, göz, qulaq və dil orucu ilə yanaşı, qəlblərini də oruc edərlər. Əslində göz, qulaq və dil orucu – özü bir əxlaqi məsələdir. İnsan orucdursa, gözü, dili, qulağı da oruc olmalıdır. Bu ayda gözün, dilin, qulağın haramdan çəkinməsi digər aylar üçün də bir imkan yaradır ki, insan özündə bir mələkə, vərdiş formalaşdırsın. Elə bir vərdiş ki, bunun sayəsində gözünü, dilini, qulağını haramdan qorusun.

Əxlaq ustadları buyurur ki, qəlblər də oruc tutmalıdır. Yəni qəlbə dostdan kənar heç kim buraxılmamalıdır. Qəlbin bir dostu var – o da Allahdır. Allah Təaladan başqa, Allahın razılığının qəlbdə yer tutmasından başqa heç bir naməhrəmi qəlbə buraxmaq olmaz. Qəlbin bir dostu var – o da Allahdır və onun razılığıdır. Qəlbə kənar heç bir şeyi buraxmamağa çalışmaq lazımdır.

3. Mübarək Ramazan ayı – Quranın baharıdır.

Əxlaq ustadlarının buyurduğu üçüncü mühüm nöqtə bundan ibarətdir ki, mübarək Ramazan ayı Qurani-Kərimin baharıdır. Müqəddəs Qurani-Kərim məhz bu ayda nazil olub. Ona görə də diqqət və hövsələ ilə, gündəlik Qurani-Kərimin bir hissəsini tilavət etməyə səy edilməlidir. Bununla yanaşı, imkan daxilində mənasına və təfsiri çalarlarına da diqqət edilməlidir. İş çoxdur, məşğuliyyət çoxdur – bütün bunlar aydındır, amma

Ramazan ayında Quran tilavət olunmasa, deməli, vaxtımızı fövtə vermişik, boş keçirmişik.

4. Mübarək Ramazan ayı – daxili paklanma və mənəvi səfa tapma ayıdır.

Əxlaq ustadlarının proqramında mübarək Ramazan ayı batini, daxili paklanma ayıdır. Mənəvi və ruhi səfa tapmaq ayıdır. Ustadlar buyururlar ki, insan bu ayda xüsusi münacat proqramlarının olması istiqamətində, Allahla razi-niyaz etmək, istiğfar etmək proqramlarının olması üçün səy etməlidir. Xüsusən, bu ayın sübhləri üçün buna riayət etmək tövsiyə olunub. Həzrət Peyğəmbər (s) və onun pak Əhli-Beytindən (ə) gələn dualardan, münacatlardan bəhrələnmək lazımdır.

5. Dini məclislərdə iştirak etmək.

Əxlaq ustadlarının buyurduğu beşinci mühüm nöqtə bundan ibarətdir ki, bu ayda dini məclislərdə iştirak etmək və bu fürsətlərdən maksimum faydalanmaq lazımdır. Tək-tək bu imkanlardan bəhrə aparmaq imkanları cəm halında olan fürsət və imkanlardan daha azdır. Xüsusən də, Qədr gecələrinə işarə edirlər ki, bir araya gəlmək, cəm halında əhya saxlamaq, ibadət etmək lazımdır.

6. Dünyadan gedənləri unutmamaq.

Mübarək Ramazan ayı proqramında əxlaq ustadlarının buyurduğu altıncı mühüm nöqtə bundan ibarətdir ki, dünyadan getmişləri unutmamaq lazımdır. Onlar üçün bağışlanma diləmək və Quran tilavətlərimizin savabını onlara hədiyyə etmək, onları da bu savaba şərik etmək tövsiyə olunub.

7. Az danışmaq, çox düşünmək.

Yeddinci nöqtə - az danışmaq və çox düşünməkdən ibarətdir. Öz rəftar və davranışlarımızın, əxlaqımızın daha yaxşı olması üçün səy göstərmək – bu ayın ən mühüm əməllərindəndir. Bu ayda çalışmaq lazımdır ki, əxlaqlarımız,

rəftarlarımız yaxşıya tərəf dəyişsin ki, gələcək aylarda da bundan istifadə edə bilək. Bunun da yolu, çox düşünmək və az danışmaqdan keçir.

## Varlı yoxsulun dərdini bilər

Oruc – insanın iradəsini gücləndirir. Belə ki, bir insan ay ərzində ona halal olan sudan, yeməkdən, şəhvətdən çəkinirsə, deməli il ərzində ona haram olan maldan, ona haram olan baxışdan, sözdən, haram şəhvətdən çəkinməyi bacarar.

Oruc duyğuları və insani emosiyaları inkişaf etdirər. Bir ay aclıq və susuzluq çəkən oruclu, dərd nədir – anlayar. O, aclıq və korluq çəkənlərin duyğularını bölüşmə hisslərinin inkişafını əldə edər. **İmam Həsən Əsgəri (ə) orucun vacib olmasının səbəbini bəyan edərkən buyurub**: "Varlı aclıq dərdini dadsın və yoxsula kömək etsin".

Orucun bir xüsusiyyəti də vardır ki, insanı mələk kimi edər. Belə ki, mələk yeməkdən və şəhvətdən uzaqdır. Amma, mələkdən fərqli olaraq, oruclu buna iradəvi nail olar.

Oruclu qəlbində Allahdan qeyri hər şeydən pəhrizi öyrənər. **İslam Peyğəmbəri (s) buyurub**: "Hər kim Ramazan ayının orucunu Allaha xatir tuta, bütün günahları bağışlanar".

Yaşadığımız dönəm isti yay mövsümü ilə bağlıdır. Bunun özü də bir İlahi bərəkətdir. **İmam Cəfər Sadiq (ə) buyurub**: "Ən üstün cihad, isti havada oruc tutmaqdır".

Günümüz üçün aktual olan bir mübarək hədisə də toxunaq. **Allahın Peyğəmbəri (s) buyurub**: "Hər bir oruc tutan, yemək yeyən şəxslərin arasına daxil olanda, onun bədən

əzaları Allaha təsbih söylər, mələklər ona salam göndərər və dua edərlər. Belə ki, duaları onun günahlarının bağışlanması istəyi ilə olar”. Bax, belə bir məqamı var oruclunun Allah dərgahında.

## Bərabərlik amili

Ramazan ayı insanın vücudi salamatlığa yetişməsi üçün bir mübarək imkandır. İnsan hər şeyi lənətlik iblisin fitnələri ilə izah etməyə meyllidir. Halbuki, məlun iblis yalnız vəs-vəs edə bilir, qəlbə yol taparaq bir görüntü, dekorasiya təqdim edir insana ki, zəiflər bu dekorasiyalara aldanıb özlərini bədbəxt edirlər. Əslində, iblisi öz qəlbinə buraxıb-buraxmamaq mövzusu insanın tamamilə öz əlindədir. İnsan qəlbini iblislər üçün bağlaya bilər və heç bir vəs-vəsi yaxına buraxmaya da bilər. Və mübarək Ramazan ayı həmin qoruyucu, mühafizəedici sədlər qurmaq üçün ən effektli vasitələrdəndir.

Orucun bir çox cəhətləri vardır ki, bunların tibbi, psixoloji, ictimai, ruhi-mənəvi müstəvilərdə insana böyük faydası var. **İmam Cəfər Sadiq (ə) nəql edir**: “Allah Təala orucu vacib etmişdir ki, ta bu vasitə ilə imkanlı və imkansızı bərabər edə”.

İmkanlı insan istədiyi vaxt yeyir, istədiyi vaxt içir, hansı qidalardan, mayelərdən arzu edirsə ala bilir. Amma kasıb bu imkandan məhrumdur. Və orucun sayəsində günün müəyyən hissəsində imkansız və imkanlının vəziyyəti eyniləşir, onların arasında bərabərlik vəziyyəti yaranır. İmkanlı kasıbın halını dadır, kasıblığın necəliyi ilə bağlı onda dürüst məlumat hasil olur.

## Qəlbi və əzaları haramdan qorumalı

**Allahın Elçisi (s) buyurmuşdur**: "Ramazan ayı bir aydır ki, onda İlahi ziyafətə dəvət olunursunuz, buna görə: (1) Allah Təaladan istəyin ki, sizin niyyətləri və qəlblərinizi günahlardan və pis sifətlərdən pak qərar versin; (2) oruc tutmaq və Quran tilavət etmək tofiqini sizə inayət etsin; (3) o vaxt ki, ac və susuz olursunuz, Qiyamətin aclıq və susuzluğunu yada salınız; (4) o cümlədən, imkansızları və binəvaları, zəifləri tapınız və onlara əl tutunuz; (5) uşaqları və yaxınları lütf və mehribanlıq ünvanı qərar veriniz; (6) dilinizi deyilməməlilərdən qoruyunuz; (7) gözlərinizi haram görməməlilərdən qaytarınız; (8) qulaqlarınızı haram eşitməməlilərdən qoruyunuz; (9) camaatın yetimlərilə mehribançılıq ediniz ki, sizin yetimlərə də mehribançılıq etsinlər; (10) namaz vaxtında əllərinizi duaya qaldırınız ki, icabət həddinə yetişsin".

Mübarək hədisdən əxz olunan ən ümdə mətləb odur ki, insan Ramazan ayının nemətlərindən kifayət qədər bəhrələnməsi üçün Mütəal Allahdan ona nəzər salmasını diləməlidir. Allah ziyafətinə dəvət olunmasını istəməlidir, qəlbinin, niyyətlərinin, əzalarının haramlardan hifz olunmasını istəməlidir. Həqiqi oruc tutanlardan olmasını, ruhunun rəhmət nuru ilə şölələnməsini diləməlidir. Eyni zamanda, biz burada ictimai nöqtələrin əhəmiyyətliliyini görürük: kasıblara, imkansızlara, əlil və yetimlərə əl tutmaq burada önəmli yer tutur.

Digər mətnlərdə də biz orucu müşayiət edən ruhi vəziyyətlərə diqqəti yönəltməyin zəruriliyini görürük. **İmam Cəfər Sadiqdən (ə) nəql edilən mübarək hədisdə bildirilir**: “Oruc yalnız yeməkdən, içməkdən çəkinmək deyil. Əslində sizin orucunuz gərək aşağıdakılarla birgə olsun: (1) dilinizi yalandan qoruyunuz; (2) baxışlarınızı haramdan örtünüz; (3) bir-birinizlə dava-dalaş etməyiniz; (4) həsəddən çəkininiz; (5) bir-birinizin qeybətini rəva bilməyiniz; (6) mübahisə və söz-söhbətdən kənarda durunuz; (7) and içməyiniz, düz olsa belə; (8) söyüş və pis sözlərdən çəkininiz; (9) bir kəsə zülm və sitəm etməyiniz; (10) ağılsızlıq etməyin və qəm-qüssə çəkməyiniz”.

Ümumiyyətlə, dinimiz dönə-dönə vurğulayır ki, oruc tək yemək-içməkdən çəkinmək deyil. Həm də qaraqəlblilikdən, zülm etməkdən, haqq basmaqdan da çəkinməkdir. Eyni zamanda, oruc tutanın bütün əzaları ruhani bir pəhrizkarlıq durumundadır.

Böyük ariflərdən biri oruc tutanın vəziyyəti ilə bağlı incə bir nöqtəyə toxunur: “Oruc tutanın üç xüsusiyyəti var: 1. vacibata əməl etmək; 2. günaha batmamaq; 3. qəflətdən ayılmaq”.

Bəli, Ramazan ayının orucu bizə vacib buyurulub və onu tuturuq. Lakin, oruc yalnız ac və susuz qalmaq kimi başa düşülməməlidir. Gözümüzün, qulağımızın, bütün əzalarımızın orucunu tutmalıyıq. Yəni, günah etməməliyik. Oruc tutanın önəmli bir xüsusiyyəti də budur ki, o, qəflətdə olmaz, qəflətdən ayılar. Ramazan ayının birinci gününə başlayanda da, günün duasında ilk olaraq Allahdan bizi qəflətdən ayıltmasını istəyirik. Qəflətlə bağlı İmam Sadiqdən (ə) nəql edilən incə bir

buyuruş var. **İmam (ə) bizə çox mühüm xəbərdarlıq edir, bizlərə şeytanın (lən) balalarının yerindən xəbər verir və buyurur**: "Qəflət – şeytanın körpələr evidir. Bütün təhlükəli günahların başıdır və bütün İlahi vacibatlardan məhrum olmağa səbəb olan yerdir". Biz qəflətdə olanda, iblis (lən) öz toxumlarını atır, balalarını əmələ gətirir, bəsləyir və s.

İnsanın qəflətdə olması nə deməkdir? İnsan hər zaman ki, özünü Allah bəndəsi olaraq bilmir – bu zaman qəflətdə olur. İnsan qəflətdə olmasa qeybət etməz, yalan danışmaz, zülm etməz. Oruc tutmayan insan əslində qəflətdədir.

## Ən üstün oruc hansıdır?

Görəsən, dinimizin nəzərində ən üstün oruc hansıdır?

**Həzrət Əli (ə) buyurur**: "Qəlbin orucu dilin orucundan daha yaxşıdır. Və dilin orucu mədənin orucundan daha yaxşıdır".

Bir var insanın yalnız mədəsi oruc tutur, bir də var onun bütün əzaları oruc tutur. Amma ən üstünü – qəlbin orucudur. İnsan qəlbinə Allahın xoşuna gəlməyən heç nəyi buraxmır.

Bəs dəyərsiz oruc hansıdır? Orucu yalnız ac-susuz qalmaq kimi başa düşənin tutduğu oruc. **Həzrət Əli (ə) buyurur**: "Nə qədər oruc tutanlar var ki, oruclarından aclıq və susuzluqdan savayı bir bəhrələri yoxdur. Və nə qədər gecə oyaq qalanlar var ki, qıldıqları namazlardan, yuxusuzluq və çətinlikdən savayı, digər faydaları yoxdur"

# ON BİR AYIN SULTANININ TACI QƏDR GECƏSİ


«Qədr gecəsi – Həzrət Fatimədir. Bir kəs ki, xanım
Fatiməni (s.ə.) lazım olan kimi tanıya, Qədr gecəsini
dərk etmişdir».
İmam Cəfər Sadiq (ə)

**“Həqiqətən, biz onu (Quranı) Qədr gecəsində nazil etdik. Sən nə bilirsən ki, Qədr gecəsi nədir? Qədr gecəsi min aydan daha xeyirlidir. O gecə mələklər və ruh (Cəbrail) Rəbbinin izni ilə hər bir işdən ötrü yerə enərlər. O gecə dan yeri sökülənə kimi salamatlıqdır!”**

***“Qədr” surəsi***

## 30 günün bərəkəti

Ramazan ayını bənzətmələrlə bağlı çox maraqlı məqamlar var. Həmin bənzətmələr bu mübarək ayı tanımağa yaxşı kömək edir. Bu bənzətmələr arasında çox önəmli yeri, Ramazan ayının behiştə oxşadılması tutur.

İslam arifləri buyurur ki, hərilki mübarək Ramazan ayı – cənnətdən bir parçadır ki, Allah Təala bizi maddi dünyanın yandırıcı cəhənnəminə daxil edir və bizə fürsət verir ki, özümüzü bu İlahi süfrənin başında hiss edək, behiştə daxil olaq.

Bu bənzətmədən görürük ki, dinimizin nəzərində maddi dünya cəhənnəm odunun yandırıcı mahiyyətini özündə daşıyır, lakin, insanın öz ixtiyarındadır: o, bunu behiştə də döndərə bilər, cəhənnəmə də. Bəziləri həmin 30 günü behiştə daxil olurlar. Bəziləri o 30 günün bərəkətindən bütün il boyu faydalanırlar, gələn ilin Ramazan ayına qədər özlərində bu mübarək enerjini daşıyırlar. Bəziləri isə bütün ömürlərini bu behiştdə keçirirlər.

Bəzi insanlar isə bunun kənarından qəflət halında keçirlər ki, bu – çox böyük narahatlıq yaradan bir haldır. Ariflər xatırladır ki, bu ayın ən böyük hədəfi və məqsədi – təqvadır. Və bunu əldə etmək – insanın öz iradəsilədir. İnsan gərək səy etsin, bu ayın bərəkətindən götürə bilsin, özünü islah edə bilsin. Nəinki tək özünü islah etməklə kifayətlənsin, insan gərək

bacarsın digərlərinin də islahına təkan versin, yardım etsin. İnsanın daxilində ki, bu qədər istedad və bacarıq, ucalış və təkamül imkanı müəyyən edilib, bunlardan istifadə edərək hədəfinə çata bilməsə, özünü çox təəssüfedici bir duruma salmış olur. Mübarək Ramazan ayı – İlahi ziyafət ayı, bərəkət və rəhmət ayı, “leylətul-Qədr” – Qədr gecəsi ayıdır. Əziz iman əhli bu ziyafətin qonaqları, bu bərəkət və rəhmətin hədəfləridir. Bu elə bir süfrədir ki, onun saatlarını, dəqiqələrini heç nə ilə müqayisə etmək mümkün deyildir. İnsan bu ayda nə istəsə, Allah Təala Öz lütf və hikmətindən irəli gələn tofiqatla insana əta edər. Allahımız Öz ziyafətinə dəvət etdiyi qonaqlarına bu fürsətlərdən faydalanmaq üçün bütün imkanları təqdim etmişdir. Bu mənəvi ziyafətin ən şah nöqtəsi, ən uca zirvəsi – Qədr gecəsidir.

## Özlərini bağışlanmaqdan məhrum edənlər

Qədr gecəsi – İlahi qonaqlığın ən önəmli hissəsidir. Bu qonaqlığın ana qayəsi – insanın ruhi islahatıdır. İnsan əməllərini yenidən qiymətləndirir, öz mənəvi durumuna obyektiv qiymət verməyə çalışır və tövbə, istiğfar vasitəsilə islahatına rəvac verir.

Hər kim ki, öz daxilindəki eybəcərliklərlə, mənfiliklərlə, böyüklü-kiçikli günahlarla vidalaşmaq istəyir, Ramazan ayı bunun üçün ən gözəl fürsətdir. Bu ayın adında, mahiyyətində günahı məhv etmək vardır. **Böyük İslam Peyğəmbəri (s) buyurur**: “Ramazan (ayı) günahları yandırdığına görə “Ramazan” adlandırılmışdır”.

Dinimizin nəzərində, Ramazan ayında, xüsusilə Qədr gecəsinin əhyalarında bağışlanmayan insan – çox fərasətsiz və uğursuz bir məxluqdur. **Rəsuli-Əkrəmdən (s) nəql edirlər**: “Kim Ramazan ayını yaşasa və bağışlanmasa, Allah Təala onu

Öz rəhmətindən uzaqlaşdırar”. O, sonsuz bərəkətlərlə dolu bir süfrədən əliboş və ac bir vəziyyətdə durmuşdur. **Həzrət Peyğəmbər (s) buyurur**: “Ramazan ayında bağışlanmayan kimsə, bəs hansı ayda bağışlanacaqdır?!”. Bu qədər lütfün, nemətin müqabilində bağışlanmayan insana nə ad vermək olar? **Həzrət Rəsulullah (s) buyurur**: “Bu böyük ayda Allahın bağışlanmasından məhrum olan kimsə - bədbəxtdir”.

Demək, bədbəxt o deyil ki, pulu azdır, yaxud vəzifəsi yoxdur. Bədbəxt o deyil ki, zahiri imkanları məhduddur. Cahillər bədbəxtliyi maddi uğursuzluqlarla bağlamağa cəhd edərlər. Bu, onlara “uğur qazanmaq” yönündə min bir alçaqlığa qol qoymağa imkan verir. “Hədəf vasitəyə bəraət qazandırır” məntiqilə yüz oyundan çıxan ünsürlər, həqiqətdə nə dərəcədə bədbəxt olduqlarının, öz uğursuz durumlarının fərqinə varmırlar.

İldə bir ay Böyük Yaradan bütün insanları Öz ziyafətinə dəvət edir. Bu – sadəcə bir ziyafət deyildir. Bu ziyafətdə ac və susuz olmaq lazımdır, öz nəfsani istəklərini ram edib, mənəvi qidalardan bəhrələnmək lazımdır. Bolluca pay apara bilər insan bu ziyafətdən. Amma, əliboş da qala bilər. Hətta bu ziyafətə dəvəti qəbul etməyə də bilər. Onda gərək insan özünü qınasın. Dünyadaykən zəlil yaşamasına görə, mənəvi aşınmasına, əxlaqi rəzilətlərinə görə özünü tənbeh etsin. Və bütün əməllərin mizandan keçiriləcəyi Qiyamət günündən sonra özünü davam edəcək əzaba düçar etdiyi üçün də heç kəsə irad tuta bilməyəcək.

## Nuraniyyət bulağı

Ramazan ayı öz böyük təmizləyici və yeniləşdirici mahiyyətilə bizim həyatımıza daxil olur, gündəlik həyatımızın başqarışdırıcı, fikir yayındırıcı durumuna müdaxilə edərək, özünün bütün nemətlərini bizim ixtiyarımıza təqdim edir. Sanki

bir nuraniyyət gətirir həyatımıza mübarək Ramazan ayı. Bacaran insan, bir il bu nuraniyyəti gəzdirir. Elə insan da var ki, bu nuraniyyəti bütün ömrü boyu itirmir. Amma, vay olsun o insanın halına ki, bu nuraniyyəti görməkdən belə məhrumdur, o ki qalsın bunu qəbul etmək əzminə malik olsun. Belə insan özünü həqiqi mənada məhv etmişdir. Belə isə Allahdan istəyək ki, bizə qəflətdən çıxmağı və nuraniyyətə qovuşmağı qismət etsin.

Diqqət etsək, Ramazan ayının gündəlik dualarında mənfiliklərdən qurtulmaq diləkləri ilə yanaşı, müsbətliklərə yönəlməyə yardım üçün dualar da var. Təkcə mədənin, əzaların orucu deyil mübarək Ramazan ayının orucu. Bu – həm də təfəkkürün, düşüncənin orucudur. Təfəkkürün təmizlənməsi, zehni fəaliyyətin müsbətə doğru dəyişməsi üçün insan maksimal surətdə özü ilə məşğul olmalı, öz daxili aləminin ayrı-ayrı tərəflərinin islahına diqqət yetirməlidir.

Alimlər Qədr gecələri ilə bağlı qeyd edirlər ki, bəzən bu gecədəki mənəvi hal insana o qədər təsir qoyur ki, gələnilki Qədr gecəsinə qədər, hətta bəzən ömrünün sonuna qədər onun düşüncəsində, əxlaqında, rəftarında dərin və müsbət bir iz qoyur. Hər kəs öz tutumuna, mənəvi yükü qəbul etmə qabına uyğun olaraq, Qədr gecəsindən nə isə götürə bilər. Hərə öz istedadlarına, imkanlarına müvafiq bu mənəviyyat çeşməsindən qəlbinə doldura bilər. Bulaq həmişə var, qabı tədarük etmək və doldurmaq istəyi insandandır. Və çalışıb həmin bu tutumu, qabı artırmalıdır insan. Mənəvi yük götürmə qabiliyyətini yüksəltməlidir insan. **İmam Museyi-Kazim (ə) öz sadiq səhabələrindən olan Hişama buyurmuşdur**: “Ey Hişam! Bizdən deyil o kəs ki, özünü hər gün mühasibə etməyə. Bəs yaxşı əməlləri müşahidə etdikdə, bunları artırsın. Və pis əməl müşahidə etdikdə, o əmələ görə Allahdan bağışlanma, istiğfar istəsin və Ona doğru qayıtsın”.

## Saleh əməlin 1000 misli

Qədr gecəsinin nuraniyyətini anlamaq üçün bir onu xatırlamaq kifayətdir ki, bütün bəşəriyyətin nicatı üçün nəzərdə tutulmuş Qurani-Kərim bu gecədə nazil olmuşdur. Bu bir gecədir ki, mələklər dua edən insanları arayarlar. Bu gecədə sübhədək salamatlıq olur. Bu gecənin saleh əməlləri 1000 aydakı saleh əməllərdən daha üstündür. İmam Muhəmməd Baqirdən (ə) sual edirlər: "Qədr gecəsinin 1000 aydan üstün olmasının məqsəd və hədəfi nədir?". **İmam (ə) buyurdu**: "Bu gecədə yerinə yetirilən namaz, zəkat, sədəqə, infaq və digər müxtəlif saleh əməllər, Qədr gecəsinə (malik) olmayan min ay müddətində yerinə yetirilən hər bir saleh əməldən üstündür".

Qədr gecəsinin fəzilətləri və əməllərinin üstünlüyü ilə bağlı nəql edilən digər hədisdə **İmam Muhəmməd Baqir (ə) buyurur**: "Əgər Allah Təala möminlərin əməllərini neçə bərabər etməsə, bunlar kamal həddinə yetişməzlər. Amma Allah Təala (lütfündən irəli gələrək) onların yaxşı əməllərini neçə bərabər buyurur, ta ki, əskikliklərin yeri dolsun". İnsanın əməllərinə olduğu kimi yanaşılsa, durumu çətin olar. Amma Allahın qüdrəti, əzəməti, lütfü ilə, yaxşı əməllər bir neçə dəfə artırılır və bununla da əyər-əskikliklər aradan qaldırılır. Və Qədr gecəsinə bu xüsusi lütf verilmişdir. İndi bir kəs bu lütfü, bərəkəti dərk edib, amma bundan bəhrələnə bilməyibsə, onda yazıqlar olsun ona. Necə ki, **Böyük İslam Peyğəmbəri (s) buyurur**: "Bir kəs ki, Qədr gecəsini dərk edə və (bununla belə bağışlanmaya) – Allahdan uzuq olsun!". Allah Təala insana bu feyzlərdən bəhrələnmək üçün bütün imkanları təqdim etmişdir. Amma insan edə bilər ki, bunları əldə etsin, edə də bilər ki, özünü məhrumiyyətə məruz qoysun. **Rəsuli-Əkrəm (s)**

**buyurur**: “Həqiqətən, mübarək Ramazan ayı sizə tərəf üz tutub. Bu ayda bir gecə vardır ki, min aydan üstündür. Hər kim Qədr gecəsinin feyzindən məhrum olmuşdur – bütün xeyirlərdən binəsib qalmışdır. Və özünü məhrum etmiş kəslərdən başqa, heç kəs Qədr gecəsinin bərəkətlərindən məhrum qalmır”. Allah Təala cəmi insanlara bu mənəvi feyzləri qəbul etmək durumunu nəsib etsin!

Qədr gecəsinin fəlsəfəsinə varılması insanın dünyagörüşü, əqidə və imanının möhkəmliyi üçün o qədər əhəmiyyətlidir ki, əlavə təhlil və araşdırmalara ehtiyac vardır. Qədr gecəsi ilə bağlı iki mühüm nöqtəyə işarə edilir.

Birincisi budur ki, bu gecədə görülən bütün əməllər digər vaxtda edilənlərin 1000 misli qədərdir. Misal üçün, insan 1000 ay tövbə edə, bağışlanmaq istəyə, “Allah qapısı”nı döyə. Və bir Qədr gecəsində həmin əməlləri yerinə yetirə. Təsəvvür edək ki, təsir və nəticə baxımından bu bir gecə 1000 aydan daha üstündür! “Ya Rəbbim! Xətaya yol vermişəm, yanlışlıq etmişəm, bağışla məni, məğfirətini aid et mənə! Qayıdıram Sənə tərəf, bir daha məhvedici yola qədəm qoymayacağam!” – münacat edir bəndə öz Allahı ilə. Və bu bir gecədə etdiyi bu duanın bərəkəti, 80 il edilən yalvarışlardan üstündür – o qədər nemət verib Uca Allah Qədr gecəsinə. Bu gecənin saleh əməli 1000 ayın gözəl işlərindən üstündür.

Elə olur ki, insan çırpınır öz çatışmazlıqlarının torunda, namaza başlaya bilmir, yalandan qurtula bilmir, mənfi vərdişlərdən əl çəkə bilmir, gündəlik primitiv vurnuxmaların buxovundan nicat tapa bilmir. “Mən arzu edirəm Sən istəyən kimi yaşayım, haramlardan qurtulmaq istəyirəm, amma bacara bilmirəm öz zəifliklərimlə, Allahım” – deyə gileylənir bəndə öz durumundan. Və bir gecə var Ramazan ayında ki, xalis və dərin, həqiqi tövbə hesabına insan bilmərrə kənara qoya bilir onu əsarətdə saxlayan, şəxsiyyətini inkişaf etməyə qoymayan

xasiyyətlərini. İnqilab edə bilir öz dünyagörüşündə. Atır mənəvi zibilliyə öz eybəcər vərdişlərini. Böyük İlahi rəhmətin zühuru var bu gecədə – Qədr gecəsində.

Qədr gecəsilə bağlı ikinci məqam – insanın varlıq olaraq durumundan irəli gəlir. Zatən, ehtiyaclı və müdafiəsiz bir varlıqdır insan. Xarici faktorlardan, təbii və fizioloji amillərdən yüksək dərəcədə asılı vəziyyətdədir. Və təbii ki, insanın əməlləri də naqisliklər və çatışmazlıqlarla doludur. Namazı, orucu, ibadəti, hərəkəti, rəftarı, əxlaqı Peyğəmbər (s) və Əhli-Beytinə (ə), İlahi övliyalara xas səviyyədə deyildir, qüsurlarla doludur. Dinimizin məntiqində, Qədr gecəsi əməllərin boşluqlarının, əyər-əskikliklərinin, çatışmazlıqlarının cilalanması üçün ən əlverişli məqamdır. İnsan bir iş görür, amma daxilən hiss edir ki, bu o qədər də Allah istəyən səviyyə deyildir. Qədr gecəsində özülləri qoyulmuş həmin əməllərin boşluqları doldurulur.

## Vücudi tutumlar müəyyən olunan gecə

“Qədr” sözünün anlamı – ölçü, tutum, əndazə mənasınadır. Mübarək Ramazan ayının gecələri ilə bağlı istifadə olunan istilahi mənası budur ki, bu gecələrdə hər birimizin vücudi tutumu müəyyənləşir. Bu gecəyə necə gəlmişik? Bu gecəyə hazırıqmı? Bu gecənin hansı ayda olmasının fərqinə varırıqmı? Bu gecədə nəyin nazil olmasının dərkindəyikmi? Bu gecəyə necə daxil olmalıyıq? Bu gecədən hansı vəziyyətdə çıxmalıyıq? Bu haqda hər birimiz fikirləşməliyik. Amma, bir o şübhəsizdir ki, Allah dərgahında olduğunun fərqinə varanlar bu gecəyə fərqli durumda daxil olurlar. Özlərindən və dünyadan şikayətli halda gəlirlər.

Kiminsə qəlbini sındırıbmı? Bu anlamda əhya gecələri fövqəladə imkanlar təqdim edir. Danışaq Rəbbimizlə, ünsiyyət saxlayaq Rəbbimizlə. Çünki, bir gecədir Qədr gecəsi ki, 1000 ay mislindədir. Sübhədək insanın fürsətləri var. Allah dərgahında razi-niyaz etsin. Başına gələnlər üzərində düşünsün. Öz başına gətirdikləri haqqında təhlillər aparsın.

Rəbbimizdən özümüzün islahını istəyək. Üzləşdiyimiz bəlalardan qurtulmaq istəyək. Bu gecədə insanın diqqət yetirməli olduğu mövzulardan ən ciddisi – "mən hansı aydayam?" sorumudur. Bu bir aydır ki, Allah Təala hər birimizin qapısını döyüb və Öz ziyafətinə dəvəti hər birimiz üçün edib.

## Bu ziyafətin qonağının libası – təqva geyimidir

İnsan bir yerə dəvət olunanda, qonaq çağırıldığı yerə uyğun hazırlıq işləri görər. Birinci Qədr gecəsini qeyd etmək üçün gələn insan özü ilə Quran, dua kitabları götürür. Heç kəs Qədr gecəsinə gələndə bu gecəyə uyğun olmayan vəziyyətdə gəlməz. Hər kim Qədr gecəsini saxlamaq üçün gəlsə, bu gecənin tutumuna uyğun hazırlıqlar görməyə çalışır. Bir adam idman yarışına gedəndə özü ilə astronomiya kitabı aparmır. Yəni, hər məkanın, hər məqamın özünə uyğun hazırlığı var.

Bəs Allah ayında qonaqlığa dəvət olunan kəsin geyimi nədir? Axı hər hansı bir tədbirin mükafatı ilə o tədbirin ab-havası, qaydaları uyğun gəlməlidir. Allah Təala bizlərə mübarək Ramazan ayında mükafat olaraq nə vəd edibsə, deməli bu İlahi ziyafətdə geyimimiz də həmin mükafata uyğun olmalıdır. Əxlaq ustadları bildirirlər ki, bu ziyafətin libası da təqvadan ibarətdir. Əgər biz Allahın qonağı olmaq istəyiriksə, gərək əynimizə təqva libası geyinək.

## Təqva libasımız yoxdursa, nə edək?

Ramazan ayının xeyli hissəsi geridə qalıb. Həmin günlər ərzində Allah qonaqlığına uyğun libasda ola bilmişikmi? Bizim bu qonaqlıqdan bəhrələnməmiz üçün kamil bir libasımız olmayıb. Əgər biri müəyyən yerə gedəcəksə və oraya uyğun geyimi olmazsa, həmin adam dostlarından, qohumlarından bir münasib paltar alıb geyinər. Ən rahatı odur ki, valideynindən alsın.

Bizim də əksər halda bu İlahi ziyafətə uyğun libasımız yoxdur. İndi bu qonaqlığın ən böyük nemətləri olan gecəsinə - Qədr gecəsinə gəlib çatmışıq. Bu mənəvi imkanlardan istifadə etmək üçün uyğun libasımız yoxdur. Maddi qonaqlığa gedənlərin geyimləri olmazsa, valideynlərininkini alarlar. Bizim də çıxış yolumuz budur ki, Qədr gecəsində Rəsulallaha (s) müraciət edək: "Ya Rəsulallah (s)! Bizlər sənin balanıq, Allah bizləri qonaq çağırır. Əynimizə geyinməyə təqva libasımız yoxdur. Ya Rəsulallah (s)! Balalarına əyinlərinə geyinməyə bir şey ver!", - deyə ümməti üçün ürəyi yanan əziz Peyğəmbərimizə (s) müraciət edək.

Əmirəlmömininə (ə) müraciət edək: "Ya Əli (ə)! Sən imkansızlara əl tutan Əlisən! Sən yoxsullara, fəqirlərə, yetimlərə əl tutan Mövlasan! Əli (ə) can! Yetimlərin gəlib İlahi ziyafətə daxil olub, amma əynimizdə bu ziyafətə uyğun mənəvi libasımız yoxdur!".

Xanım Zəhra (s.ə) qapısını döyə bilərik: "Anacan, övladın bir şeyi çatmayanda gəlib anasına deyər. Anacan, bu İlahi ziyafətdə Rəbbimlə danışmağa sözlərim var. Amma, bu İlahi ziyafətdə əynimə geyinməyə uyğun geyimim yoxdur. Bizlərə bu əhya gecəsində təqva geyimindən hədiyyə et!".

## Təqva mükafatını almaq üçün Qədr gecəsi fövqəladə fürsətdir

Mübarək Ramazan ayında və xüsusilə də Qədr gecələrində onu qazanmaq üçün böyük fürsətlər olan təqvaya, insanın həyatının hər bir anında, hər bir mərhələsində ehtiyacı var. Əgər bir günlə yaşamasaq, təqvanın nə olduğu anlayarıq.

**Həzrət Əli (ə) buyurur**: "Sizin ən uzaqgörəniniz – ən təqvalınızdır". Kim ki, uzaqgörəndir, o, bir gün öləcəyini başa düşür. Öləndə insana heç nə kömək ola bilməyəcək. Əhya gecələrinin qəhrəmanı olan **Həzrət Əmirəlmöminin (ə) bizi ölüm barədə də xəbərdar edir**: "Ölümü – qəbirdən qalxıb Allah qarşısında dayanacağınız günü çox yad edin ki, müsibətlər sizə asan olsun". Həqiqi uzaqgörən insan – bu buyuruşa diqqət edən kəsdir. Heç kəsin təminatı yoxdur ki, neçə il yaşayacaq. **Peyğəmbərimiz (s) buyurur**: "Elə bir mənzərə görmədim ki, qəbirdən daha qorxulu olsun".

Qəbir – mexaniki bir yer deyil. Qəbir – insanın ruhu ya xoşhal olan, ya da əzablar çəkən yerdir. **İmam Sadiq (ə) buyurur**: "Qəbir hər gün söhbət edir və deyir: "Mən qürbət eviyəm. Mən tənhalığın eviyəm. Mən qurdların eviyəm. Mən qəbirəm. Mən cənnət bağlarından və ya cəhənnəm çuxurlarından biriyəm".

Qəbirimizin necə olacağı bizlərin dünyada gördüyü əməllərdən asılıdır. Necə gəldi yaşasaq, cəhənnəm çuxuru olacaq. Həyatımızda hər zaman buna diqqət etsək və təqvalı yaşasaq, cənnət bağına çevriləcək.

Əhya gecələri bütün bunları xatırlamaq, bunlar barədə düşünmək üçün ən böyük imkandır. **Həzrət Əli (ə) buyurur**: "Ey Allahın bəndələri! Bağışlanmayan üçün ölümdən daha

ağırı qəbirdir. Belə isə, qəbrin darlığından, təzyiqindən, qaranlığından və tənhalığından qorxun".

Yəni, bizim hər birimizi, bağışlanmayacağımız təqdirdə, dar, sıxıntılı, qaranlıq qəbir gözləyir. Hər kəs bir gün dünyadan gedəcək. Bu sıxıntını yaşamamaq onun özündən, öz əməllərindən asılıdır.

## Geyimi, mükafatı təqva olan gecənin təqva təcəssümü olan qəhrəmanı

Bu İlahi ziyafətin geyimi təqvadır. Bu ziyafətin mükafatı da təqvadır. Bu mübarək ayın şah zirvəsi olan Qədr gecəsinin şəhidi də təqvanın ən uca zirvəsində idi. Bir kəs idi ki, təqvanın tam surətdə, hər mənada simvoludur.

Əlini (ə) niyə sevmirlər? Niyə görə istər onun həyatında, istərsə də şəhadətindən sonra kimlərinsə onunla ədavəti var? Onlar Əmirəlmöminin (ə) təqvasını həzm edə bilmirlər. Həzrət Əli (ə) həm özü təqvanın rəmzidir, həm də insanları təqvaya doğru yönəldən bir şəxsdir. Əmirəlmömininі (ə) hər kəs azdan-çoxdan tanıyır. Amma, Əlinin (ə) şagirdləri bir zirvədədir ki, tarix belə insanlar görməyib. Bu məktəbin layiqli tələbələrindən biri – Meysəm Təmmardır. Meysəm bir şəxsdir ki, "Həzrət Əli (ə)" dediyinə görə, Əli (ə) həqiqətini çatdırdığına görə dar ağacından asırlar, dili sakit durmur, onu da kəsirlər.

## Həzrət Əli (ə) məktəbinin layiqli şagirdi

Bir vaxt var idi ki, Meysəm Təmmar da sağ idi, Kərbəlanın ən böyük şəxsiyyətlərindən olan Həbib ibni Məzahir də sağ idi. Onların hər ikisinin ən böyük arzusu – Allah yolunda şəhid olmaq idi. Onların hər ikisi öz arzusuna çatacaq. Həbib Kərbəlada, Meysəm isə Kufədə.

Bir gün Meysəmlə Həbib ibni Məzahir görüşüb söhbət edirlər. Bir qədər söhbət etdikdən sonra, görüşün sonunda Həbib Meysəmə deyir: "Sanki Peyğəmbərin (s) ailə-övladı ilə dostluq yolunda dara çəkilən, yemiş satan bir qocanı görürəm". Həbib işarə edir ki, bir gün Meysəm dara çəkiləcək, ağ saqqalı qanının rənginə boyanacaq.

Meysəm də onun cavabında deyir: "Mən də Peyğəmbərin (s) qızının övladına yardım üçün qiyam edən, öldürülən, başı kəsilib Kufəyə göndəriləcək kişini yaxşı tanıyıram". Meysəm Həbibin Kərbəladakı şəhadətinə işarə edir.

Bir qədər keçdikdən sonra həmin yerə Ruşeyd Həcəri gəlir. Soruşur, "Meysəmlə Həbib nə danışırdılar?". Onların nə danışdığını Ruşeydə bildirirlər. Ruşeyd deyir: "Allah Meysəmə rəhmət eləsin. O, bir şeyi deməyi unudub ki, Həbibin başını nizəyə keçirib Kufəyə gətirənə yüz dirhəm verərlər".

## Mələklərin nazil olduğu gecə

Əziz Rəbbimiz mübarək Qədr gecəsi ilə bağlı, bu gecənin tanıdılması ilə bağlı, xüsusiyyətləri, vacib cəhətləri ilə bağlı Qurani-Kərimin bir neçə yerində gözəl açılışlar vermişdir. **"Qədr" surəsində buyurulur** ki, "Mələklər və Ruh o gecədə Rəbblərinin iznilə nazil olarlar…".

Mələklər barədə vəziyyət aydındır. Ruh dedikdə, bir sıra təfsirçilər cənab Cəbrayılı (ə), bəziləri isə digər şərəfli bir varlığı nəzərdə tuturlar. Bu vücudlar həmin gecə nazil olarlar

və bu Qədr gecəsindən gələn ilin Qədr gecəsinədək hər bir işin təqdir, tənzim və sabit edilməsini təmin edərlər. Bu gecə Allah Təala mələklərin üzərində öhdəlik müəyyən etmişdir, belə bir şərəfli missiya qoymuşdur ki, insanların işləri üçün nəzm və təqdirat əncam versinlər. İradəvi varlıq olan insanın üzünə gələn ilin necə keçməsi, hansı istedadlarının üzə çıxması, necə nizamlanması həmin gecə həll olunur. Və həmin gecənin necə keçməsi, nəticə etibarilə aqibətinin necəliyi – insanın öz əlindədir. Bu, gecəni keçirmə keyfiyyətindən bilavasitə asılıdır.

Mübarək Qurani-Kərimin **"Duxan" surəsinin 4-cü ayəsində**, Rəbbimiz Qədr gecəsində baş verən bir məsələni də açıqlayır. "Bu gecədə hər bir iş hikmət əsasında ayrılar". Yəni, Qədr gecəsi – bir gecədir ki, Allahın hikməti əsasında hər bir iş digərindən ayrılar, yerbəyer olar. Yaxşının və pisin, çalışqanın və tənbəlin, tanıyanın, mərifətlinin və qəflətdə olanın, alimin və cahilin, ədalətlinin və zülmkarın – hər bir kəsin işi öz müvafiq yerinə gedər, özünə aid "rəfə" qoyular. Və nəticədə zəmanə Sahibinə (ə.f.) təhvil verilər.

Ayədən bəlli olur ki, bu işdə bir davamlılıq var. Peyğəmbərimizin (s) vaxtında da ayrılırdı işlər, növlərə bölünürdü, Həzrət Əlinin (ə) də vaxtında, sonrakı dövrlərdə də bu proses gedirdi. O zaman da hər şey müəyyənləşərək, yiyəsinə təhvil verilirdi, indi də hər il iş gedir. Və bu mənəvi-ruhani proses Allahın əmri ilə Qiyamət gününədək davam edəcəkdir.

## Agahlıq zirvəsi

Toxunulan məsələdə nübuvvətlə imamətin bir bağlılığı, bir mənəvi körpünün mövcudluğu sezilir. Burada, ümmətin əlindən tutub aparmaq, yol göstərmək missiyası görünür. 23 illik nübuvvəti dönəmində nə kimi əziyyətlərlə qarşılaşdı, nə böyüklükdə itkilər verdi, amma necə şərəfli nümunələr göstərdi, necə əzm və şücaət, əxlaq və mənəviyyat məktəbini miras qoydu Peyğəmbərimiz (s). Dünyadan köçməmişdən öncə ümmətə bir daha bildirdi ki, nicat – Həzrət Əliyə (ə) və ondan sonra gələn digər 11 İmama (ə) bağlılıqdan keçir, zillət isə – bu mübarək vücudlardan ayrı düşməkdən.

**İmam Muhəmməd Baqirə (ə) sual etdilər**: “Siz bilirsinizmi Qədr gecəsi (məhz) hansı gecədir?”. **Buyurdu**: “Necə bilməyək?! Bir halda ki, Qədr gecəsində mələklər bizim (yəni, İmamların) ətrafımızda dövr edirlər”.

İnsanlar Ramazan ayında əhya keçirilən 3 gecədən hansının dəqiq Qədr gecəsi olduğunu bilmirlər. Amma, hədisdən bəlli olur ki, Peyğəmbəri-Əkrəmin (s) xəttinin davamçıları bu günü dəqiq bilir, gözəgörünməz məxluqların İlahi canişin olaraq onlara ehtiram etməsini müşahidə edirlər.

**İmam Səccad (ə) buyurur**: “Həqiqətən, hər il Qədr gecəsində işlərin təfsir və bəyanı Vəliyyi-əmrə (Zəmanə İmamına (ə.)) endirilir, çatdıılır”. Başqa bir yerdə **İmam Səccad (ə) buyurur**: “Ey yolumuzu gedənlər! “Qədr” surəsi ilə məsum İmamların (ə) müxalifləri ilə müxasimə və mübahisə ediniz ki (höccəti tamamlayınız ki), uğur qazanasınız”. Yəni, İmam (ə) çatdırır ki, “Qədr” surəsi o qədər əzəmətli surədir ki, bunun vasitəsilə siz imaməti inkar edən insanlara höccəti tamamlaya, dürüst məlumatı tamlığı ilə çatdıra bilərsiniz. **Hədisin davamında buyurulur**: “Allaha and olsun ki, o surə - Peyğəmbəri-Əkrəmdən (s) sonra Allah Təalanın insanlara

höccətidir. Və o surə - sizin dininizin ağasıdır və bizim agahlıq və bilgimizin zirvəsi və nəhayətidir”.

Eyni oxşar sözləri İmam (ə) “Duxan” surəsinin ilk ayələri ilə bağlı da buyurmuşdur. **Həzrət Peyğəmbər (s) isə buyurmuşdur**: “Qədr gecəsinə iman gətiriniz, çünki o gecə məndən sonra Əli ibn Əbutalib və onun 11 övladı üçün olacaqdır”.

Yəni, bu mətləblərdən insan başa düşməlidir ki, Peyğəmbərdən (s) sonra bu nurani rəhbərliyin davamı var və bu rəhbərlik günümüzədək davam edir. Peyğəmbərimiz (s) bizə buyurur ki, Qədr gecəsində bir imamət dərsi gizlənmişdir. Yalnız agahlar bu dərsi görərlər. Qədr gecəsinin mahiyyətini anlayan insan, vilayətə imanlı çıxar bu gecədən. Allah Təala cəmimizi Zəmanə İmamının (ə.f.) zühurunun həqiqi müntəzirlərindən, həqiqətən gözləyənlərdən qərar versin!

## Qədr gecəsi və Həzrət Fatimə (s.ə.)

Qədr gecəsini Həzrət Fatimənin (s.ə.) mübarək vücudu ilə müqayisə edirlər.

Kimdir əziz xanım Fatimeyi-Zəhra (s.ə.)? Qədr gecəsini bəşəriyyətə bəxş edən Allahın Elçisi olan Həzrət Muhəmmədin (s) əxlaq və kamillik bağının ən nəcib meyvəsi. İslamı ilk qəbul edən qadın olan Həzrət Xədicənin (s.ə.) sevimli balası. Qədr gecələrindən birində minbərdə şəhadət şərbətini içən Həzrət Əlinin (ə) ömür-gün yoldaşı, sirdaş və məsləkdaşı. Ümmətin zəlalətli durumuna görə tənha sərkərdəlik acısını dadan İmam Həsənin (ə), Kərbəla sərvəri İmam Hüseynin (ə) əziz anası. Aşura şahidi, öz dəyanət və qəhrəmanlığı ilə lənətlik Yezid

istibdadını sarsıdan xanım Zeynəbin (s.ə.) mehriban anası. Əhli-Beytə (ə) olan zülmün simvoluna çevrilən, ana bətnində şəhid olan Möhsünün yarası sağalmaz anası.

Ariflər deyərlər, gördün ki, duaların qəbul olmur, qəlbin riqqətə gəlmir, tövbə etmək çətin olur – təvəssül et Həzrət Fatiməyə (s.ə.). Bu – o qapıdır ki, buradan heç bir məzlum əliboş qayıtmaz, dəyanət və şəxsiyyət əldə etmək istəyən, Allahının nəzərində əziz olmaq istəyən öz muradına çatar.

İndi xanım Fatimə (s.ə.) ilə müqayisə edirlər Qədr gecəsini. **İmam Cəfər Sadiq (ə) buyurur**: "Qədr gecəsi – Həzrət Fatimədir (s.ə.)". **Davamında buyurur**: "Bir kəs ki, Xanım Fatiməni (s.ə.) lazım olan kimi tanıya, Qədr gecəsini dərk etmişdir".

Deməli, əgər insan Qədr gecəsini dərk etmək istəyirsə, gərək Həzrət Zəhranı (s.ə.) tanısın. Təfsirlərdə bu müqayisənin iki nəcib açıqlanması təqdim edilir. Bildirilir ki, Xanım Fatimə (s.ə.) pak İmamların (ə) – 11 məsum İmamın (ə) nazil olma məkanıdır, İmamlar anasıdır. Qədr gecəsi də haqqın əmrinin İmamlar (ə) üçün nazil olma məkanıdır.

İkinci nöqtə ona qayıdır ki, Həzrət Fatiməni (s.ə.) tanıyan – vəlisini tanıyar. Vəlisini tanıyan Qədr gecəsini dərk edər. Bir insan Xanım Fatiməni (s.ə.) tanısa, imamətə gəlib çıxar. Bir kəs Qədr gecəsini anlamaq istəsə, bilər ki, bu gecə Zəmanə Sahibinə (ə) Allahın əmrlərinin çatdırılması gecəsidir. Yəni, həm Həzrət Fatiməni (s.ə.) tanımaqla, həm də Qədr gecəsinin mahiyyətinə varmaqla insan imaməti dərk edə bilər.

Allah Təala cəmi insanlara bu mübarək anlamlara çatmaq mərifətini qismət etsin!

# QÜDS GÜNÜ – İZZƏT GÜNÜDÜR


Qüds günü – müsəlmanların özlərinə qayıtma günüdür. Ramazan ayının son cümə günündə müsəlman xalis durumu ilə özünə qayıdır.
Hacı İlqar İbrahimoğlu

## Qüds günü – izzət günüdür

Mübarək Ramazan sonuncu cümə günü – Qüds günüdür. Qüds günü müsəlmanların izzəti günüdür. Qüds günü bir gündür ki, bu gündə müsəlmanlar bir toplum olaraq, cəm şəklində öz sözlərini dünyaya çatdırırlar. Qüds günü müsəlmanların izzət günüdür. Ona görə də izzətlə bağlı mövzuya aydınlıq gətirək.

**İmam Sadiqdən (ə) nəql edirlər**: "İzzət odur ki, hər vaxt ki, haqla üzbəüz gəlsən, gərək haqqın müqabilində təvazö edəsən".

Bu, çox böyük, fövqəladə dərəcədə fundamental dəyərdir. İzzət o deyil ki, adamın pulu çox ola, malı çox ola, adamlar içində süni təriflərlə yaşaya. Mübarək İslam məntiqində haqq müqabilində təvazö edən zaman insanın izzəti var.

**Həzrət Əli (ə) buyurur**: "Hər kim izzəti Allahdan qeyrisində axtara, o "izzət" onu məhv edər".

**Loğmandan belə nəql edirlər**: "Əgər istəyirsən ki, dünya izzətini ələ gətirəsən, onda gərək insanların əllərində olan şeylərdən gözünü çəkəsən". Yəni, insan olmaq üçün nəfsini qorumalısan, başqalarında olan şeylərdən gözünü çəkməlisən.

## Qüds – yəni Qarabağ! Qarabağ – yəni Qüds!

Qüds günü təkcə Fələstinlə bağlı bir gün deyil. Qüds günü – müasir dünyada müsəlmanlara üz tutularaq çalınan bir təbildir! Bu təbil deyir: "Ey, müsəlman! Sən bu məğlubiyyətlərlə hara gedirsən? Bəs bunun sonu nə olacaq? Axı bu gün, bu zülm Fələstində varsa, sabah hər yerdə ola bilər...".

Necə ki, gözümüzün qabağında artıq baş verməkdədir – Qarabağ, Əfqanıstan, İraq... Qarabağımızda gör nələr baş verir!?

İstəyirik bilək Qüds nədir, gərək erməni əsirliyində əziyyət çəkən əsirlərimizi, onların nalələrini, itirilmiş torpaqlarımızı yada salaq. Əgər anlamaq istəyiriksə ki, necə oldu Qüds meydana gəldi, gərək gözümüzün qabağında satılan torpaqlarımızı, bu torpaqlarla edilən alverləri xatırlayaq. Elə bütün dünya səviyyəsində müsəlman torpaqları bu durumdadır. Ona görə də, bizim dəqiq bir şüarımız var: Qüds – yəni Qarabağ! Qarabağ – yəni Qüds!

## Ayılma günü

Qüds günü – ayılma günüdür. Qüds günü – müsəlmanların özlərinə qayıtma günüdür. Qüds günü – öz mənliyinə, öz mənəviyyatına, öz milli ideologiyalarına, öz dininə, öz şəxsiyyətinə, öz vücudi durumuna qayıtma günüdür. Ona görə də, bu gün mücərrəd nələrdənsə danışmaqdansa, istər Fələstində, istər Qarabağda, istər daha geniş olaraq ümumən müsəlmanların problemlərinin həlli müstəvisində söhbət açmaq gərəklidir. Müsəlmanlar ayılmalıdırlar. Azad olmalıdırlar. Həqiqi, xalqına bağlı olan ziyalılar yetişməlidir.

Qüds günü – Qarabağ günüdür, oyanış günüdür, özümüzə qayıdış günüdür, cılızlıqdan, kiçiklikdən, bölünməkdən, şəxsiyyətsizlikdən, yaltaqlıqdan xilas olma günüdür, insan olma günüdür, kamil insan yetişmə günüdür.

Bu günün mübarək Ramazan ayının sonuncu cümə gününə salınması da təsadüfi deyildir. Yəni, ey Allah qonağı, bu qonaqlığı nəinki bir tək mənəvi oyanışla, həm də ictimai-siyasi oyanışla tərk etməlisən!

## Bu itkilərin səbəbi nədir?!

Qarabağı niyə itirdik? Zəngəzuru niyə itirdik? Vətəni niyə itirdik?

Hərə bir səbəb göstərəcək. Kimisi siyasi amillərlə bağlayacaq, kimisi geopolitik oyunların nəticəsi kimi dəyərləndirəcək, bir başqası başqa amillər arayacaq. Amma bu itkinin gerçək bir səbəbi var. Şuşadan qabaq biz bir başqa şeyləri artıq itirmişdik.

Biz niyə bu gün əziz Şuşanı azad edə bilmirik? Çünki hələ də ondan öncə itirdiyimizi qaytarmamışıq. Hətta deyərdik ki, itirə-itirə də gedirik. Deməli, əslində bu itkilər davam etdikcə, Şuşamızın itkisini daha da artırırıq.

Biz Şuşanı, Qarabağı ona görə itirdik ki, özümüzü itirmişik. Bu torpaqları quru coğrafi anlayışdan müqəddəs Vətən anlayışına qədər ucaldan öz vücudi kimliyimizi itirmişik. Biz Şuşadakı, Qarabağdakı, İrəvandakı məscidləri ilk olaraq deyil, ondan öncə onun içindəki gerçək varlığımızı itirmişik. Biz əvvəl bu məkanlarda yaşayan insanımızın varlığını itirmişik.

## Mübarək ayın axırıncı cümə günü

Mübarək Ramazan ayının axırıncı cümə günü Beynəlxalq Qüds Günü kimi qeyd edilir. Mübarək Ramazan ayı ilə Beynəlxalq Qüds günü arasında birbaşa əlaqə vardır. Çox ciddi vicudi əlaqələri vardır. Əlaqə bundan ibarətdir ki, mübarək Ramazan ayı mahiyyətcə bizlərdə təqvalılığı artırmaq üçündür. Qüds günü də məhz təqvalıların günüdür. Mübarək Ramazan ayının ana məqsədi, ana hədəfi – bizdən bəndə yetişdirməkdir. Qüds günü – bəndələrin günüdür. Qüds günü – Allaha bəndəlik etmək istəyənlərin günüdür.

Ən əsas məsələ budur ki, biz Qüds gününü tarixi bir gün kimi yox, coğrafi, geopolitik bir gün kimi yox, elə sırf ibadi, İslami bir gün kimi dərk edək. Və necə biz həcc əməllərini başa vurduqda həccin yekunlarında zalımlara "yox" deyərək, əslində öz tövhidpərəstliyimizi bildiririk, mübarək Ramazan ayının da mənəvi səfərinin yekununda Qədr gecələrindən çıxmış insanın əslində bir "Lə iləhə illəllah" hayqırtısıdır Qüds günü.

Əslində Qüds günü – dünyada bütün İslam torpaqlarının işğalına "yox!" demə günüdür. Bu anlamda Qüds günü həm də Qarabağ günüdür. Qüds günü – Şuşa günüdür, Ağdam günüdür. Bu gün təkcə Fələstin günü deyil, həm də Qarabağ, İraq, Əfqanıstan, Pakistan, Kəşmir, Myanma günüdür. Ümumən İslam torpaqlarının hər bir yerində ki, zülm edilir, hər yerində ki, müsəlmanların haqlarına təcavüz edilir, ümumən insanlıq adına təcavüz edilir – Qüds günü həm də bura bağlıdır. Bu mənada bu günün anlamı yalnız tarixi və coğrafi anlamla yekunlaşmır.

Bəli, Qüds günü – bütün zülmə məruz qalmış insanların günüdür. Allah dərgahında bir ay oruc tutmuş və mənəvi yüksəlişə çatmış insanın sözün həqiqi mənasında İlahi vətəndaşlıq günüdür Qüds günü! Böyük ariflərdən birinin buyurduğu kimi, Qüds günü – İslam günüdür.

İslam anlayışının içində nə varsa, Qüdsdə də var. Qüds günü bütləri sındıranların günüdür. İstər maddi, istər qeyri-maddi bütlərini sındıranların günüdür. Dünyanın hər yerində, harada olmaqlarından asılı olmayaraq bütün müsəlmanlar – "Lə iləhə illəllah" əhli, Rəsulullah (s) aşiqi, qiblə tanıyan, əhya saxlayan insanlar bu gün Qüds günü keçirir. İstər Fransada, istər Ərəbistanda, istər Türkiyədə, istər İtaliyada – harada müsəlman var, ona çətin də olsa, asan da olsa, onu tərifləsələr də, acılasalar da – bu gün Qüds gününü keçirir.

Redaktor: Novruzəli Əziz
Korrektor: Muhəmməd Hüseynli
Dizayner: Əli Sadiqli
Kompüter tərtibatçısı: Mehdi Atakişiyev

**Kitabın bütün hüquqları qorunur.**



**İlqar İbrahimoğlu — DEVAMM-ın (Dini Etiqad və Vicdan Azadlıqlarının Müdafiə Mərkəzi) sədri, İçərişəhər "Cümə" məscidinin imam-camaatı, həftəlik "Dəyərlər" qəzetinin və Dəyərlər AİN (Azerbaijan Islam News) portalının (www.deyerler.org) baş redaktorudur.**

İlqar İbrahimoğlu 5 noyabr 1973-cü ildə dünyaya gəlmişdir. Gənclik illərində "Nə? Harada? Nə vaxt?" komandasının kapitanı olmuşdur. Uşaq çağlarından Azərbaycanın əməkdar məşqçisi Oleq İsaakoviç Privorotskinin rəhbərliyi altında şahmatla məşğul olmuşdur. Birinci dərəcəli şahmatçıdır.
İqtisadiyyat, fəlsəfə və ilahiyyat üzrə ali təhsil almışdır. "İslam və Qərb fəlsəfələrinin inteqrasiyası" mövzusunda elmi dissertasiya müdafiə etmişdir.
İlqar İbrahimoğlu Varşavada yerləşən İnsan Haqları üzrə Beynəlxalq Məktəbin məzunudur. Bununla yanaşı, "Narkomaniya və alkoqolizm üzrə beynəlxalq ekspert" sertifikatına malikdir.
İlqar İbrahimoğlu Avropa İttifaqının Siyasət Məktəbinin məzunudur. Bununla yanaşı, Avropa Birliyi Şərq Əməkdaşlıq Proqramının Vətəndaş Forumu Platformasının daimi üzvüdür.
İlqar İbrahimoğlu "Əsma-ül-Hüsna" (irsi qan xəstəlikli uşaqlara qayğı üzrə ixtisaslaşan), "Yetimsiz Vətən" (valideyin himayəsindən məhrum olmuş uşaqların psixoloji reabilitasiyası və cəmiyyətə inteqrasiyası üzrə ixtisaslaşan) proqramlarının koordinatorudur.
Bununla yanaşı İbrahimoğlu, "Hikmət evi" disput mərkəzinin və "İslam maarifi" proqramının elmi rəhbəridir. Həmçinin tolerantlığın, dözümlülüyün, mədəni inteqrasiyanın inkişafına yönəli "Mədəniyyətlərin dialoqu" proqramına rəhbərlik edir.
İlqar İbrahimoğlu teologiya, postmodern fəlsəfə və insan haqlarının fəlsəfəsi kimi sahələrdə interdistiplinar tədqiqatlar aparır. Eyni zamanda, neyrolinqvistikanın şəxsiyyətlərarası ünsiyyətlərdə və paradiqmal təmasda rolu və yeri barədə araşdırmalarla məşğul olur. Göstərilmiş tədqiqatlar çərçivəsində Avstriyaya, Polşaya, ABŞ-a, Almaniyaya, Türkiyəyə, İrana, Yunanıstana, Rusiyaya, Ukraynaya, İordaniyaya, İsveçrəyə, Fransaya, İtaliyaya səfərlər etmişdir.
Bir neçə xarici dil bilir.
2009, 2010, 2011 və 2012-ci illərdə "Dünyanın ən nüfuzlu 500 müsəlmanı" reytinqində Azərbaycanı təmsil edən 4 nəfərin arasında yer alıb.
Asudə vaxtlarını eqzistensional mövzularda ədəbiyyatın mütaliəsinə, idman məşğuliyyətlərinə sərf edir.
Evlidir, üç övladı var